

Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

Azərbaycan xalq bayramı

# novruz

bələdçi kitab

10817

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

Təhsil
BAKI – 2011

82.3(5Aze)
A 99

AZƏRBAYCAN RESPUBLİKASI
MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ

Layihənin rəhbəri və ön sözün müəllifi
**ƏBÜLFƏS QARAYEV**
Azərbaycan Respublikası
Mədəniyyət və Turizm naziri

**Mətnin müəllifləri:**
**ƏDALƏT VƏLİYEV**
**VAQİF BƏHMƏNLİ**

**Naşiri:**
**BƏHRUZ AXUNDOV**

N76 **novruz** Azərbaycan xalq bayramı.
Bələdçi kitab. Bakı, «Təhsil» nəşriyyatı. 2011, 208 səh.

N $\frac{4702060206}{053}$ 2011

Bu kitab Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin tanıtma layihəsi çərçivəsində Azərbaycan xalqının milli bayramı haqqında bilgiləri əks etdirir.

İnanırıq ki, dəyərli fotolar və rəsm əsərləri, dolğun məlumatlar və folklor nümunələri ilə zəngin olan toplunu vərəqlədikcə, böyük bayramla bağlı adət-ənənə və mərasimlər sisteminin yaranması, qorunub yaşadılması prosesini izləyə biləcəksiniz.

© Azərbaycan Respublikasının
Mədəniyyət və Turizm Nazirliyi, 2011
© «Təhsil Nəşriyyat-Poliqrafiya» MMC, 2011



Novruz
sayalı bir alqışdır.
Novruzda
istənən diləklər
yerinə yetir.
Novruz axşamı
görülən yuxu
çin olur.
Siz də bu kitabı
Novruz
alqışlanyla açın!

Bayramlar bayramı
Ulu Novruz,
qədəmlərin mübarək!
Göy üzündə işıq saçan
günəşinə salam olsun,
Ulu Novruz!
Yellər əsən uca göyün
aydın olsun,
Ulu Novruz!
Duz-çörəkli, mərd ürəkli
oğulların min yaşasın,
Ulu Novruz!
Ocaqların gur qalansın,
Ulu Novruz!







"Novruz bayramı ürəklərdə saf duyğuların oyanması, insanlar arasında səmimiyyət, mehribanlıq və qardaşlıq tellərinin möhkəmlənməsi, onların bir-birinə qayğı və diqqətinin artırılması üçün gözəl zəmin yaradır. Yaxınların yad olunması, umu-küsülərin, kin-küdurətlərin aradan qaldırılması, cəmiyyətdə qarşılıqlı xoş münasibətlərin bərqərar olması Novruzun əsrlərin süzgəcindən keçərək formalaşmış gözəl ənənələrindəndir".

HEYDƏR ƏLİYEV,
Azərbaycan xalqının Ümummilli lideri



"Ailə dəyərləri, bizim milli mənəvi dəyərlərimiz, ənənələrimiz, bizim mədəniyyətimiz, tariximiz - bütün bunlar Azərbaycan xalqını qorumuşdur. Uzun illər, əsrlər boyu biz başqa ölkələrin tərkibində yaşamışıq. Ancaq milli xüsusiyyətlərimizi itirməmişik. Assimilyasiyaya düçar olmamışıq, öz dilimizi, adət ənənələrimizi, milli bayramlarımızı qoruyub saxlamışıq".

İLHAM ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti



# Kitabın içindəkilər


Əbülfəs Qarayev,
Azərbaycan Respublikasının
Mədəniyyət və Turizm naziri ............. 9
Tükənməz qüdrət ............................15
Novruzun Vətəni Azərbaycan ...........28
Elə ki fəsli yaz olur... ......................38
Yeddi çərşənbə ..............................42
Su çərşənbəsi .................................44
Od çərşənbəsi................................ 52
Yer çərşənbəsi ................................54
Yel çərşənbəsi ................................60
Qızıl suyuna çəkilmiş gün ................66
Göylərdə Novruz izi ........................70
İlaxır çərşənbə ................................72
Xoşbəxtliyin ad günü ......................76
Bayram hazırlığı ..............................80
Bakıda rəsmi Novruz Bayramı ..........82
Təzə gün - təzə qan ......................102
Tonqal qalama ..............................106
Səməni göyərtmək ........................108
Novruz nəğmələri .........................110
Sayaçı nəğməsi .............................112
Əkinçi nəğməsi .............................113
Xıdır nəğməsi ...............................114
Sağın nəğməsi ..............................115
Nehrə nəğməsi .............................116
Cəhrə nəğməsi ..............................117
Dünyanı yaz yaşadır ......................120
Novruz geyimləri ..........................122
Bayram təmizkarlığı ......................124
Novruz çiçək və gülləri ..................126
Bayram xonçası ............................128
Novruz təranələri ..........................130
Yaz bayramı - saz bayramı .............132
Muğam sovqatı .............................134
Meyxana ......................................138
Tamaşa və oyunlar........................140
Cıdır ............................................142
Zorxana .......................................144
Yumurta döyüşü ...........................146
Papaqatdı ....................................148
Falabaxma ...................................150
Novruz Bayramının süfrəsi .............160
Nuş olsun ....................................164
Novruz yazıları .............................180
Əziz oxucu! ..................................207






**ƏBÜLFƏS QARAYEV**
Azərbaycan Respublikasının
Mədəniyyət və Turizm naziri

"İnsanları baharın gəlməsi, təbiətin oyanması, həyatın canlanması ilə müjdələyən Novruz bayramı ən qədim dövrlərdən bəri xalqımızın sevinc, şadlıq bayramı olmuş, tariximizin müxtəlif dövrlərində bəzi təzyiqlərə, maneələrə məruz qalmasına baxmayaraq, bu günə qədər gəlib çatmışdır.

Bu milli bayramın indi dövlət səviyyəsində qeyd olunması Azərbaycanın müstəqilliyinin bəhrələrindəndir".

Ümummilli lider, Azərbaycan xalqının mədəni-mənəvi təkamülündə misilsiz xidmətlər göstərən qüdrətli rəhbər Heydər Əliyevin Novruz bayramı haqqında söylədiyi bu dəyərli fikirdə qədim ümumxalq təntənəsinin, adət, ənənə və mərasimlər sisteminin mahiyyəti, tarixi inkişafı və çağdaş təsir gücü dəqiq və dolğun ifadə olunmuşdur. Novruz yalnız Azərbaycan xalqının deyil, türk dillərində danışan yüz milyonlarla insanın, Orta Şərq ölkələri əhalisinin ən möhtəşəm bayramıdır. Bu təntənəli el şənliklərinin keçirildiyi ölkələrdə hər kəsin yaddaşı və həyatı Novruzla bağlıdır.

Novruz bayramının yaşını dünyanın, insanlığın yaşı ilə bərabər tutanlar səhv etmirlər. Çünki məhz bu bayramda ən qədim zamanlara məxsus adət, ənənə və mərasimlərin, inancların, bir sözlə, fundamental dünyagörüşünün izlərini müşahidə etmək mümkündür.

Novruz bayramının qeyd edilməsini yalnız folklor ənənələrinin, məişət rituallarının yaşadılması ilə bağlamaq olmaz, eyni zamanda onun elmi əsaslarının mövcudluğunu diqqət mərkəzinə çəkmək lazım gəlir. Novruz gecə ilə gündüzün bərabərləşdiyi, şaxtalı-qarlı qışın öz yerini yeni ilin məhsulunun əsasını qoyan yaz fəslinə verdiyi bir vaxtın başlanğıcıdır. Novruz insan ümidlərinin bayramıdır. Novruz xeyirxahlıq, dostluq, birlik rəmzidir. Novruz həm də böyük mədəniyyət bayramıdır. Müasir Azərbaycan mədəniyyəti, incəsənət və ədəbiyyatının elə bir istiqaməti yoxdur ki, hansı bir şəkildəsə özünü Novruz bayramının ənənələr zəncirində az və ya çox dərəcədə göstərməsin. Təsadüfi deyil ki, xalqımızın bir çox nəğmələri, nağılları, milli oyun və meydan tamaşaları, saysız-hesabsız ağız ədəbiyyatı nümunələri, şeirlər, nəsr əsərləri, aşıq və muğam musiqisi örnəkləri, hətta rəssamlıq, kino əsərləri Novruz mövzusunu tərənnüm etmək məqsədi ilə yaradılmışdır. Novruz bayramı Azərbaycan mədəniyyətinin tam, dolğun mənzərəsini canlandırır. Milli geyimdə olan oğlanlar, qızlar xalq rəqslərini ifa edirlər, saz dinir, şair qələmə, rəssam fırçaya əl atır, milli kulinariyanın min bir neməti ən gözəl şəkildə süfrələri bəzəyir, əllərdə Novruz xonçası gəzir...

Ulu öndərimizin söylədiyi kimi, Novruz bayramı müəyyən tarixi dövrlərdə təzyiqlərə məruz qalsa da xalq tərəfindən unudulmamış, inkişaf etdirilmişdir.

Azərbaycanın müstəqillik illərində mədəniyyətin hər bir sahəsi, çoxşaxəli yaradıcılıq prosesləri ilə bir sırada Novruz bayramı da dövlət qayğısı ilə əhatə olunmuşdur. Hər il böyük təntənə ilə keçirilən Novruz bayramı münasibəti ilə rəsmi dövlət tədbirində Azərbaycan Respublikasının Prezidenti şəxsən iştirak edir, xalqa müraciət ünvanlayaraq hər bir vətəndaşa xoşbəxtlik, səadət, sağlamlıq və bol ruzi arzulayır.

Belə bir xoş məqamı da qeyd etmək yerinə düşər ki, Azərbaycanda hər kəs tərəfindən ehtiramla yanaşılan, adı dünyada tanınan Heydər Əliyev Fondu milli mədəniyyətimizin inkişafı və tanıdılması istiqamətində neçə-neçə dəyərli layihələri həyata keçirmişdir. Saz sənətinin, muğamın, xalçaçılığın Azərbaycanın mədəni sərvəti olaraq UNESCO-nun bəşəriyyətin qeyri-maddi mədəni irsi siyahısına daxil edilməsi, habelə Novruz bayramının eyni statusa sahib olması Heydər Əliyev Fondunun Prezidenti, UNESCO və İSESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın təşəbbüsü, təşkilatçılığı və gərgin zəhməti sayəsində mümkün olmuşdur.

Bütün bunlara görə Mədəniyyət və Turizm Nazirliyi Novruz bayramı haqqında bələdçi kitabın yaradılması və





onun Azərbaycan dili ilə yanaşı xarici dillərə tərcümə edilərək çap edilməsinə qərar vermişdir.

İnanıram ki, Novruz adət, ənənə və mərasimləri ilə əlaqədar olan mövcud ədəbiyyatlar və örnəklər əsasında hazırlanmış kitab Azərbaycan oxucularına və ölkəmizin həyatına maraq göstərən hər bir kəsə Novruz bayramının humanist, bəşəri fəlsəfəsini çatdıra biləcəkdir.



Qızıl şəfəq əkir yerə
Gün keçəndə günortadan.
Vaxtı bölür iki yerə -
alma kimi; tən ortadan.

Bacaları yelə verir,
Çırpır hisi, qurumları.
Sonsuzlara bala verir,
Doyurdur ac qarınları.

Bərəkəti o gətirir;
Quzulara yemlik, pencər...
Susuyana su gətirir,
Yetimlərə məxmər pencək.



Bu dünyanın nəyi kəmdi, -
Ac gözünü doyur görüm!
Ağa kimdi, nökər kimdi? -
Gücün çatır ayır görüm!

Suya düşür qızıl üzük;
Bəxti gülür aşiqlərin.
Yazla gələn vəfa, düzlük
Yırğalayır beşikləri.

Yaz qüdrətli bir dövlətdi,
Yer boydadı ərazisi.
Ona haqdan əmanətdi
Haqq-ədalət tərəzisi.







## TÜKƏNMƏZ QÜDRƏT

Dünya xalqlarına məxsus çoxlu bayramlar var. Əslində, adi bir insanın ad günü də bayramdır, toy da bayramdır, insanlığın iqtisadi, siyasi, mədəni intibahına təkan verən, dünyanın mənzərəsini yaxşılığa, humanizmə doğru dəyişən tarixi hadisələrin meydana çıxardığı təqvim günləri də bayramdır.

Bayram böyük fərəh, təntənə, həmrəylik, ictimai sevinc məqamıdır. Zamanın seçilmiş günləri nəinki fərəh və qürur yaradır, eyni zamanda yaşanmış və yaradılmışları dəyərləndirməyə imkan verir, yəni gələcəklə bağlı daha möhtəşəm arzulara qanadlandırır.

Lakin elə bayramlar da vardır ki, onlar insanlıq, xalq, millət tarixinin simvolu hüququna sahib olur. Həmin bayramlarda ictimai toplumun keçib gəldiyi tarixi yol, təbiətə münasibət, maddi, mədəni, mənəvi dəyərlər, estetik görüşlər, intellektual səviyyə, yemək-içmək, geyim, davranış, inam, etiqad - başqa sözlə, canlı, dinamik həyata aid hər bir komponenti görmək imkanı yaranır. Belə unikal bayramlardan biri Novruz Bayramı adlanır. Şərq dünyasına məxsus yaz-bahar törənləri çağdaş Azərbaycan Respublikasında milli ümumxalq bayramı, əziz gün sayılır, bununla belə Novruz Bayramının hüdudlarını keçmişlərdə tarixin hökmü ilə qüdrətli dövlətlər yaradan, yüzilliklər boyu bu dövlətləri idarə edən, sonuncu iki yüz il  ərzində






Araz qılıncı ilə ikiyə bölünüb yarısı İranın, yarısı Çar Rusiyasının payına düşən, ötən əsrin əvvəllərində ikiillik özgürlük qazanan, nəhayət, 20 illik tam, dönməz müstəqillik tarixinə malik olan Azərbaycan Respublikasının yerləşdiyi coğrafiya ilə qapamaq olmaz.

Həm də Novruz Bayramı təqribi hesablamalara görə dünyada yaşayan 50 milyon azərbaycanlının (Cənubi Azərbaycanda, Azərbaycan Respublikasında, Gürcüstanda, Rusiyada, Orta Asiyada, Türkiyədə, Avropa ölkələrində və s.) deyil, əksər Orta Şərq ölkələrinin, o cümlədən türkdilli dövlətlərin əziz günüdür.

Bununla yanaşı, Novruz Bayramı bəşəriyyətin təbii, tarixi, mədəni və mənəvi həyatı ilə sıx bağlı olan adət, ənənə, habelə mərasimlərdən ibarət düşüncə-yaşam sistemlərindən biridir. "Qədim tarixə və zəngin mədəniyyətə malik olan Azərbaycan xalqının əski çağlardan daşıyıb gətirdiyi mənəvi dəyərlər sistemində Novruz Bayramının da özünəməxsus yeri vardır. İbtidai çağlara məxsus ilkin dünyaduyumu və arxaik mifoloji inanclardan qaynaqlanan yazı – yeni günü qarşılama mərasimi yüzillikləri çevrələyən tarixi təkamül prosesi nəticəsində zəngin mədəni-mənəvi keyfiyyətlər qazanaraq geniş miqyasa malik xalq bayramına – Novruza çevrilmişdir. Bu baxımdan Novruz təkcə bir neçə günü əhatə edən bayram deyil, həm də uzun bir təqvim müddətini öz ətrafında cəmləşdirən irimiqyaslı mərasim kompleksidir". *(Məhərrəm Qasımlı)*

Bəşər tarixindən məlumdur ki, insan daim təbiət və cəmiyyət aləminin çətinliklərinə qarşı mübarizə apararaq rahat həyata qovuşmağa can atmışdır. Əslində, bu mübarizə, bu canatma həyatın özü deməkdir. Görünür elə buna görə də istisnasız olaraq bütün araşdırmaçılar sonda belə bir qənaətə gəlmişlər ki, Novruz dəyərləri ümumxalq təfəkküründə yer alan həyat modelidir.







Novruz Bayramının, onunla bağlı olan ritualların yaşını, başlanğıc nöqtəsini dəqiqləşdirmək məqsədi uğursuzluğa düçardır. Novruz Bayramının ruhunda işaran elə közərtilər vardır ki, onlar insanın şüuru ilə yaşıddır.

Bu hələ azdır. Çünki qocaman təbiət insandan və şüurdan da irəli, indi milyon illərlə hesablanan, az qala sonsuz zaman axarında mövcud idi. Başqa sözlə, çox-çox qədim zamanlar ardında dünyanı buzlar, qarlar örtmüş, sonra kainatın sonsuzluğundakı canlı və mübhəm nöqtələrdən yer üzünə, bəlkə, daha hansısa canlı varlığa malik başqa göy cisimlərinə hava, istilik, işıq və yağmurlar axmış, çevrə dirilib oyanmışdır.

Novruz hadisəsinin araşdırılması sahəsində özünəməxsus xidmətlər göstərən Azərbaycan tədqiqatçısı Elçin Muxtar Elxan "Yeddi çərşənbə, yeddi bayram" kitabını belə başlayır və hardasa alimin həmin fikri ilə razılaşmamaq olmur. Elçin Muxtar Elxan yazır: "Ulu babalarımızın əqidəsinə görə qış fəsli - "zimistan"-ın sərt çovğunlu günlərindən biri, müasir yanvarın 30-da Böyük Çillənin Kiçik Çillə ilə əvəzləndiyi xariqülədə axşamdan başlayaraq xəmsin deyilən Novruza qədərki 50 gün ərzində hər çərşənbə axşamı asiman açılır və onun ən uca, IX qatı - "ərşi-əla"dan ayrılan bir ilıq nəfəs, yaxud duman-tüstüyə bənzər xəfif bir efir göy və yer üzünə süzülməyə başlayır. Bu saf hərarət get-gedə mülayimləşir, ətraf mühitdə bir ilıqlıq hiss

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi
PREZİDENT KİTABXANASI
10817





"Yanar dağ", "Azıx" mağarası, "Qobustan" yazıları...
Azərbaycan ərazisində yerləşən bu abidələr bütün bəşəriyyətin tarixinin yaz çağına aid örnəklərdir.



Yaz gələndə torpaq hənirlənir, qaranlıqlar aydınlaşır, daşlar dirilib qanadlanır.

olunur. Əsgi yazılarda bu hərarət seli, adətən, "cəmrə" adlanır...

...Müsəlman filosoflarının iddiasına görə "cəmrə" sən demə ərşi-əlanı dolduran incə bir materiya, həddindən şəffaf alov və işıq kütləsinin adıdır".

Burada dünyanın dirlişi ilə Novruz Bayramının bir-birinə bağlılığına, lakin hər birinin ayrıca anlayış olduğuna açıq-aydın işarə vardır.

Doğurdan da, bu olduqca sadə bir həqiqətdir ki, Novruz Bayramının yaranmasından, keçirib-keçirilməməsindən asılı olmayaraq fəsillər bir-birini əvəz etmiş, qışdan sonra yazın gəlişi ilə donmuş həyatın qırışığı açılmış, torpağın canı sulanmış, heyvanat, bitki aləmi, habelə bəşəriyyət irsən təkrarlanmışdır.

Çoxlu bəlalara mərdliklə sinə gərən, bununla belə yeri gələndə gülməyi də bacaran azərbaycanlıların "xoruz olmasa da səhər açılır" deyimi mənalıdır.

İlkin başlanğıcın vahidliyi Novruz anlayışına qlobal və dünyəvi xarakter verir. Məhz elə bu səbəbdən də sərt iqlimin qərarlaşması və ötüşüb keçməsi, havanın isinməsi və yazın gəlişi ilə varlığın davamiyyətini ifadə edən dünyagörüşün elementləri sərhəd tanımır və Yer planetinin hər bir guşəsində ən müxtəlif dilə, dinə məxsus xalqların həyatında Novruzun oxşar izləri görünməkdədir.

Məntiqə tam uyğun olaraq hazırda Novruz yer şarının isti ərazilərində



yaşayan xalqların adət-ənənələr kompleksi kimi izah edilir. Məlumdur ki, insan həyatı ilk dəfə planetin isti hissəsində formalaşmışdır. Təbii həyat tərzinin meydana gətirdiyi bu mərasimlərin müəllifi də isti ölkələrin insanlarıdır. Sonralar Yer şarının digər coğrafiyalarına yayılan insanlar Novruz izlərini qədim bir miras kimi yaddaşlarına köçürərək dünyanın dörd bir guşəsinə daşımışlar.

Skandinaviyalı səyyah-alim Tur Heyerdal XX yüzilliyin sonralarında Qədim Qobustan daşüstü rəsmləri arasında gəmi təsvirlərini görərkən, bəlli olur ki, bu tip "gəmilər" Azərbaycanın digər qayalıqlarında da "üzür" və bu təsvirlər həm də Skandinaviyadakı təsvirlərə çox bənzəyir, haqlı olaraq heyrətlənmişdi. Bütün bunlar bir daha sübut edir ki, dünya tarixinin ən dərin qatlarda birləşən vahid kökü vardır.

Təbii şəraitə uyğun olaraq Yer kürəsinin hazırda tarix elminə və geniş ictimaiyyətə məlum olan bir çox nöqtələrində, işığın, hərarətin, havanın, suyun, torpağın, bununla əlaqədar zəruri qidaların, bitki örtüyünün yetərli olduğu, münasib ərazilərdə formalaşan insan, sonralar öz arealını dünyanın özü boyda genişləndirmişdir. Şübhəsiz ki, daim genişlənən dairədə, daimi hərəkətin, həyat dinamikasının izləri qalmış, bu yaddaşdan o yaddaşa, bu məntəqədən o məntəqəyə yayılmışdır.

Bununla yanaşı, Novruz, çörəyi, necə deyərlər, torpaqdan çıxanların bayramıdır. Təsadüfi deyil ki, heyvandarlıqla, xüsusən maldarlıq və qoyunçuluqla, həmçinin əkinçiliklə əlaqəli münasibətlər, mal-heyvanı o biri yaza sağ-salamat çıxarmaq, süd, qatıq, pendir, heyvan mənşəli yağ məhsullarının bolluğunu bərəkət sahibindən diləmək Yaz mərasimlərinin məzmun qatında əsaslı yer tutur.

Ən qədim dövrlərdən maldarlıq və əkinçiliklə məşğul olan, yaşam tərzini məhz bu istehsal növləri ilə nizamlayan Orta Şərq xalqlarının yaşadığı böyük ərazilər təbii şəraitinə görə qış-yaz əvəzlənməsindən tam asılı idi. İsti havaların gecikməsi, yağışın vaxtında yağmaması və yaxud əksinə olan təbii proseslər bütün ilin və insanların sonrakı taleyinə ciddi təsir göstərirdi.

Ola bilsin ki, burada insan və təbiət münasibətlərinin nisbətən sonrakı çağlarına istinad edilir. Novruz adət-ənənə və mərasimlərində yer alan elə mifoloji əlamətlər var ki, bu dünyagörüşünün yaşını daha qədimlərə, insanın yaranmağa başladığı ilkinliyə aparır. Bu sahənin araşdırılmasında müstəsna əməyi olan Azərbaycan alimi Bəhlul Abdulla haqlı olaraq yazır: "Ulu əcdadlarımız ilkin-ibtidai çağlarda gündüzlə gecənin bərabərləşməsini, göy gurultusunu, ildırım çaxmasını, yağışın, qarın yağmasını, birdən-birə hər yanın dumana bürünməsini, havanın gah isti,

gah soyuq, şaxtalı olmasını və s. təbiətdəki bu cür dəyişmələri, baş verənləri möcüzə hesab etmişdir. Onlar təbiətdə baş verən hadisələri öz istəklərinə uyğunlaşdırmaq, hətta tabe etmək naminə cürbəcür tədbirlərə əl atmışlar. Bu tədbirlər zamanı görülən işlər və bu işlərin ahənginə, ritminə uyğun olaraq avazlanan səslər-nəğmələr vəhdət halında get-gedə stabilləşməyə, bütövlükdə ayinə, mərasimə, nəhayət, bayrama çevrilməyə başlayır".

Deyildiyi kimi, Novruz adət, ənənə və mərasimləri türkdilli xalq və dövlətlərin həyatında məxsusi bir yerə malikdir. Konkret olaraq hazırda Azərbaycan, Türkiyə, Türkmənistan, Özbəkistan, Rusiya (əsasən əhalisinin əksəriyyəti türkdilli xalqlardan ibarət olan inzibati ərazi vahidləri - Tatarıstan, İnqusetiya, Qaraçay, Kabardin Balkar, Dağıstan, Çeçenistan, Tuva, Altay və s.), Tacikistan, Qırğızıstan, Moldova (qaqauzlar), Gürcüstan, Əfqanıstan, İran, Çin (uyğurlar) və s. xalqlar tərəfindən böyük təntənə ilə, bir sıra ölkələrdə isə dövlət səviyyəli Milli bayram qismində qeyd olunur.

Azərbaycan dövlətinin də tam dəstək verdiyi, Heydər Əliyev Fondunun Prezidenti UNESCO və İSESCO-nun xoşməramlı səfiri, millət vəkili Mehriban xanım Əliyevanın təşəbbüsçüsü olduğu təkliflərdən biri 2010-cu ildə öz töhfəsini vermişdir. Zaman-zaman xalqların həyat tərzindən bəhrələnərək yaratdıqları, bəzən dini, bəzən lokal milli don geydirilən, bəzən imperialist məqsədii quruluşların ideoloji terrora məruz qoyduğu Novruz bu gün bəşəriyyətin qeyri maddi-mədəni irsi olaraq UNESCO tərəfindən qeydə alınmışdır.

Tarixi və ədəbi örnəklərdən alınan bilgilərə görə Novruzun bir bayram olaraq keçirilməsi min illər boyunca ara vermədən davam etmişdir. Bəlkə də, Novruzun ən maraqlı cəhətlərindən biri onun həm fərdi, həm də ümumxalq miqyasda bayram edilməsi ilə bağlıdır.

Yazın addım-addım yaxınlaşması eyni zamanda fərdlərin və təbii ki, kütlələrin yaddaşını oyadır.





Azərbaycanın həm uzaq, həm də yaxın tarixində Novruz təntənələrinə şəhadət verən çoxsaylı misaliar mövcuddur. Bir çox şərq xalqlarında olduğu kimi burada da il təqviminin Novruzla başladığı məlumdur. XX yüzilliyin sonlarında Azərbaycan xalqının müstəqillik qazanması, müstəqil Azərbaycan Respublikasının bərpası Novruz Bayramının yüksək statusunu, onun xalq həyatında dəyərli yerini birdəfəlik müəyyən etmişdir. Azərbaycan xalqının ümummilli lideri, Prezident Heydər Əliyev tərəfindən Novruz Bayramı milli bayram elan olunmuşdur. Bu yüksək hüquqi status Novruzla bağlı adət-ənənə və mərasimlərin qorunmasına, araşdırılmasına, yaşamasına və bütün zənginliyi ilə yeni nəsillərə ötürülməsinə imkan yaratmışdır.

Novruz Bayramından qaynaqlanan dünyagörüşü ümumən Azərbaycan xalqına məxsus hərtərəfli adət-ənənə və mərasimlər sistemini daha da zənginləşdirir, bütövləşdirir. Çünki Novruz bu xalqın tarixi, mədəni, mənəvi yaddaşının ayrılmaz parçasıdır. Digər adət və ənənələrlə bir sırada azərbaycanlıların ən all, kamil keyfiyyətləri, arzu və istəkləri, düşüncələri Novruzda ifadə olunmuşdur. Elə buna görə də qədim arxeoloji, tarixi, mədəniyyət abidələrində nəinki Novruzun tükənməz enerjisi vardır, eyni




Dədə Qorqud


Nizami Gəncəvi


İmadəddin Nəsimi


Məhəmməd Füzuli


Salman Mümtaz


Firidun bəy Köçərli


Üzeyir Hacıbəyli


Yusif Vəzir Çəmənzəminli

**Azərbaycan xalqının, demək olar ki, bütün tarixi şəxsiyyətləri Novruz bayramının mədəni-estetik mahiyyətinə dəyər vermişlər.**

zamanda məhz bu bayram, cəmiyyətdə humanizm prinsiplərinin, xalq həmrəyliyinin möhkəmlənməsində, milli dünyagörüşünün zənginləşməsində əvəzsiz rol oynamış və oynamaqdadır.

Xüsusilə son 200 ildə Novruz adət-ənənə və mərasimlərinin tədqiq edilməsi sahəsində Azərbaycan folklorşünaslığının xidmətləri danılmazdır. Bu bayramla əlaqədar inam, inanc, mərasim, folklor nümunələrinin toplanması, öyrənilməsi, təbliği, təhlil edilməsi işində tədqiqatçı və ədiblərdən Firidun bəy Köçərli, Yusif Vəzir Çəmənzəminli, Məmməd Əmin Rəsulzadə, Üzeyir Hacıbəyli, Məmməd Səid Ordubadi, Məmmədhüseyn Təhmasib, Hüseynqulu Sarabski, Salman Mümtaz, Əhliman Axundov, Məmməd Arif, Mirzə İbrahimov, Azad Nəbiyev, Əli Saləddin, Mürsəl Həkimov, Musa Adilov,






Molla Pənah Vaqif


Xurşidbanu Natəvan


Məmmədhüseyn Şəhriyar


Bəxtiyar Vahabzadə


Əhliman Axundov


Mirzə İbrahimov


Səməd Vurğun


Məmmədhüseyn Təhmasib

Elməddin Əlibəyzadə, Feyzulla Qasımzadə, Mirəli Seyidov, Bəhlul Abdulla, Elçin Aslanov (Elçin Muxtar Elxan), Teymur Bünyadov, Tofiq Babayev, Məhərrəm Qasımlı, Güllü Yoloğlu və başqaları davamlı fəaliyyət göstərmiş, kitablar, ensiklopediya, etnoqrafik məqalələr silsiləsi yaratmışlar.

Belə görünə bilər ki, Novruz adət-ənənələri ilə bağlı bütün təfsilatlar deyilmişdir. Lakin bu ilk baxışda belədir. İrəlidə deyildiyi kimi, Novruz ümumbəşəri dəyərə malikdir, bununla bərabər o, hər bir insanın, hər bir könülün fərdi bayramıdır. Fərdi olduğuna görə də bütün ümumi cəhətlərinə, vahid və sarsılmaz strukturuna baxmayaraq, bənzərsizdir, çoxçalarlıdır. Başqa sözlə, hər fərdi baxış və nəzər nöqtəsində Novruzun məxsusi dərki, fərdi təsiri, ayrıca görüntüsü vardır. Elə bu səbəbdən də Novruz anlayışının informasiya siqləti yazıya alınıb, tədqiqata cəlb ediləndən qat-qat çoxdur.

■ Novruz xonçası



■ Yaz çiçəyi



■ Yumurta döyüşü



Yaz suyu gövhər kimi,
Gülü xoş xəbər kimi,
Küləyi kəhər kimi -
Yüyən, yəhəri yoxdu.

Nişanlıqdı, nəmərdi,
Başdan ayağa zərdi,
Yaz ilanı kəmərdi,
Qurşa, zəhəri yoxdu.

Gülür alında yazı,
İgid öldürür nazı,
Yazda vurulan qızın
Axşam-səhəri yoxdu.

Bağa girmə minnətli,
Gözütoxlar hörmətli.
Yaz qucağı cənnətdi
Şamı, naharı yoxdu.

Od uyuşmur, gül bitmir
Gülündə bülbül bitmir
Ayda niyə gül bitmir,
Çünki baharı yoxdu!



novruz Azərbaycan xalq bayramı

"Novruz bizim ümummilli bayramımızdır. Mən hesab edirəm ki, indi artıq müstəqil Azərbaycan üçün bu bayramdan əziz bayram ola bilməz. Ona görə də bu, bizim xalqımızın hamısını eyni dərəcədə həm sevindirməlidir, həm həvəsləndirməlidir, həm də birləşdirməlidir".

HEYDƏR ƏLİYEV,
Azərbaycan xalqının Ümummilli lideri



■ Yazın yaraşığı gül-çiçəkdi, bir də nəğmə...





Gəl-gəl, a yaz günləri,
İlin əziz günləri.
Dağda ərit qarları,
Bağda ərit qarları.
Çaylar Daşıb sel olsun,
Taxıllar tel-tel olsun.
Ağaclar açsın çiçək,
Yarpağı ləçək-ləçək!..

## NOVRUZUN VƏTƏNİ - AZƏRBAYCAN

Novruzun əzəli və əbədi beşiklərindən biri olan Azərbaycan ərazisində insanın yaranışının mərhələlərini izləmək mümkündür. Antik dövrlərə aid arxeoloji və yazılı abidələr şəhadət verir ki, Azərbaycan ən qədim insanların məskəni olmuşdur. Burada aparılan arxeoloji qazıntılar zamanı üzə çıxan tarixi məişət və mədəniyyət örnəkləri - əmək alətləri, bəzək əşyaları, saxsı, tunc, dəmir işləmələr, tikililər - qalalar, hasarlar, sərdabələr, qəbir daşları və s. sübut edir ki, Odlar yurdunda bəşər sivilizasiyasının başlanğıcından, ilkin qaynaqlardan tutmuş bizim minilliklərə qədər həyat olmuşdur. Həm də bu həyat arasıkəsilmədən davam etmişdir. İlk insanlığın və ilk mədəniyyətin formalaşdığı ərazilərdən biri olan tarixi Azərbaycan haqqında elmin müraciət edə biləcəyi bütün mövcud qaynaqlarda, hətta daşüstü yazılarda (epiqrafik) bilgilər vardır. Müasir elmin mötəbər saydığı Şumer-Akkad, Assur və Urartu, antik yunan mənbələri də bu sıradadır. "Alban tarixi" əsərinin







müəllifi M.Kalankətli, ərəb, fars, türk tarixçiləri, yaxın yüzilliklərin Avropa tədqiqatçıları məhz coğrafiyanın və tarixin əhəmiyyətli parçası olduğu səbəbindən Azərbaycanda baş verən hadisələrdən, bu yerlərin cazibədar həqiqətlərindən yan keçə bilməmişlər.

Azərbaycanın yerləşdiyi yerdə Qərb bitir, Şərq başlayır və yaxud da əksinə. İndi kontinental iqiimə malik ərazidə ən qədim zamanlarda rütubətli və isti təbii şərait qərar tutduğuna görə canlı aləm erkən formalaşmışdır. Tarixi, etnoqrafik araşdırmalar, ortada olan dəlillər sübut edir ki, burada insanabənzər meymunların gəzib dolaşdığı ilkin çağlardan 12 milyon ii keçir...

Azıx, Tağlar (Qarabağ), Zar (Kəlbəcər), Qazma (Naxçıvan), Daşsalahlı, Aveydağ (Qazax) mağara düşərgələri, sözsüz ki, yalnız azərbaycanlıların deyil, ümumən bəşəriyyətin ilk olaraq daldalandığı sığınacaqlardır. İnsanlıq var olduğuna, böyük sivilizasiyalardan keçərək bu günə yetişdiyinə görə Azərbaycan adlı ünvana borcludur.

İnikal Quruçay mədəniyyətini yaradıb hifz edən ərazilərdəki ilk insan sürülərinin Azıxa sığınıb eralar boyunca orada törəyib artdığı vaxtdan isə 1-1,2 milyon il ötür. İndi dünyanın bir çox muzeylərində, eləcə də Azərbaycanın Milli Tarix Muzeyində qorunub saxlanan, zamanın nəfəsini susqun çuxurlarında, sirli məsamələrində yaşadan daş çapacaqlar,



daşlaşmış sümüklər bir zamanlar həyat şirəsi ilə dolu idi.

Azıxda yandırılmış, əslində, heç vaxt sönməyən ocaq 700 min il yaşındadır. Buradan tapılmış Azıxantrop qadının çənəsi 400 min il bundan əvvəl susmuşdur...

İnsanın təşəkkülünü və inkişafını çərçivəyə alan bütün tarix kəsiklərində - paleolit (qədim daş dövrü), mezolit (orta daş dövrü), neolit (yeni daş dövrü), eneolit (mis-daş dövrü), tunc dövrü, orta tunc dövrü, son tunc dövrü və ilk dəmir dövrü... mərhələlərində Azərbaycan ərazisi canlı varlığın ən gərəkli, həlledici, hərəkətverici nüvəsi kimi həyat ağacının damarlarına diriik suyu daşımışdır.



Ov ovlayıb quş quşlayan, əkib-becərən, daha doğrusu, yaşamaq istəyən, öz tələbatına uyğun məişət uğrunda mübarizə aparan insanın intellektinin, şüurunun oyanışını da aşkarlayan dəlillər, maddi-mədəni sübutlar vardır.

Azərbaycanın paytaxtı Bakı şəhəri yerləşən qədim Abşeron yarımadasında Yanardağ deyilən bir təbiət və tarix-mədəniyyət abidəsi tanınır. Burada kifayət qədər böyük bir ərazini tutan dağ qırçınlı ətəyindən başlayaraq od tutub yanır. Milyon illərlə yanacağı özündən olan Yanardağın şölələri, buradan yüksələn işıq kölgələri insan əli ilə cızılan ilk sənət nümunələrini; öküz, keçi, gəmi, ox, yay, insan fiqurlarının üzərini aydınladır.

Abşerona bələd olanlar yaxşı bilirlər ki, Yanardağla Qobustan qayaları arasında ən azı 50 kilometrlik ara var. Əslində, Yanardağdan qalxan işıq seli, od şöləsi bu qədər məsafəyə gedib çata, yayıla bilməz. Amma indi biz qəsdən həyatın vahid sistemini nəzərə alaraq



təbii mədəni varolmanın obrazlı ifadəsinə üstünlük verdik.

Məgər diriliyin ən başlıca yaradıcılarından biri hərarət, işıq deyilmi? Məhz hərarət başlanğıcda insanı yetkinləşdirmiş və qoruyub saxlamışdır.

Qədim Alban tarixi də Azərbaycan torpağının sinəsində yazılmışdır. Yurdun hər qarışında bu qədimliyin pozulmaz





izləri görünməkdədir. Mənbələr burada dövran sürmüş, tarixin və insanlığın inkişafına töhfələr vermiş dövlətlərin adlarını yaşadır; Aratta, Turukkum, Kutium, Lullubium, Manna, Atropatena, Albaniya, nəhayət, Azərbaycan.

Azərbaycan sözü mənbələrdə "odlar diyarı" anlamında yozulur. Əgər bu qədim sözün etimologiyası başqa məzmunla izah olunsaydı belə heç nə dəyişməzdi. Çünki həqiqətən də, Azərbaycanın mənasını ən dəqiq ifadə edən "odlar diyarı" söz birləşməsidir. Uzun çəkən yaz, Novruz təmtərağı, yenə də uzun çəkən isti yay, özündə yazı, yayı, qışı (hava mənasında) cəmləyən bol bəhrəli payız... Bu hələ azdır. Qədim torpağın min nemət yetirən tarlaları, dağları, dərələri, çayları, dənizi sərvətlərlə, yerin tərki isə odla, enerji ilə, yanacaq, digər faydalı qazıntı (qızıl, mis, duz) yataqları ilə doludur.

Dil baxımından və tarixi köklərə görə türk dilləri ailəsinin oğuz qrupuna daxil olan azərbaycanlıların yaşadıqları bu əraziyə bitişik dövlət quruluşları şimalda Rusiya Federasiyası, şimal-qərbdə Gürcüstan, qərbdə və cənub-qərbdə Ermənistan və Türkiyə, cənubda İran İslam Respublikası ilə sərhəddir, şərqdə ölkə Xəzər dənizi ilə əhatələnmişdir. Azərbaycan varlığı tarixin bəlli dövrlərində indi qonşu olan və olmayan, burada adı çəkilən və çəkilməyən geniş coğrafiyaları vahid dövlət






halında birləşdirərək bəzən qanlı, bəzən dinc, bəzən coşqun intibahla bəlli olan, bütün hallarda şərəfli tarix yaratmış, bəşəriyyətə möhtəşəm dəyər daşıyan tarixi, maddi, mədəni örnəklər bəxş etmişdir.

Araz çayının hər iki sahilindən başlayaraq böyük coğrafiyalarda yerləşən qədim Azərbaycan və Albaniya tarixində bütün ictimai-iqtisadi formasiyaları izləmək mümkündür. Yeni eranın başlanğıcından keçən 2 min il ərzində bu yerin əhalisi öz azadlığı, dövlətçiliyi, geniş anlamda varolması uğrunda mübarizə apararaq dünya xalqları sırasında dəyərli irs yaratmışdır. Azərbaycan ərazisi ən qədim dinlərdən olan Zərdüştiliyin beşiyidir. Zərdüştlər oda inanırdılar. Sonrakı əsrlərdə bir az əvvəl deyildiyi kimi Azərbaycan ərazisində qüdrətli feodal dövlətlər yaranıb tarix səhifələrinə öz adlarını yazmışlar. Bunlar tarixi mənbələrdə Aratta (e.ə. III minilliyin birinci yarısı), Lullubium (e.ə. XXIII əsr), Kutium (e.ə. III minilliyin ikinci yarısı), Kummer-ekit-sak (e.ə. VII əsrin birinci yarısı), Manna, Albaniya (e.ə. IV əsr), Azərbaycan, Şirvanşahlar (b.e. IX əsr), Rəvvadilər (b.e. X əsr), Şəddadilər (b.e. X əsr), Səlcuqlar, Atabəylər və s. adlarla tanınmaqda, öyrənilməkdədir. XI-XII əsrlərdə türk etnosuna bağlı indiki Azərbaycan xalqının əmələ gəlməsi prosesi başa çatmışdır.

Azərbaycan dövlətləri əkinçilik, maldarlıq, sənətkarlıq kimi insan məşğuliyyətlərinin minillik boyunca yaşaması və sonrakı nəsillərə ötürülməsində böyük rol oynamışdır. Tarixən bu coğrafiya mədəniyyətin parlaq nümunələrinin yaradılması ilə də tanınmışdır. "Avesta", "Kitabi-Dədə-Qorqud" kimi idrak abidələri, bu günəcən ya özü, ya izi qalan memarlıq örnəkləri (hasarlar, qəsr və qalalar, iş və məişət əşyaları, bəzək əşyaları, xalçalar, daş, dəmir üzərində döymələr və onlardan hazırlanan məmulatlar) hazırda bütün dünya muzeylərində nümayiş etdirilərək Azərbaycan xalqının dünyagörüşünü, arzu və duyğularını canlandırır. Dünya ədəbiyyatının korifeylərindən sayılan





Əfzələddin Xaqani, Nizami Gəncəvi, İmadəddin Nəsimi, Məhəmməd Füzuli, Molla Pənah Vaqif, Qasım bəy Zakir, Seyid Əzim Şirvani, Mirzə Ələkbər Sabir, Abbasqulu ağa Bakıxanov, Mirzə Fətəli Axundov, Məhəmməd Hadi, Hüseyn Cavid, Cəlil Məmmədquluzadə, Həsən bəy Zərdabi və digərlərinin əsərləri bəşəri mövzuları əks etdirməklə yanaşı, Azərbaycan xalqının keçib gəldiyi yolu, min illər boyu bu torpaqlarda yaşayan insanların mənəvi dünyasını, idrakını da ifadə etmişdir.

Azərbaycan xalqının bədii, estetik, intellektual düşüncə sistemi məhz bu məkanda dünyanın qeyri-maddi mədəni irs siyahısında yer alan muğam incilərinin, saz sənətinin meydana gəlib yayılmasına imkan yaratmışdır. Belə bir şöhrətli tarix yaşayan Azərbaycan deyildiyi kimi həm də Novruz bayramının müəlliflərindən biridir.

Novruz adət-ənənə və mərasimlər kompleksi Azərbaycan xalqının şah əsəridir. Bu, dinamik, artan, zənginləşən rituallar sistemidir.



■ Novruz şərəfinə bəzənmiş fayton

Azərbaycanda ilkinlik doğal köklərə malik olduğu üçün ən qədim maddi-mədəni-mənəvi sərvətlər öz təravətini, ecazkarlığını saxlamış, nəsillərdən nəsillərə adlayaraq bu günümüzə yetişmişdir. Təbii ki, Novruz adət və ənənələri, baharın gəlişi, iqlimin insanın xeyrinə dəyişməsi ilə əlaqədar yaranmış mərasimləri tanıdan bu kitab tarix haqqında traktat deyil. Lakin ənənənin tarixilik xarakterini də inkar etmək olmaz. Ənənələr, bəlkə də, tarixin canlı təcəssümü, bu gün də yaşamaqda, inkişaf etməkdə olan hüceyrələridir. Axı tarix xalqların yaşadıqları həyat haqqında elmdir. Əslində, xalqın tarixi çağdaş zamanda mövcud olan davranışları, adət və ənənələri yaradan müəllifin tərcümeyi-halının bir hissəsidir. Bu mənada Azərbaycan xalqı bəşəriyyətin ən unikal sərvətlərindən, bədii, ictimai düşüncə sistemlərindən biri olan Novruzun yaradıcısıdır. Amma, o, tək deyil, həmmüəlliflər də vardır. Onları vahid coğrafiya, tarixi-siyasi təmas və öhdəliklər, dil, din yaxınlığı, qohumluq birləşdirir. Beləliklə, Novruz ortaq mədəniyyətə malik Şərq xalqlarının yaşam tərzinin, həyat hadislərinə estetik münasibətln təzahürüdür.

Novruz adət-ənənə-mərasim sistemi olaraq elə bir qlobal humanizm məzmununa, elə tarixi qədimliyə və utilitar mədəni-mənəvi zənginliyə malikdir ki, bu sistem içində milli məhdudluğa yer yoxdur. Burada millilikIə bəşərilik iç-içədir.







Novruzun fəlsəfəsində millətlərdən, xalqlardan öncəki mədəniyyətin, həyat tərzinin və təbiətə təsir etmək istəklərinin izləri qalmaqdadır.

Novruz elə nadir anlayışdır ki, orada həm də təbiətlə insan vəhdətdədir. Lakin tarixi xronologiyanın hökmü ilə məhz Şərq xalqları Novruz mərasimlərinin yaradılmasında, sonrakı inkişafında və onun tam bir düşüncə sisteminə çevrilməsində əla-hiddə rol oynamışdır. Ən maraqlı cəhət budur ki, Novruz fəlsəfəsində xalqların və millətlərin təşəkkülü, inkişafı kodlaşdırılmışdır. Başqa sözlə, dünya xalqları Novruz rituallarını yaşatdıqları dərəcədə, Novruz bir həyat tərzi olaraq xalqların və millətlərin yaşamasına kömək etmişdir.

Novruz bayramının mərasimlər qrafiki ilin 50 gününü əhatə etsə də Novruz və insan təmasları bir rəmz olaraq bütün ilə, bütün fəsillərə paylanır.

Ümumi aspektdən yanaşıldıqda Novruz anlayışının əsasında onu yaradıb yaşadan bütün xalqlar üçün dəyişməz olan eyni amal dayanır.

Bu, deyilişi və yazılışı olduqca sadə, amma mürəkkəb qanunauyğunluqlara malik, həyat üçün ən əsas amaldır və bu amal Novruzu böyük həyatın simvoluna çevirir. Novruz həyatın sərtliklərinə, qara qorxulara, şaxtalara, boranlara, aclığa, xəstəliyə, hətta ölümə qalib gələrək, ağrı-acılardan nicat taparaq firavan, bol, işıqlı, isti, sağlam, fərəhli, ölümsüz həyata qovuşmaq üçün möhtəşəm bir dastan, şahanə bir əfsanədir.



Yazı salamlayır şaftalı, ərik...



Bu baharın bir qəsdi də
Gülü dağa yeritməkdi.
Buludları nəm eləmək,
Nəm yanağı qurutmadı.

Daraq vurmadı saçlara,
Çörək verməkdi aclara.
Qəm göyərdən ağacları
Kökünəcən çürütməkdi.

Günə tutmaq ev-eşiyi,
Bağlara çəkmək keşiyi...
Ağacdan asılan beşiyi
Ehmal-ehmal yürütməkdi.

Bulud qovmaq göy üzündən,
Nur calamaq ay üzündən...
Buz qoparmaq çay üzündən,
Çeşmələri arıtmaqdı.

İlmən axdı, hana yığan,
Hanasına xına yığan,
Sıldırımı cana yığan
Şələləni kiritməkdi.

Dürlü-dürlü nəşəsi var,
Yaradandı – tişəsi var.
Yazın bircə peşəsi var;
Diriltməkdi, diriltməkdi.

## ELƏ Kİ FƏSLİ YAZ OLUR...

"Şərq-Qərb" nəşriyyatı tərəfindən çap edilən "Novruz bayramı ensiklopediyası"nda belə bir məlumat var; Yaz gecə gündüz bərabərliyi - yeni ilin, baharın ilk gününün başlanğıcı kimi gecə ilə gündüz uzunluqlarının taraz olduğu gün (20 mart, bəzən 21 mart). Bu gün günəş göy ekvatorunu keçərək dünyanın Cənub yarımkürəsindən Şimal yarımkürəsinə adlayır. Şimal və Cənub yarımkürələri Günəş şüaları ilə eyni dərəcədə işıqlanır. Yer kürəsinin hər yerində gecə-gündüzlə bərabər olur. Ona görə də martın 21-də ekiliptika ilə ekvatorun kəsişdiyi nöqtə yaz bərabərliyi adlanır. Bu, yerin şimal yarımkürəsində astronomik baharın başlanğıcıdır. Bu anda Günəş 12 ulduz bürcündən sayılan (bu bürclərə Zodiak bürcləri - heyvanlar dairəsi deyilir) Qoç bürcünə daxil olur. Bu andan başlayaraq Yerin Günəş ətrafında hərəkət sürəti azalır və Şimal yarımkürəsində gündüzlər uzanır, gecələr qısalır".

Buradan belə görünür ki, Novruzun elmi şəkildə izah olunan təbii əsasları vardır və bu adət, ənənə və mərasimlər hər hansı bir dini, ideoloji düşüncənin təsiri ilə deyil, təbiətdə baş verən yeniləşmə ilə əlaqədardır.

Maraqlıdır ki, bu ənənələr Novruz bayramına qədər olan 50 gün ərzində heç də bayram günündən geri qalmayan məqamlara malikdir.

Azərbaycanda vaxtın indi bizim öyrəşdiyimiz klassik bölgüsündən başqa





ənənəvi bölgüsü də vardır. Böyük çillə ilə ilin ən uzun gecələri başlayıb yanvar ayının axırınacan çəkir. Böyük çillə 40 gündür. Kiçik çillə 20 gün çəkir. Fevralın son on günü və martın ilk 20 günü Boz aydır. Çillə sözü dərd, ağrı, kədər mənasını verir və qışın şaxtalı-çovğunlu keçən müddətinə işarədir. Azərbaycanın təbii hava şəraitinin çoxəsrlik müşahidələri xalqda belə bir inam yaratmışdır ki, Boz ayın günlərində ilin bütün fəsillərinə xas olan iqlim spekterini izləmək mümkündür. Həqiqətən də, Boz ayın içində elə günlər var ki, yaz kimi mülayim, yay kimi isti, payız kimi tutqun, qış kimi soyuqdur.

Novruz adət, ənənə və mərasimlərini, əgər belə demək mümkündürsə, çərşənbələr müəyyən edir. Çərşənbələr sanki böyük bayram tamaşasının öncədən aparılan məşqləridir. Xalq inamına görə Novruz üç yalançı və Novruz rituallarının tərkib hissəsi olan 4 gerçək çərşənbə ardıcıllığı ilə qeyd edilmişdir.







## YEDDİ ÇƏRŞƏNBƏ

Mənbələrdə və çağdaş zamana qədər yaşayan mərasimlər dairəsində çərşənbələr bu qaydada sıralanır:

*Əzəl Çərşənbə*
*Yalan Çərşənbə*
*Xəbər Çərşənbə*
*Su Çərşənbəsi*
*Od Çərşənbəsi*
*Yer Çərşənbəsi*
*Hava Çərşənbəsi*

İlk üç çərşənbənin qeyd edilməyi bir o qədər də hiss olunmur. Bəzən ilk üç çərşənbəyə oğru çərşənbə deyirlər.

Novruz bayramına 4 çərşənbə qalmış bütün xalqa bayram ovqatı gətirən əziz günlər başlayır. Təbiətdə baş verən dəyişmələr insanların həyat tərzinə yeni rəng qatır.







Azərbaycan. Bizim günlər. Novruz Bayramına Ulu Dədə Qorqud qonaq gəlib...

## SU ÇƏRŞƏNBƏSİ

Bütün körpə uşaqlar təbiət kimidi; istəyəndə oyanır, istəyəndə dərindən-dərin, şirindən-şirin yuxuya baş vururlar. Çünki onlar o qədər böyüməyiblər ki, məktəbə getsinlər, ondan da bir az artıq böyüməyiblər ki, işə getsinlər. Uşaqlar hər səhər istədikləri zaman yataqdan qalxır, yemək yeyir, su içir, havada gəzib-dolaşır, əylənir, axşamlar anaların doğma laylalarını dinləyə-dinləyə yatır, səhər bir də oyanırlar.

Onları təbiət və valideynləri, düşüncəli insanlar himayə edirlər. Bəlkə də, uşaqlar yazdan-yaza boy atır, yoxsa nəyə görə təzə don geyinən qarlı dağlar yaşıllaşır, nəyə görə ağaclar gül açıb gülür, çaylar yerindən oynayıb rəqs eləyir... Təbiət yaratdığının boy artımından fərəh duyur.

Uşaqların əziyyətinə qatlaşmaq, şıltaq, təbiətin özü qədər idarəolunmaz körpələrin nazıyla oynamaq böyüklərin bəxtiyarlığıdır.

Planetimizdə yaşayan bir çox xalqların, eyni zamanda Azərbaycan xalqının, demək olar ki, antik ellik bayramlarından olan Novruzdan, onun ilk çərşənbəsindən bəhs edərkən uşaqları yada salmaq təsadüfi deyil. Səbəbi budur ki, körpələr insanlığın ilk bahar mövsümüdür.

İkinci səbəb odur ki, bəşəriyyətin malik olduğu bütün milli, mədəni sərvətləri gələcəkdə bu gün dünyaya göz





açan uşaqlar yaşadacaqlar. Həm də onlar bu sərvətləri yeni biliklərlə artırıb çoxaldacaqlar.

Əgər bu təsadüfi və yeganə bir hadisə olsaydı, şübhəsiz ki, təsvir etməyə dəyməzdi.

Məsələ burasındadır ki, İlyas babanın və onun nəvələri Novruzla Yazgülün başına gələn əhvalat min illər boyunca və hər dəfə də Novruz mərasimlərinin ilk çərşənbəsində təkrarlanır.

Dünyanın Azərbaycan adlanan diyarında min illərdir ki, Novruz bayramı əyani bir mərasimlə yeni nəsillərə yadigar verilir.

Necə?

Hadisələri qabaqlamayaq. Azərbaycanda belə bir məsəl var; tələsən təndirə düşər...

Əhvalat belə oldu...

201...-ci il fevralın 21-də sübh tezdən Bakı vaxtı ilə saat 6 tamamda Qobustan qəsəbəsinin 80 yaşlı sakini İlyas baba nəvələri Novruz və Yazgül yatan otağa girdi.

Əslində, o bir qədər əvvəl yuxudan oyanıb yatağından qalxmış, Alabaşı zəncirdən açıb həyətə buraxmış, balaca novdakı quyu suyu ilə əl-üzünü yuyub yüngülləşmişdi.

Baba bircə-bircə nəvələrinin çarpayısına yaxınlaşdı, yorğanı ehmalca tərpədib çağırdı:

- Novruz... Yazgül... oyanın!

Uşaqlar gözlərinl açıb başları üstündə sevimli babalarını - İlyas babanı gördülər.

Uşaqlar çarpayıdan sıçrayıb cəld geyinməyə başladılar.

İlyas baba onların otağına gəlibsə, deməli, xeyir işə görə oyadır. Həmişə belə olub.

İlyas baba pıçıltıdan bir az yuxarı səslə nəvələrinə bunu söylədi. Onun səsi ipək kimi yumşaqdı və uşaqlara sirli gəlirdi:

- Oğlum Novruz, qızım Yazgül! İnciməyin ki, sizi yuxudan elədim. Bu gün çərşənbə axşamı günüdür. Həftənin ikinci günü. Bu çərşənbə axşamı o biri çərşənbə axşamlardan fərqlənir. Qədim adətlərimizə görə bu gün hər kəs sübh tezdən yataqdan qalxmalı, su üstündən keçməlidir. Belə olanda adamın canında olan ağırlığı axar sular yuyub aparır.

Uşaqlar yaxşı-yaxşı geyinib İlyas babanın əlindən tutdular və həyətə çıxdılar. Onlar nadir hallarda bu vaxt oyanardılar.

Hava yenicə işıqlanırdı. Səhərin soyuq və saf havası xoşbəxtliyə bərabər idi. Qonşu həyətlərdən işıqlar sayrışır, adam hənirtiləri gəlirdi. Deməli, erkən yuxudan duran yalnız onlar deyildilər.

Uzaqdan Qədim Qobustan qayalannın əzəmətli, bir az da qorxulu qaraltısı görünürdü. Qobustan qayaları arasından süzülüb Xəzər dənizinə tərəf yön alan bapbalaca çay onların həyətinin arxasından keçirdi. Onlar çaya sarı yeridilər. Uşaqlar məəttəl qaldılar. Xırda su axarının ətrafı adamla dolu idi. Heç yerindən tərpənə bilməyən yüz yaşlı qoca arvadların, pirani kişilərin də







qolundan tutub çayın qırağına gətirmişdilər.

Atalar, analar Novruzdan və Yazgüldən balaca uşaqları, hətta bələkdəki körpələri qucaqlarına alıb, ehmalca xırda axarın üstündən gah o tərəfə, gah da bu tərəfə keçir və dua oxuyurdular.

İlyas baba nəvələrinin ağlı təzə-təzə kəsməyə başladığı yaşda ilk dəfə olaraq nə üçün məhz bu gün insanların sübh tezdən yuxudan oyandıqlarını, su üzərindən o tərəf bu tərəfə keçməyin mənasını izah edib deyirdi:

- Bütün Novruz çərşənbələri Boz ayın içindədir. Bu aya ona görə Boz ay deyirlər ki, hava əsasən tutqun olur, gah yağır, gah gün işıldayır. Hər tərəfdə çən-çiskin... sanki günəş də boz rəngdə olur. Novruz çərşənbəsinin ilki su çərşənbəsi sayılır. Niyə? Çünki su həyatdır, deyənlər haqlıdır. Azərbaycan torpaqlarını bara-bəhərə çatdıran, bərəkətli eləyən cəhətlərdən biri də bu ölkənin ərazisində su mənbələrinin yetərincə olmasıdır. Kəpəz, Avey, Qoşqar, Ərgünəş, Kirs, Savaian, Şahdağ ucalıqlarından, Qafqaz dağ silsiləsinin yaxasından başlayıb axan yüzlərlə çay, irmaq bir-birinə qarışa-qarışa, bir-birinə bənd ola-oia mavi gözlü Xəzərə qovuşur. Vətənimizin ən iri çayları Kür, Araz, Qarqar, Alazan, Girdiman, Göyçay, Türyançay, Viləş və digər çaylardır. Ən qədim zamanlardan dədə-babalarımız suyu müqəddəs bilmiş,



təmizlik, saflıq və bərəkət rəmzi saymışlar. Əcdadlarımız suya inanmışlar, hətta ona and içmişlər.

Üç oğru çərşənbədən sonra özünü yetirən su çərşənbəsi, yaxud sular novruzu, sanki, yazın tumurcuğudur.

Həm inama, həm də təbii əsasa görə həyatın ilk oyanışı sudan başlayır. Dağları, dərələri bürüyüb dolduran qarın canına isinti gəlir. Su dirilir. Qar, boran get-gedə çoxalan yağıntılarla əvəzlənir.

Su çərşənbəsində sübh tezdən suyun qırağına gəlib dua edən, qəlbində niyyət tutan, dərdini suya danışan insan yüngülləşir, sağlam olur.

Azərbaycanlılar inanırlar ki, səfərə çıxan adamın arxasınca su atılarsa, səfər uğurlu olar, gedən adam sağ-salamat geri dönər.

*Su aydınlıqdır.*
*Suya söyməzlər.*
*Suya xoş sözlər deyərlər.*
*Suya tüpürməzlər.*
*Gecə su içməzlər.*

Su çərşənbəsində suyu həyət-bacanın hər tərəfinə səpərlər ki, ev bərəkətli olsun.



Gecə vaxtı qaynar suyu həyətə-bacaya atmazlar, çünki orada mələk balaları dolaşır, qaynar su onların üstünə tökülüb yandırar.

Suyun müqəddəs sayılmağının başlanğıcında mifik bir təsəvvür var. Dünyanın yaranışı miflərdə belə təsvir edilir. Guya hər tərəf su imiş, Allah suyu qarışdırıb lil eliyər, sonra lili qurudub palçıq hazırlayır. Allah adamı bu palçıqdan yaradıb ona ruh verir. Göründüyü kimi yaranışda qanunauyğun olaraq dörd ünsür iştirak edir su, torpaq, hava, hərarət...

Qədim miflərə görə suyun (əyəsi) yiyəsi vardır.

Su dirilik rəmzidir.

Su elə müqəddəsdir ki, axır çərşənbə çaylar dayanıb axmır. Ağaclar baş əyib alnını suya söykəyir.

Nağıl eləyərlər ki, bir kasıb arvad Arazın qırağına gedlr, su dayanan anda bu qadın ehtiyac səbəbindən təmənna edir ki, əri qızıla dönsün, qayıdır evə, görür ki, həqiqətən də, əri qızıla dönüb. Onun çeçələ barmağını qoparıb verir dərdinə-oduna. Sonra arvad peşman olur. Qızıla dönmüş ərini gizlədir. Bir də o birl il, çərşənbə günü, suların dayandığı vaxt Arazın qırağına gəlib müqəddəs sudan ərinin yenidən adam olmağını təmənna edir. Evə dönəndə görür ki, qızıl adam dönüb olub adi adam - yəni arvadın əri. Amma ki, kişinin çeçələ barmağı yox imiş.

Deyir bu arvad bir dəfə də sənəyi çaya batırıb doldurmaq istəyir. Lakin su sənəyə dolmur. Heç demə həmin gün də axır çərşənbə axşamı günüymüş və su yatıbmış.

*Ocağa su töküb söndürmək olmaz.*
*Suya salam verərlər.*
*İnsanlar suya and içib deyərlər:*
*Su haqqı!*
*Suyun sovulmasın!*
*And olsun axar suya!*
*Ömrün su qədər olsun!*

İlyas baba uşaqlara bunları söyləyib su çərşənbəsi barədə söhbətini tamamladı. Onun növbəti nağılı ikinci çərşənbə - Od çərşənbəsi barədə idi.

"Böyük mənəvi gücə malik olan Novruz bayramı ulu əcdadlarımızın bizə verdiyi ən gözəl yadigar olub, Azərbaycan xalqının milli ruhunu və yaddaşını, onun daxili aləmini bütün zənginliyi ilə yaşadır".

**HEYDƏR ƏLİYEV,**
**Azərbaycan xalqının Ümummilli lideri**









NOVRUZ Azərbaycan xalq bayramı

Qışda sülhü buz ilən...
Yazda salar dava su.
Dillənməyir söz ilən,
Çəkir ağalar nəva su.

Deyirsən, vüsal olsun,
Həsrət saçını yolsun,
Sevən sevəni bulsun -
Gərək suyu qova su.

İnanma ki, ağlaya,
Dərin yaran bağlaya,
Dəhnəni torpaqlaya
Fələk çətin sova su.

Üzdürər qəm köçünü,
Selləndirər gücünü,
Xəlvət yeyər içini
Çöl itindən yava su!

Ha sellərə sinə gər,
Ey, havalı cəngavər,
Sonda ömür bitirər
Günəş, Torpaq, Hava, Su!..





## OD ÇƏRŞƏNBƏSİ

Əslində, Azərbaycanda dörd çərşənbənin hər birində tonqal qalanır. Od çərşənbəsində ocaqlar daha da gurlaşır.

Ocaq qalamaq üçün ağacların budanmış quru qanadları həyətin münasib yerində toplanır. Bu yer gərək geniş ola ki, ətrafında adamlar halay vurub toplaşsınlar. Evdə köhnəlib yararsız hala düşmüş stol, stul, dolab və sair ağac materialdan olan əşyaların ocağa atılıb yandırılması da adətdir. Su çərşənbəsində olduğu kimi od çərşənbəsində də həyət-baca, məhəllə təmizlənir, hər tərəfdə rahatlıq və nizam yaradılır.





Od çərşənbəsi adətlərindən biri də lopa yandırmaqdır. Bunun üçün müəyyən miqdarda əski topası yumurlanıb düyülür. Lopanın yanmayan materialdan dəstəyi olur. Lopa neftlə yaxşıca isladılır. Tonqaldan götürülən odla alışdırılır və onu adamlar böyük sevinclə, şən bir əhvalla başları üzərində dolandırıb göyə doğru atırlar. Bir anda obanın hər tərəfində yüzlərlə yanar lopa göyə qalxır. Sanki insanlar bir-biri ilə od dilində danışırlar. Uşaqlar, böyüklər, qızlar, oğlanlar tonqal ətrafında halay vuraraq rəqs edir, mahnı oxuyur, "ağırlığım, uğurluğum odda yansın" deyərək tonqal üzərindən tullanırlar. Axşamdan alışan tonqal gecənin yarısına qədər alovlanır. Tonqal yandırılanda qocalığına, xəstə olub-olmamağına baxmayaraq, hər kəs evdən çıxmalı, tonqal başına gəlməli, ocaq ətrafında dolanmaqla, yaxud od üzərindən tullanmaqla dualar oxumalıdır.

Odla əlaqədar mərasimlərin icrası əsgi inamlarla bağlıdır. Türk qövmü ən qədim zamanlardan oda tapınmış, etiqad etmişlər. Od Allahın nurudur.

Su kimi od da təmizə çıxarır, od hərarətdir, istilikdir. Od insanları şaxtadan, borandan qorumuş, ölməyə qoymamışdır.

Günəş göy üzündə əbədi yanan bir tonqaldır. Bu əbədi nur mənbəyi müqəddəsdir.

## YER ÇƏRŞƏNBƏSİ

Üçüncü çərşənbə Yer (torpaq) çərşənbəsi adlanır. İnanca görə su və odun oyanışı və torpaqla qovuşması torpağın canını yumşaldır, yerin şaxta-buzu açılmağa, ağaclar yerdən şirə çəkməyə başlayırlar. Bu çərşənbədə də ocaq qalanır. Çərşənbələrin hər birində qazan asılması, yemək bişirilməsi və çərşənbə axşamı süfrəsinin açılması, demək olar ki, məcburidir.

Nəinki insan həyatının, bütün canlı aləmin varolması üçün su və odla yanaşı torpağın necə əhəmiyyət kəsb etməyinin nə sübuta, nə də dəlilə ehtiyacı var. Bu çox mühüm, mühüm olduğu qədər də sadə həqiqətdir. Su ana, od atadırsa, torpaq varlığın özüdür. Bütün dünyada olduğu kimi, Azərbaycanda da insanın həyat ehtiyaclarını torpaq ödəyir. Hazırda bu ölkə yaşayış şəraitinə, məişət strukturuna görə başdan-başa (işğalçı Ermənistan tərəfindən zəbt edilmiş Qarabağ torpaqları istisna olunmaqla) şəhərə çevrilsə də min illər boyu kəndli həyatı, aqrar təmayül aparıcı olmuşdur. İctimai formasiya baxımından kəndli sinifdir, bizdə isə bu həm də peşədir, varolmaq institutudur. Yaşı qırxı, əllini adlamış əksər azərbaycanlı xatırlayır ki, uşaqlıq illərində nə zamansa o qoyun otarıb, inəyi kövsəndən evə gətirib, at çapıb. Bu, antik tarix, qocaman bir yaddaşdır. Çünki azərbaycanlılar da





bütün türkdilli xalqlar kimi böyük çöl mərhələsindən xəbərdardırlar.

Yaz nədir? Yaz, ilk növbədə torpağın oyanması, ilboyu ödənməsinə ehtiyac olan sərvətin toplanma fürsətidir, daha doğrusu, bu fürsətin başlanğıc mövsümüdür. Elə buna görə də əkin-biçin, mal-davar bəsləmək Novruz düşüncə sistemində əlahiddə bir yer tutur.

Yaza - Novruza hazırlıq, əslində, payızdan, ötmüş ilin məhsulu yığılıb qurtarandan bir neçə həftə sonra başlanır. Folklorşünas Azad Nəbiyevin araşdırmalarına görə qədimlərdə torpaq işi oktyabrın ortalarından start götürərmiş. Bu, şum mərasimidir. Bu ərəfədə torpaq suvarılır, təpiyəndən sonra şumlanır. Adamlar şumçulara xonça gətirərdilər. Xonçaya dəsmal, ağ köynək, corab, şirni, qovurğa qoyularmış.



Nənəm, a şişək qoyun...



Səməni, saxla məni...

Torpaq şumlanan yerdə qurbanlar kəsilər, qazanlar asılarmış.

Əlbəttə, mərasimlərin bəzəyi nəğmələr, rəqslərdir. Məşğuliyyətə uyğun olaraq bu mərasimlərin estetik varidatı əkinçilik, qoyunçuluq, naxırçılıq, toxuculuq, balıqçılıq və s. ilə bağlı olmuşdur. Torpaqla əlaqədar adətlər yaza qədərki müddət içərisindədir. Bu zaman yaradılan nəğmələr, deyimlər, rəqslər və digər rituallarda yazın gəlişi, bərəkət gətirməsi, ilin xoş keçməsi arzulanır.



Dövlətdə dəvə...

novruz Azərbaycan xalq bayramı



Barın-bərəkətin qayıdır canı –
Həyat nişanıdı buğlanan torpaq,
İllər xəstəsinin tərləyən alnı,
Durulan qanıdı buğlanan torpaq.

Çağa belə olur bələklənəndə,
Belə tüstülənir ocaqda odun,
Yarısı səmada lələklənəndə
Yarısı yerdəymiş, yoxsa buludun?

Ağlibas gəlinə oxşayır bir az,
Duvağı tərpənir fikir içində.
Qazan qapağını, yoxsa ki, aşpaz
Qaldırıb, fırladır kəfgir içində?..

Dərin yaraların sarılır üstü,
Bəyaz məlhəm düşür, ağ çara düşür...
Qara sobamızdan burulur tüstü,
Qara çaydanımız qaynara düşür.

Nənəmçün aldığım örpək payıdır,
Ağ idi onun da çəkdiyi hər ah.
Gedib o dünyanı görüb qayıdır,
Torpaq köynək yırtır elə bil, Allah!







■ Azərbaycan zəngin təbii sərvətlərə malik bir ölkədir. İnsanların əli ilə yaz bayramı ərəfəsində əkilən meyvə ağacları ilboyu barbəhər verir. Burada yetişən alma, armud, üzüm, gilas, gavalı, gilənar, zoğal, nar, iydə, xurma, alça, əncir, heyva, badam... sanamaqla adı bitib-tükənməyən və xeyirinə görə, həqiqətən də, başqa yerlərin meyvəcatına bənzəmir. İnsanlar çalışır ki, Novruz süfrəsi torpağın yetişdirdiyi nemətlərlə zəngin olsun.



## YEL ÇƏRŞƏNBƏSİ

Su, od və torpağın bir-biri ilə dil tapması havanı yaradır. Bu, həyat mühitidir. Yer üzündə elə ölkələr var ki, illərlə yağış yağmır. İnsan bir neçə gün susuz yaşaya bilir, ən sərt şaxtalarda süni istilik dada çatır. Bir ölkədən başqa ölkəyə uçan təyyarələr insanı saatlarla yerdən ayırır. Amma havasız bir dəqiqə də mövcudluq mümkün deyil. Elə bu səbəbdən də Novruz düşüncə sisteminə daxil edilən yel, hava müqəddəsdir. Xoş hava arzusu Novruz ənənələrin zənginləşdirən estetik dəyərə malikdir. "Novruz bayramı" ensiklopediyasına (tərtib edənlər Bəhlul Abdulla, Tofiq Babayev) belə bir rəvayət daxil edilib. "Deyilənə görə Yel baba ilə Əkinçi baba qardaş imişlər. Bahar torpağa hərarət gətirəndə onlar tarlanı birlikdə əkərmişlər. Bundan sonra tarladakı işlərə Əkinçi baba cavabdeh imiş. O, məhsula su verər, otalaqdan təmizləyib becərər, yetişəndə də biçib xırmana gətirərmiş. Arpa-buğda dənini küləşdən, samandan ayırmaq isə Yel babanın işi imiş. Yel baba başqalarının da taxılını xırmanda sovurub pay alarmış. Bir kərə yenə adamlar arpa-buğdanı döyüb gözləyirlər ki, Yel baba gəlib onu sovursun. Amma o gəlib çıxmır ki, çıxmır. Səbri tükənmiş adamlar taxılı özləri sovurmağa başlayır və:

Yel baba, amana gəl,
Dolanıb xırmana gəl,
Bir bəhanən yoxdusa





Xəlbirə, samana gəl.
A Yel baba, Yel baba,
Saman sənin, dən mənim.
Ləçəyi mindər-mindər
Yönünü döndərmirsən
Mehini bizə göndər.
A Yel baba, Yel baba,
Saman sənin, dən mənim -

deyə oxuyurlar. Elə bu vaxt gəlib xırmana yetişən Yel baba eşitdiyi sözlərdən inciyib geri dönür. Adamlar öz əməlindən peşman olurlar. Hamı Yel babanın arxasınca qaçır və oxuyurlar:

A Yel baba, Yel baba,
Qurban sənə, gəl, baba!
Taxılımız yerdə qaldı,
Yaxamız əldə qaldı...
A Yel baba, Yel baba,
Qurban sənə, gəl, baba.

Bu nəğmə Yel babanın xoşuna gəlir. Geri qayıdıb xırmandakı buğdanı, arpanı sovurub samandan ayırır".

Xalq oyunundan göründüyü kimi, Yel baba - hava məhsul istehsalının bütün mərhələlərində əsas qüvvədir. O, əkinçinin qardaşıdır. Beləcə Novruz adət, ənənə və mərasimlərində məntiqi olmayan heç bir qondarma fəlsəfə, demək olar ki, yoxdur. Sanki, bütün yalanlar suda batmış, odda yanmış, küləkdə sovrulmuş, torpaqda çürümüşdür!







Aslanlar kaha yırtır,
Sərçə əjdaha yırtır,
Bülbüllər yaxa yırtır
Yaz havası üstündə.

Gül qalxıb dağa dəyir,
Qırmızı ağa dəyir,
Yarpaq yarpağa dəyir
Yaz havası üstündə.

Çapanda yolu daşır,
Kəhərin yalı daşır,
Dindirir nalı daşı
Yaz havası üstündə.

Cığır həvəs qaynadır,
Külək nəfəs qaynadır,
Bulaqlar səs qaynadır
Yaz havası üstündə.

Kəlmələr ram olaydı,
Könlüm aram olaydı,
Bircə misram olaydı
Yaz havası üstündə.





■ Novruzun canı Novruz Bayramı günüdür. O çərşənbə axşamına düşməyə də bilər. İlaxır çərşənbə Novruz Bayramının son və baş məşqidir və Novruz Bayramının özü qədər əziz tutulur. Novruz Bayramına ən yaxın son çərşənbə öz möhtəşəmliyinə görə martın 20-21-də keçirilən (əslində, bayram aprelin 1-nə, dünyanın yalan gününə qədər çəkir) Novruz Bayramından geri qalmır.









## QIZIL SUYUNA ÇƏKİLMİŞ GÜN

Əvvəlcə evimizdən başladı bahar. Bir ovuc buğda bir əlçim çəmənliyə çevrildi. Dayaz boşqabın içindən dərin göylərə, gün işığına boylandı bir ovuc buğda.

Sonra eyvana bir qaranquş qondu.

Xoş gəldin, bahar müjdəçisi, xoş gəldin...

Elə bil qaranquş civiltisinə bənd idi dünya. Elə bil göy üzü qaranquşu gözləyirdi. Buludlar baş-başa gəldi. Qıpqırmızı buludların kürəyində ildırımlar şaqqıldadı. Göylər bir yağışlı nəğmə başladı. Navalçalar səsə düşdü. Pəncərələr oxudu, ağaclar oxudu. Bir də baxıb gördük ki, doğma torpağın köksünə səpələnən yağış deyil, nurdu, işıqdı. Sən demə, bu, yağış deyilmiş, Günəş nənənin gülüşüymüş, sevinciymiş, ələnirmiş torpağın üstünə. Yoxsa bu yağış damlaları belə nurlu olmazdı, işıqlı olmazdı. Yoxsa Günəş nənə dünyanın yeddi rəngindən dəstələdiyi əlvan göy qurşağını üfüqlərdən-üfüqlərə calamazdı...

Uşaqlar yağışa aman vermədilər. Yamaca qaçdılar, şehli çəmənliyə üz sürtdülər, ayaqları yağış suyuna çəkildi. Bu yağış suyu da nur idi demişdik axı. Qocalar baxıb gördülər ki, nəvələr qızıl suyuna çəkilib, günəş suyuna çəkilib. Uşaqlar həvəsdi, bəsdi demədilər. Əvəzində özgə söz dedilər. Dedilər ki, nənəqurşağı üfüqlərdən-üfüqlərə körpüdür, dünyalaradan-dünyalara yoldur. Biz bu





körpünün üstüynən yeriyəcəyik. O yol bahar yoludu, xoşbəxtlik yoludu...

Beləcə, yer üzünün təzə bahar nağılı başladı. Beləcə, ağacların bar vermək arzuları budaqlara sığmadı, tumurcuq-tumurcuq, qönçə-qönçə açıldı. Bahar obalara, oymaqlara, düzlərə, düzənlərə yaşıl don biçib dağlara sarı baş aldı. İndi qalırdı zirvələrdəki ağ qarın canına isti dəyməyi, indi qalırdı dağ çaylarının coşub kükrəməyi, əkinlərə, biçinlərə bərəkət daşımağı.

Bu yaz bir başqa yazdı... Həmişə baharın əllərini sıxanda, hər dəfə təbiətin qeyri-adi möcüzələrini görəndə belə düşünürük. Bahar hər dəfə təkrarən yaşıllıq gətirsə də, çiçəkləri açsa da, çayları coşdursa da, yağışı-yağışa calasa da, göydə günəş tonqalı qalasa da, bizə elə gəlir ki, bu yaz o biri yaza bənzəmir. Bu yaz bir başqa yazdır. Görən niyə belə olur? Çiçəyi bir, gülü bir, günəşi bir... Bu yaz başqa yaza bənzəmir, niyə bu yaz bir başqa yazdır?!

Adam elə bil birdən-birə özünü görür. Otlara baxırsan, quşlara baxırsan, daşlara baxırsan və birdən gözün özünə sataşır. Axı sən də həmin adam deyilsən, dəyişmisən, böyümüsən, torpağa daha çox yaxınlaşmısan. Onda istər-istəməz düşünürsən: bahar təkcə təbiəti deyil, adamları da dəyişir. Adamlar əvvəlkindən daha yaxşı olurlar. Əvvəlkindən daha böyük həvəslə, sevinclə qollarını geniş açıb deyirlər:

- Qədəmlərin uğurlu, bahar, yolun uğurlu, bahar! Bu gəliş ki, səndə var, dünyanın qara daşları da göyərəcək. Xoşbəxtlik əlindən, gül-çiçək əlindən tərpənmək olmayacaq yer üzündə. Xoş gəlmisən, fəsillərin gözəli!



Vur nağara,
çıx qırağa...

## GÖYLƏRDƏ NOVRUZ İZİ

Hər bir adət-ənənədə az və ya çox dərəcədə kosmoqonik, etnoqrafik və təqvimlə əlaqədar mifləri izləmək olar. Mifoloji düşüncənin bütün qolları sanki Novruzda vəhdət halına gəlir, bu günlərdə insan və təbiət elə ecazkar sehr-cazibəyə malik olur ki, bütövlükdə həyat canlı mif təəssüratı yaradır. Lakin burada heç nə mif deyil, ən gizli hissəciklər belə real həyat və doğal çevrədən qaynaqlanır. Mifologiyaya görə əzəllərdə yuxarıda Göy tanrı, aşağıda boz yer yarandığı anda bunların ikisinin ortasında insan yaranırmış və həmən o əzəli yerdə heç nə yox imiş, elə vaxt öz-özünə gəlib keçirmiş. Əslində, Novruz elə-belə gəlib keçən



■ Xoruz döyüşü





vaxtı, axar çayları bir anlığa durdurur, suyun, odun, torpağın və havanın köməyi ilə başqa bir aləm yaradır. Təməl fəlsəfəsində ən qədim miflərin yer alması Novruzun özünün qədimliyi, fundamental təfəkkürə bağlılığı ilə izah edilməlidir.

Bahar fəslinin canlandırma, diriltmə qüdrəti mif simvolikası ilə səsləşir və miflər var ki, onlar Yaz-Novruz əhvalatlarına oxşayır.

"Deyir bir kasıb kişi varmış, otdan-alafdan toplayıb mal-heyvan saxlarmış. Bunun bir göyçək qızı varmış. Vəziyyət belə yaranır ki, kişinin otu qurtarır. Soyuq qış, hər tərəfi qar bürüyüb, nə tövlədə, nə çöldə bir qırpım ot var. Naəlac qalan kişi varlı qonşuya ağız açır. O, ot verməyə razı olur, bir şərtlə ki, kasıb kişi əvəzində qızını ona versin. Qız bunu duyub qəmli-qəmli nalə çəkir:

Ay göydə sallandı, ay dədə,
Daha yaza nə qaldı, ay dədə.

Qız belə oxuyub ulduza dönür. Yazın gəlişiynən hər yanı ot basanda kişi evə dönüb görür ki, qızı yoxa çıxıb".

Miflər Novruz düşüncəsinə daxil olarkən hər bir canlı müəyyən sehrli simvolikanın daşıyıcısına çevrilir.

Azərbaycanda bahar müjdəsini ilk dəfə qaranquşların gətirdiyinə inanırlar. Bu beli qara, sinəsi ağ, quyruğu haça bir quşdur. Ən qədim dövrlərdən üzü bəri əlinə qələm alıb yazı yazan, qoşma qoşub söz söyləyən elə bir el sənətkarı, şair tapılmaz ki, qaranquşdan deməsin. Belə rəvayət eləyirlər ki, dünyanı su



■ Qayalar gül açır Novruz gələndə

bürüyəndə və Nuh peyğəmbər canlı varlığı xilas etmək üçün tale gəmisi ilə torpağa sarı üzəndə müjdə üçün qaranquşu və arını göndərmişdi. Bunlar geri qayıdanda arı Nuh babamıza hər şeyin dadına baxdığı və ən şirin şeyin insan qanı olduğu xəbərini gətirdi.

Bu, qaranquşun xoşuna gəlmədi və arının dilini qopardı ki, xəbər aparmaq nədi, qoy heç yerli dibli danışa bilməsin. Qaranquş Nuh peyğəmbərə ən şirin şeyin torpaq olduğu xəbərini verdi.

## İLAXIR ÇƏRŞƏNBƏ

Sözün anlamından da göründüyü kimi İlaxır çərşənbə ilin sonuncu çərşənbəsidir. Bu çərşənbə möhtəşəm əlamətlərinə görə Novruz adət-ənənələri kompleksində mühüm yer tutur. Onu da qeyd etmək lazımdır ki, ilin dörd çərşənbəsinin hamısı ilaxır çərşənbələr sayılır. İlaxır çərşənbə də daxil Bahar bayramına qədər olan hər gün ev-eşikdə, həyət-bacada təmizlik işləri aparılır, çərşənbələrdə tonqallar qalanır, adamlar su üstünə gedir, niyyət tutur, müxtəlif ayinləri icra edir, xalq tamaşalar düzəldir, yazın gəlişini, ümumən yeni ilin büsbütün bolluq, bərəkət ili olmasını arzulayırlar. Çərşənbə axşamları mütləq hər evdə qazan asılır, xörək bişirilir, doğmalar, dostlar bir-birinə baş çəkir, küsülülər barışır. İlaxır çərşənbələrdə qapı pusmaq, elçi getmək, nişan aparmaq, valideynləri yoxlamaq böyük məmnunluq hissi ilə icra olunan adətlərdir.

Azad Nəbiyev tərəfindən toplanmış folklor örnəklərinə görə:

Axır çərşənbə uşaq beşiyi düzəltmək düşərlidir.

Axır çərşənbə gün çıxmamış su üstündən atdanarlar.

Axır çərşənbə tonqal yandırarlar.

Axır çərşənbə qorxuluğu olan adamların başına su töküb qorxuluğunu çıxardarlar.







Axır çərşənbə niyyət edilmiş qoyun-qoçun, habelə kəlin, sağmal malın buynuzuna qırmızı bağlayarlar.

Axır çərşənbə evdən pul, od, neft, kibrit, ələk, borc un, ağartı verməzlər.

Axır çərşənbə şam yandırarlar.

Axır çərşənbə şamı yarımçıq söndürməzlər.

Axır çərşənbə gecəsi tez yatmazlar.

Axır çərşənbə mütləq qazan asıb xörək bişirərlər.

Axır çərşənbə dünyasını dəyişən əziz adamların adına qazan asarlar.

Deyildiyi və göründüyü kimi Novruz inamları olduqca zəngindir və burada mövcud olan hər bir hərəkətin, ayinin simvolikası vardır.

Novruz bayramı adət-ənənə və mərasimlərinin keçirilmə ardıcıllığında, bəlkə, haçansa dəqiq vaxt bölgüsü olmuşdur. Lakin hazırda İlaxır çərşənbələrdə mövcud olan adət və ənənələr çox hallarda təkrarlanır. Məsələn, dörd çərşənbənin dördündə də tonqal qalanır, su üstündən keçilir, ev-eşik təmizlənir, doğmalara, qocalara baş çəkilir, qazan asılıb süfrə açılır. Lakin dördüncü - axırıncı çərşənbə və həftənin hansı gününə düşməyindən asılı olmayaraq Novruz Bayramı axşamı və Novruz Bayramı günündə mərasimlərin, adət və ənənələrin tam mənzərəsini izləmək mümkündür.









Buluddan məlhəm qoy yarğan ağzına,
Dağların qar tutmuş başını dirilt.
Kəklik dırnağının boyağı solub,
Qayanın xınalı daşını dirilt.

Bükülməz qolların dəryazını ver,
Donmuş çeşmələrin avazını ver,
Vurğun igidlərin murazını ver,
Qızların çatılmış qaşını dirilt.

Quzunu toğludan ayır, yerisin!
Evlərə bərəkət, xeyir yerisin,
Güllü cığırında cüyür yerisin,
Yamacın laləli döşünü dirilt.

Sonsuz beşiklərə gül çağa cala,
Qurbanlıq toğlunu bıçağa cala,
Qara qazanları ocağa cala,
Buğlanan südünü, aşını dirilt.

Paxıl ürəklərin sök gözəyini,
Sil namərd evinin bər-bəzəyini,
Nənə barmağında toy üzüyünün
Qaralıb kor olmuş qaşını dirilt.

Yol azan yolçunun bağrını çıxart,
Heysiz ayaqların cığırını çıxart,
Babamın canından ağrını çıxart,
Səksəni adlayan yaşını dirilt!..

## XOŞBƏXTLİYİN AD GÜNÜ

Müdrik dünyanın çox, lap çox həqiqətləri var, bəlkə də, hikmətləri. O həqiqətlərdən, o hikmətlərdən biri də belədir: gilə-gilə ömür əritdiyimiz, qıpqırmızı nar kimi dənələdiyimiz bütöv ilin elə bir günü var ki, o gün hamı və hər şey xoşbəxt olmalıdır! Bu hikmətdi bütün nurlu düşüncələrin özəyi, mayası. Nağıl-nağıl, dastan-dastan gözünü üfürüb alışdırdığımız o əbədi işıqgələn, o sirli nur çeşməsi olmasa, buz bağlamış çay kimi varlığımızı üşüdər ömür yolu!

O elə bir gündür ki, gülü-çiçəyi torpağın səsidir, dalğası-ləpəsi suların səsidir, oğul-uşaq isti qanımızdan dikəlib can atır göy üzünə, dibsiz dərinliyə, səadətə, ul-



■ Gül kəpənək





duzlara... Səs həyat qönçəsidir, qatbaqat, buğum-buğum, ləçək-ləçək açılır.

Novruz dediyimiz o gün dünyanın dirilik saatı, oyanış hikmətidir. Novruz - təzə gün! Ərişli-arğaclı yer üzü təzə paltar geymiş uşaq kimi sevincəkdir, şövqlüdür.

Təzəlik çeşməsinin hamıdan və hər şeydən öncə gilələnib üzə çıxdığı ilk oyanış nöqtəsi varmı görəsən? Yoxsa yan-yörəmiz torpağı, suyu, havası, odu ilə bir göz qırpımında cana gəlir! Ölüm kimi bəxtəvərlik də gözlə qaş arasındadır yoxsa? Bəlkə, torpaqdı Novruzun əbədi yol yoldaşı, ilk elçisi?

Novruzda yer üzü nəhəng bir plov qazanı kimi buğlanır və buğlanan, ulu babalarımızın ruhu gücünə isinən bərəkət təknəsinə baxanda öncə gözlər doyur. Göz-könül toxluğu Novruzun insan övladına salamıdır, siftə öyüdüdür. Torpaq ümid saxlancıdır. Adama elə gəlir ki, il yaza dönən gün torpağa diz çöküb ceyran ayağının izindən öpsə, sonsuz qadının boynuna uşaq düşər. Və o Novruz övladının, bahar balasının adına qurban qanatsaq, qanı yaşıl olar.

Bir də baharın ilk günü zərif, kövrək şüşəyə bənzəyir ana torpaq, yeməli, içməli torpaq! Bəs onda niyə ağır yük altında çiliklənib qəhr olmur? Çünki o ilahi xoşbəxtlik anında insan da qanad taxır. Adamlar göylə gedir, göyün yeddinci qatı ilə gedir! Bəlkə, o əbədi nur çeşməsinin əzəli axar yeri torpaqda deyil, göydədir? Yazağzı nənə boğçasından çıxan sonuncu lumu kimi, qaynar təndir divarından qopan çörək kimi sevimli Günəş! Şəfəqi sünbül-sünbül, sinəsi xırman-xırman sarı səməni sinisi. İnsan işıq quludur! Novruz axşamı yer də günəşə dönür, işıq saçır. Çatılan ocaqlarda köz-közə söykənir. Günəş baharın üzüdür! Yer üstündə nə varsa, o üzün nuruna görədir. Novruz axşamı göy üzünə odlu lopalar atan insan günəşlə od dilində danışır. Nə ki, dərdimiz var, Novruz tonqallarında çartaçart alışıb yanır, düşmən gözü də yanır bu ocaqlarda!

Torpaq oyanır, günəş oyanır və bir də sular oyanır. Çox güman ki, torpağın, günəşin səsinə oyanır sular. Soyuq-soyuq qayaların alnını puçur-puçur tər basır. Buz xalçaların şüşə gözəyi sökülür, sular



günəş istisini canına yığıb torpağın görüşünə üz tutur; şəkərdi, şərbətdi, baldı bahar suları.

Torpağın, günəşin, suyun oyanmasına bənddi dünya. Bir də görərik ki, zəmilər qırağında lalə tonqalları düzü-dünyanı başına götürdü, qırmızıdan göz isindi. Bir də görərik ki, yaz dumanı ən dərin dərəni də ağız-buğuz silələdi, ən dərin yaraya məlhəm qoyurmuş kimi. Yaşıllıq sərin sudu, qurşağa çıxır, boyun-boğazımıza şeh çilənir.

Novruz aydınlıqdır, duruluqdur, il, fəsil karvanının qədəmlərinə səpilən bir dolça nurdu Novruz. Torpağın, günəşin, suyun duruluğu...

Bir də havanın duruluğu...

Hər pəncərə altında bir ağac yüksəlir, bir yaşıl əl uzanır hər pəncərəyə. Ehmal tərpənişlərdən otaqlara səda düşür. Pəncərəni döyən budaq şivləri deyil, odur, Novruzun həlim, kövrək, titrək barmaqları. İnsanı yaşadan yaz havasıdır. Bələkdəki körpəni güldürən də, cavan-cavan adamların qanını qaynadan da, yüz ilin dizini yerə qoyan qocanın ağappaq saqqalını tumarlayan da. Yaz havası dirilik qapısını açmaq üçün torpağın, günəşin, suyun əlində açardır.

Gəldik, o günə gəldik. Torpaqdan, günəşdən, sudan, yaz havasından keçib gəldik. Gəlib gördük ki, Novruz günü





insan oğlunun xoşbəxt olmaqdan özgə çarəsi yoxdur. Ayağının altında torpaq, başının üstündə günəş, gözünün önündə çağlar sular, xəyalında yaz havası. Dünyanın dörd böyük qüdrəti yalnız o gün - il yaza dönən vədə insanın olur, olur və əbədi onda qalır!

Novruz təbiət və insan xoşbəxtliyinin ad günüdür. Neçənci ad günüdür? Bu, bəlkə də, dərk olunmuş tarixdən çox-çox o yanadır. Kim bilir ki, dünyanın ilk baharı nə vaxt olub? Yəqin ki, bahar olmasaydı, atlı-otlu, səmalı-quşlu, işıqlı-sulu, ağaclı-adamlı dünyanın bu günü də olmazdı. Elə buna görə də yazın ilk günü insanın sevinci köksünə sığmır, onu tarla çağırır. Yaz havası buğdanı torpaqsız göyərdir, səməni evlərə bəzək olur. Çərşənbə günündə alışan tonqallar da, kəsilən xalçalar da yazın adınadır. Şəbəkəli pəncərələr, güzgülü qapılar Novruzun üzünə açılır. Evimizə-eşiyimizə yaz havası dolur. Düşən gün işığından körpələrin köşək gözü qıyılır. Eyvanlara sərilmiş əlvan xalılar, xalçalar gül-çiçəkli yaz çəmənini xatırladır. Xalçalar üstünə arılar uçur.

Yazın milyon sirri, milyon hikməti var. İnsan övladı ağlı kəsəndən ta bu günə kimi o müdriklik zəncirini çəkib çözələyir, hər dəfə də qismətinə yeni rənglər, yeni möcüzələr çıxır. Bu yerdə şair tapıntısı adamın ürəyinə sarı yağ kimi yayılır. Bu yaz bir başqa yazdır. Nə üçün, nədən? Sual verməyin yeri yoxdur. Sadəcə bu yaz o biri yaza bənzəmir. Hər bahar dünyaya təzədən gəlir, hər yaz təzə yazdır. Yoxsa fəsillərin min illərlə davam edən təkrarından cana doyardı, bezərdi insan. Yaza çıxanda insan ürəyinə güman damır - nə vaxtsa təzədən doğulmaq gümanı. Təzədən doğulmaq isə su içmək kimi asan bir işdir: ürəyini düz saxla, torpağa əbədi toxumlar səp, sudan paklıq al, günəşə yüksəl! Əkdiyin ağacla, üst-üstə qoyduğun daşla, çəkdiyin yolla, gözünü açdığın bulaqla, çörək verdiyin yetimlə, dadına çatdığın qonşularla, halal dostlarla, müqəddəs sevgilərlə, böyüyə hörmətlə yüksəl!

Bahar ayağa qalxmaq, yüksəlmək imkanıdır!



■ Gül qız

## BAYRAM HAZIRLIĞI

Bayramın hazırlıqları, demək olar, günlərlə davam edir. Hamı istəyir ki, bayram gününə köhnə ilə heç bir borc qoymadan çatsın. Azərbaycanda hava şəraiti elədir ki, bayrama qədər bağ-bağat budanmalı, meynələr kəsilməlidir. Çünki Novruzdan sonra artıq ağaclar şirəyə dolmağa başlayır, tumurcuqlayır. Bu vaxt ağacda budama aparanda şirəsini axıdır və bu da sonrakı məhsuldarlığa ziyan eləyir. Ölkənin kənd yerlərində əkin-səpin mövsümü martın sonu, aprelin əvvəlinə təsadüf etdiyindən gərək tarlalara çəkilən arxlar, kanallar da təmizlənə. Novruz bayramına qədər evin içində nə qədər paltar, yorğan, döşək, xalça, palaz, fərməş, xurcun, örtük, pərdə varsa artırmalarda sürahilərə düzülür, həyətin ortasında qurulmuş iplərdən asılır. Günəş pal-paltarı ılıq suları ilə təmizləyir, sübh tezdən havaya verilən ev əşyaları bir də axşam üstü evə daşınır.

Geyim-kecimlə yanaşı, evdə olan qab-qacaq, qazan, samovar da həyətə çıxarılır. Onlar müxtəlif yuyucu tozlarla, qumla, duzla, gilabi ilə qəşəng-qəşəng sürtülüb təmizlənir.

Nəhayət, Novruz Bayramı gəlib yetişir. Hazırda Azərbaycanda Novruz Bayramı məhz dövlətin böyük dəstəyi ilə keçirilən möhtəşəm milli el şənliyi, zəngin xalq bayramıdır. Novruz beynəlxalq, ümumrespublika, ümumrayon formasında qeyd olunur. Rəsmi bayram Azərbaycanın paytaxtı Bakıda şəhərin tarixi İçərişəhər, Qız Qalası ətrafından başlayaraq dünyanın nadir milli parklarından olan dənizkənarı bulvar boyunca davam edir. Sübh səhərdən başlayan şənliklər gecə yarısına qədər çəkir. Tam təsəvvür yaratmaq üçün rəsmi Novruz şənliyinin ssenarisinin qısa variantını təqdim edirik.





## BAKIDA RƏSMİ NOVRUZ BAYRAMI

**Bakı şəhəri, 20 mart, saat 11.00, Dənizkənarı bulvar, Qız Qalası meydanı**

Rəsmi bayram tədbiri Qız Qalası meydanından başlayıb Novruzun qədim adət, ənənə və mərasimlərinə əsaslanaraq yaradılmış meydan göstəriləri quruluşunda Muzey Mərkəzi ilə üzbəüz bulvar ərazisinə - Paraşüt qülləsinə qədər davam edəcəkdir. Qız Qalası meydanı - onunla üzbəüz bulvar meydanı - keçmişdə "Dinamo" yerləşən, indi yenicə təmirdən çıxmış geniş ərazi - Kukla Teatrı - "Mirvari"yə aparan fəvvarəli xiyaban - Paraşüt qülləsi meydanı mərasimin hərəkət marşrutunun əsas nöqtələridir. Marşrut xətti, Novruz Bayramı rituallarının məntiqi ardıcıllığına görə milli dekorlarla qurulmuşdur. Burada saray, qəsr, qala, bazar meydanı, səhnə, zorxana, kəndirbaz, idman, aşpaz, dəmirçixana, xalçaçılıq, sərgi, yarmarka, əyləncə, tamaşa, toy-düyün, konsert, rəqs dekorları məqsədəuyğun qaydada yer almışdır. Tədbirin rəsmi xarakteri nəzərə alınaraq iştirakçıların tərkibi belədir:

1. Dövlət rəhbəri - Ali qonaq.
2. Dəvət olunan rəsmi heyət, xarici qonaqlar, ölkənin nüfuzlu ağsaqqalları, ağbirçəkləri, xarici ölkələrin böyük elçiləri, deputatlar, ictimai-siyasi xadimlər, tanınmış sənət adamları (şair, yazıçı, bəstəkar, memar, rəssam, musiqiçi, aktyorlar), elm adamları, müəllimlər, həkimlər və s.





3. Bayram adət-ənənə və mərasimlərini nümayiş etdirən insanlar - ifaçılar, aktyorlar, rəssamlar, kulinarlar, xalçaçılar, dəmirçilər, rayonlardan tədbirə Novruz töhfəsini nümayiş etdirmək üçün təşrif buyurmuş nümayəndə heyətləri.

Mərasimə qatılan təşkilatçı qruplar bayramın xarakterinə münasib geyinmişlər. Onların əyin-başı Novruz rəmzləri ilə bəzədilmişdir. Əllərdə gül-çiçək dəstələri, səməni, şar, bayraq və s. vardır. Təşkilatçı qruplar daim hərəkətdədir, bütün marşrut boyu böyük qaynarlıq, dinamika, bayram əhval-ruhiyyəsi hər kəsi vəcdə gətirir. İçərişəhərin Qız Qalası meydanına baxan nisbətən hündür binalarının üstündə və marşrut boyu digər münasib yerlərdə Novruz Bayramının gəlişinl salamlayan şüarlar asılmışdır:

"Novruz bayramınız mübarək!"
"Dinclik, bolluq, bərəkət, ruzi!"
"Gəl, gəl a yaz günləri, ilin əziz günləri!"
"Azərbaycana Novruz gəlir!"
"Qədəmlərin mübarək, Novruz Bayramı!"

"Novruz bizim ümummilli bayramımızdır".

"Böyük mənəvi gücə malik olan Novruz bizə əcdadlarımızdan yadigardır".

"Novruz Bayramı Azərbaycan xalqının ən əziz, ən sevimli bayramıdır".

Qız Qalası meydanında sıra-sıra dayanmış insanların əllərindəki yaşıl budaqlardan bir yaz çəmənliyi yaranmışdır. Yaşıl "çəmənliyi" sanki bahar küləkləri dalğalandırır.







Birinci sırada 6-7 yaş arasında olan milli geyimli 30 uşaq dayanmışdır.

İkinci sırada 8-11 yaşlı uşaqlardır - 30 nəfər, onların da əllərində yaşıllıq dalğalanır.

Üçüncü sıra 12-14 yaşlı uşaqlardır - 30 nəfər, milli geyimdə, əllərində yaşıl budaqlar.

Dördüncü sırada 15-16 yaşlı yeniyetmələrdir - 30 nəfər, milli geyimdə, əllərində yaşıl budaqlar.

Beşinci - sonuncu sırada milli geyimli oğlanlar və qızlardır, əllərdə xonçalar, səmənilər var.

Mizana uyğun olaraq münasib nöqtələrdə yerləşdirilən Milli qvardiyanın milli geyimli 30 nəfərlik dəstəsi, Dədə Qorqud və zurnaçılar qrupu rəsmi heyəti qarşılamağa hazırdır.

Rəsmi heyəti gətirən maşın karvanı dayanır. Dövlət başçısı mərasimə daxil olan anda şeypur səslənir, rəqs ifa olunur və musiqi səslənir. Bütün yaşıl çəmənlik - öncə göstərilən sıralamaya uyğun uşaq və yeniyetmələrin əlindəki yaşıl budaqlar dalğalanıb hərəkətə gəlir. İki gözəl geyimli, yaz təravətli uşaq ali qonağa və onu müşayiət edənlərə bayram xonçası və səməni təqdim edir.

I uşaq:

- Xalqımızın bayramına xoş gəlmisiniz, əziz Prezidentimiz!







II uşaq:

- Həyatınız səməni kimi təravətli, Novruz xonçası kimi zəngin olsun.

Dədə Qorqud:

- Elimizin, obamızın mübarək bayramına, xalqımızın, millətimizin möhtəşəm Novruz növrağına xoş gəldiniz! Ruzi, bərəkət nəfəsli Baharın yurdumuza qədəm qoyduğu bir gündə müstəqil Azərbaycan başdan-başa bayram libasına bürünüb, Bakının, Naxçıvanın, Qarabağın, Şirvanın, Milin, Muğanın qədimqayım torpaqlarında bahar suları çağlayır, yaz yelləri əsir, Novruz tonqalları alovlanır. Sizin sayalı qədəmləriniz, xalqa tükənməz sevginiz, hər qarış torpaqdan boy atıb ucalan əməlləriniz sayəsində anamız Azərbaycan cənnət bir məkana dönüb.

I aktyor:

- Yenə də yamyaşıl geyinir dağlar,
Göz kimi durulur qaynar bulaqlar,
Əriyir quzeylər döşündəki qar...
Yağış da isladır o göy çəməni,
Təbiət ilhama çağırır məni!

II aktyor:

- Görürəm dan yeri yenə sökülür,
Göydən yer üzünə nurlar tökülür,
Zəmilər, tarlalar üzümə gülür,
Saralır gözümdə sünbülün dəni,
Bu nemət ilhama çağırır məni!

Dədə Qorqud:

- Ey Vətən oğulları, baylar, bayanlar! Bu gün bizim bahar nəfəsli bəxtiyarlığımız yerə-göyə sığmır. Müstəqillik, inkişaf, intibah yolu ilə gedib dünyanın nüfuzlu dövlətləri sırasında layiqli yer tutan Azərbaycan mübarək Novruz sevincini Orta Şərq, türk xalqları ilə birgə yaşayır. Dədə-babalarımızın min illər boyu yandırıb qoruduğu ocaqlar Türkiyədə, İranda, Qazaxıstanda, Qırğızıs-





tanda, Özbəkistanda, Tacikistanda, İraqda, Əfqanıstanda, Türkmənistanda, Gürcüstanda, Rusiya Federasiyasının Dağıstan, Tatarıstan, Başqırdıstan ölkələrində, Altaylarda, Qafqazlarda nur saçır, hərarət paylayır. Belə bir möhtəşəm günə xoş gəldiniz, əzizlərim!

İgidlər xoru:
- Xoş gəldiniz! Xoş gəldiniz!

Dədə Qorqud:
- Xalqlar bayramı, gözəl Novruz, qədəmlərin mübarək!

İgidlər xoru:
- Qədəmlərin mübarək! Qədəmlərin mübarək!

Dədə Qorqud:
- Azadlıq nuru saçan Günəşinə salam olsun, Ulu Novruz!

İgidlər xoru:
- Salam olsun! Salam olsun!

Dədə Qorqud:
- Torpağımın bərəkəti aşıb-daşsın, Ulu Novruz!

İgidlər xoru:
- Aşıb daşsın! Aşıb daşsın!

Dədə Qorqud:
- Uca göyün aydın olsun, Ulu Novruz!

İgidlər xoru:
- Aydın olsun! Aydın olsun!

Dədə Qorqud:
- Duz-çörəkli, mərd ürəkli oğulların min yaşasın, Ulu Novruz!

İgidlər xoru:
- Min yaşasın! Min yaşasın!

Dədə Qorqud:
- Ocaqların gur qalansın, Ulu Novruz!

İgidlər xoru:
- Gur qalansın! Gur qalansın!

Dədə Qorqud:
- Övladlarım, indi gəlin
Od çərşənbəsindən adlayaq,
Su çərşənbəsindən keçək,
Torpaq çərşənbəsindən ötək,
Yel çərşənbəsinə qoşulaq,
Yetişək əziz Novruz Bayramına!





Bundan sonra heç bir söz işlədilmədən, izah olunmadan dekorasiyanın dili ilə anlaşılır ki, Qız Qalası meydanından Paraşüt Qülləsinə qədər olan ərazi Novruz Bayramının dörd təməl prinsipi əsasında qurulmuşdur. Bunlar:
Od çərşənbəsi
Su çərşənbəsi
Torpaq çərşənbəsi
Yel çərşənbəsi adlı şərti qapılardır. Paraşüt meydanı həm Hava çərşənbəsi qapısı, həm də Novruz Bayramının özüdür.

Rəsmi heyət Od çərşənbəsi qapısından keçib Qız Qalası meydanının aşağı hissəsinə düşür. Hərəkət boyunca qonaqları əllərində məşəl, Novruz xonçası, səməni, bayraq tutan adamlar müşayiət edirlər.

Aşağı meydançada - Od çərşənbəsini rəmzləşdirən məkanda ocaq qurulub. “Cəngi” ansamblı və zurnaçıların ifası səslənir. “Cəngi” ifaçıları qonaqların başına hərlənərək yallı oynayırlar. Dövlət başçısı onun üçün qurulmuş xitabət köşkünə qalxıb təbrik nitqi söyləyir. Nitqdən sonra ona məşəl təqdim olunur. O,



- Yurdun qalası oğullar...



məşəllə ölkənin böyük ocağını - Novruz Bayramı tonqalını alışdırır. Alov yüksəlir. Zurnaçılar dəstəsi "Yallı" ifa edir. Qonaqlar "Cəngi" rəqsi ilə yola salınır.

* * *

Rəsmi heyət tonqal qalanan və xitabət köşkü yerləşən meydandan çıxıb sağ meydançaya gəlir. Burada xoruz və yumurta döyüşü səhnələşdirilib. Milli paltarlı iki yeniyetmə mübahisə edir.

I oğlan:
- Tut vurum!

II oğlan:
- Yox, sən tut, mən vurum!

I oğlan:
- Sən cığalsan, çəp vuracaqsan!

II oğlan:
- Cığal özünsən, keçən il də başımı aldatdın, böyürdən vurub bir səbət yumurtanı zay elədin...

I oğlan:
- Onda belə eləyək, sənə bir sual verəcəyəm, əgər tapsan mən tutacam sən vuracaqsan, yox əgər tapmasan, sən tutacaqsan, mən vuracağam!

II oğlan:
- Ver sualını, al cavabını.

I oğlan:
- Tutalım bir gölün ortasında bir ağac bitib, o ağacın budağında bir xoruz oturub. O xoruz yumurtlasa, yumurtası hara düşər?



II oğlan:
- Necə hara düşər? Suya!

I oğlan:
- Ay qardaş, heç xoruz yumurtalayır?

Eşitdiniz bunun cavabını, utanmır, özü də biologiya fakültəsinin II kurs tələbəsidir.

Cənab Prezident, istəyirəm ölkəmizin ən bərk yumurtası ilə Siz döyüşəsiniz. Yəqin mənim bu dostumun da cəsarəti çatmaz ki, Sizə qarşı cığallıq eləsin.

Prezident birinci oğlandan yumurtanı qəbul edir və ikinci oğlanla döyüşdürür.

* * *

Rəsmi heyət Qız Qalası ətrafındakı sonuncu meydanla sağollaşıb Neftçilər prospektini keçərək Dənizkənarı bulvarda "Su çərşənbəsi" şərti qapısına yetişib daxil olurlar.

Buradakı meydanın mərkəzində aşıqlar halay qurublar. Sağ tərəf Kosa və Keçəlin məskənidir, sol əldəki sahə kuklalardan ibarət "Kilimarası" səhnəsinin ifaçılarına ayrılıb. Meydanın münasib yerlərində kəndirbazlar, daşqaldıranlar məharət göstərirlər.

İlk növbədə qonaqları Novruz Bayramının ən şux obrazları olan Kosa ilə Keçəl qarşılayır.

Müxtəlif yaşlı, milli geyimli, bayram əhval-ruhiyyəli adamlar Kosanı dövrəyə alıb bir ağızdan deyirlər:









A kosa-kosa gəlsənə,
Gəlib salam versənə,
Çömçəni doldursana,
Bizləri güldürsənə.

Tərifli sözləri eşidən Kosa başlayır özünü dartmağa. Dövrəsindəki adamlardan biri yumorlu tərzdə üz-gözünü oynada-oynada oxuyur:

Ay uyruğu-uyruğu,
Saqqalı it quyruğu.
Gör necə erkən gəlib,
Belində örkən gəlib.

Sonra o, geri çəkilir. Həmən adamlardan ayrı birisi irəli çıxıb məzəli-məzəli deyir:

Bu Kosa hardan gəlib? -
Qurtarıb dardan gəlib.
Yağ verin yağlansın,
Bal verin ballansın,
Çoxca bilib allansın.







Birdən Kosa durduğu yerdə səndirləyir, kimin üstünə tərəf gedirsə, o, bunu itələyib qarşı tərəfin üstünə salır. Axır ki, Kosa məqam tapıb yıxılır. Guya ölür. Üzünə bir dolça su atırlar, diksinib oyanır. Diz üstə dikəlib özünü toxtatmağa çalışır. Bu zaman dövrəsindəkilər onu sorğu-suala tuturlar:

- A Kosa gəldiyin hardan bəridir?
- Şərurdan.
- Nə gətirdin ordan?
- Alma.
- Almanı neylədin?
- Satdım.
- Pulunu neylədin?
- Pələng aldım.
- Pələngi neylədin?
- Təhvil verdim zooparka.

Belə deyib Kosa ağlamsınır. Adamlar gülüşüb, bir səslə deyirlər:

Bu dərd səni yandırır,
Bu dərd səni öldürür.
Düşmənləri üstünə
Güldürür, ay güldürür...

Bunu eşidən Kosa bir də yıxılıb bayılır. Yenə üzünə su atıb bir ağızdan oxuyurlar:

Başın sağ olsun, Kosa,
Canın sağ olsun, Kosa.
Arşın uzun, bez qısa,
Kəfənsiz ölməz Kosa.



Kosa ayağa qalxıb üz-gözünü əcaib hala sala-sala oynayır. Oyun boyu çömçəsini qabağa uzadıb pay istəyir:

Qurbanın olum yaşıl çuxalı,
Qonaq gəlirəm çillə çıxalı,
Nabat, noğul, badam ver gəlsin,
Yeyim dizlərimə kar gəlsin.

Adamlar Kosanın ətrafında dövrə vura-vura ona atmaca atırlar:

- A kosa-kosa, gəlmisən,
Lap vaxtında meydana sən.
Almayınca payını
Çəkilmə bir yana sən.

Kosa: - Getmərəm, ağa, getmərəm.

Yenə dövrəsindəkilər:

- Beş yumurta payındı
Əskiyini almayasan.
Xurcunu yaxşı doldur,
Əli boşda qalmayasan.



■ Novruzun halal çörəyi



Kosa: - Qalmaram, ağa, qalmaram.

Bundan sonra yenə də Kosa: "Kosanın payın verin, balın verin, yağın verin", - deyə-deyə çömçəsini irəli tutub əyləndirici tərzdə oynayır. Dövrəsindəkilər əl çala-çala növbəylə oxuyurlar:

Birinci adam:

- Mənim kosam oynayır,
Gör necə dingildəyir.
Ona qulaq asanın,
Qulağı cingildəyir.

İkinci adam:

- Mənim kosam canlıdı,
Qolları mərcanlıdı,
Qarnına əl vurmayın,
Kosam ikicanlıdı.

Üçüncü adam:

- Köhnə motal başında,
Qələm oynar qaşında.
Yüz əlli beş yaşında,
Gör nə cavandı kosam.

Yer-yerdən Kosaya pay verib xurcununu doldururlar. Yığdığı payların çoxluğunu görəndən sonra Kosanın kefi lap kökəlir. Başlayır çırtıq çalıb oynamağa. O, oynadıqca dövrəsindəkilər bir ağızdan deyirlər:

Kosam bir oyun eylər,
Quzunu qoyun eylər.
Yığar bayram düyüsün,
Payızda toyun eylər.

Kosa oynaya-oynaya oxuyur:

Azanı, ay azanı,
Doldur gətir qazanı.
Payını artıq verin,
Yola salın Kosanı.

Kosa qabaqda, arxasınca da dövrəsindəkilər oxuya-oxuya, oynaya-oynaya meydandan çıxırlar:

Ay kosa-kosa, kosa-kosa,
Saqqalı yoldurma gəl,
Xurcunu doldurma gəl,
Xonça-nabatın bizdə -
Novruz oldu, durma gəl...

Bu epizod yaxın ətrafda "Dirədöymə", "Bənövşə bəndə düşə", "Ən-



zəli" oynayan qrupların çıxışları ilə bütövləşir.

Meydan tamaşalarından nümunələr göstərilir.

"Kosa-kosa" tamaşası bitincə aşıqların çal-çağırı başlanır. Onlar proqrama uyğun havaları ifa edirlər...

El bilir ki, sən mənimsən,
Yurdum, yuvam, məskənimsən,
Anam doğma Vətənimsən,
Ayrılarmı könül candan?
Azərbaycan! Azərbaycan!










* * *

Qonaqlar "Torpaq çərşənbəsi" yazılmış rəmzi qapıdan daxil olurlar. Bu meydan quruluşuna görə Novruz Bayramı adət-ənənə və mərasimlərini təcəssüm etdirən xalq mədəniyyəti və məişəti üslubundadır. Ön hissədə muğam ifaçıları yer alıblar. Xalq tətbiqi sənət nümunələrini yaradan sənətkarların əl işləri, xalçalar, qablar, əmək alətləri, bəzək əşyaları, döymələr, ağac şəbəkələr nümayiş etdirilir. Sənətkarlar öz məharətlərini göstərirlər. Salyandan zurnaçılar dəstəsi ifa edir. Muğam musiqisi dalğalanır, xanəndələr oxuyurlar. Kəndirbazlar, pəhləvanlar, daş qaldıranlar, sehirbazlar, meyxanaçılar, folklor rəqs kollektivləri çalır, oynayır, əziz bayrama sənət töhfəsini verirlər. Rayonlardan gətirilmiş məhsullar; alma, armud, qoz, fındıq, bal, şəkərbura, paxlava, yumurta, xonçalar, səmənilər Azərbaycandakı bolluqdan, firavanlıqdan xəbər verir. Qonaqlar maraq göstərir, adamlardan əşyalar, məhsullar haqqında soruşurlar. Bazar - yarmarkaya baxış başa çatır. Sol tərəfdən Kukla Teatrının yeraltı keçid zonasında uşaqlar rəqs edir, mahnı oxuyur, kukla tamaşaları göstərirlər. Rəsmi heyət dördüncü rəmzi qapıya doğru addımlayırlar.



Bahar tərənələri

Novruz Azərbaycan xalq bayramı

* * *

Şərti qapının üzərində Novruz bayramına uyğun əlvan hərflərlə yazılıb: Yel çərşənbəsi. Hava - istirahət, yaradıcılıq rəmzidir.

Kukla Teatrından "Mirvari" restoranına qədər olan keçid rəssamlıq əsərlərindən ibarət sərgilər üçün ayrılmışdır. Rəsmi heyət rəngkarlıq nümunələri ilə tanış olurlar. "Natiq" ritm qrupu sərginin axırında yer alıb. Onlar ifa edirlər. Armresling, milli döyüş, gimnastika, akrobatika icra edilir. "Mirvari"nin qarşısında möhtəşəm kulinariya sərgisi açılmışdır. Aşpazlar bişirib - düşürür, adamlar təamların dadına baxırlar. Bu arada "Nəlbəki" rəqsi ifa edilir.

Qüllə ətrafında Novruz personajları, nəhəng fiqurlar hərəkət etdirilir. Molla Nəsrəddin eşşəyin belində gəzib dolaşır.

Biri Molla Nəsrəddindən soruşur:

- Molla, niyə yuxudan oyanan kimi adamların hərəsi bir tərəfə gedir?

- Ona görə ki, hamı bir tərəfə getsə yer aşar.

Başqa birisi soruşur:

- Molla, dünyanın ortası haradı?

- Hara olacaq, mənim dayandığım yer.

- İnanmıram.

- İnanmırsan get ölç.

Bir yanda Əsgər ("Arşın mal alan") mal satır, ətrafında qızlar halay vurub oynayırlar.

Qoçu Əsgər belində tapança keçisi ilə gəzişir.





■ Azərbaycan Respublikasının Prezidenti və onun xanımı Novruz mərasimində

Başında basma papaq olan Cırtdan Qara divlə vuruşur.

Ələddin əlində sehrli çıraq aparır.

Göyçək Fatma qızıl inəyin yanında dayanıb...

Nağaraçılar qrupu ritmik mahnı ifa edirlər.

Dövlət Rəqs Ansamblının 4 parlaq ulduzu qonaqları rəqs və mahnı ilə qarşılayır. Muzey Mərkəzinə tərəf uzanan yolun hər iki tərəfi yaşıl çəməni xatırladır. Pilləkən üzərində Xor kapellası və hərbi orkestr ifa edir. Qonaqlar yola salınır. Onların ardınca bir dolça şəffaf su atılır. Göyərçinlər, şarlar, fişənglər havaya qalxır.

Elin Novruz şənliyi axşamdan keçənə qədər davam edir.

■ Yenə gəldi yaz ayları,
Qızlar qırmızı geyindi...





■ Ötən ilin narını gələn
Novruza saxlamaq
da adətdir...







■ Novruz xonçası





## TƏZƏ GÜN - TƏZƏ QAN

Baharın, əziz-xələf Novruz bayramının özü kimi qədim əfsanəyə görə Adəm babamızla Həvva nənəmiz buğda yeyib cənnətdən çıxana qədər insanın qəlbi və düşüncəsi bütün naqisliklərdən uzaq, şüşə kimi, mavi göylərin müqəddəs üzü qədər tərtəmiz idi. Onda nə saat vardı, nə vaxt... İl, ay, gün sərhədi yox idi. Dünya bir yaşıl nəğməydi. Ağaclar, güllər-çiçəklər əbədi yaşıl, əbədi canlı idilər. Günəş səhərlər üfüqdən baş qaldırıb çıxmırdı, çünki o heç batmırdı. Yer üzündə yeriyənlər, binə tutanlar istədiyi vaxtda göyün yeddi qatına pənah apara bilirdi. Aşağı-yuxarı, dərin-dayaz sərhədləri itmişdi...

Yenə o qədim və ibrətli əfsanəyə görə ilk babamızın və ilk nənəmizin buğda yemək kimi təbii arzusu günah sayılmasaydı, indi yəqin ki, hamımız cənnətin sakinləriydik və nə pul, nə də bazar-dükan dərdi çəkirdik.

Bəlkə də, Adəmlə Həvvanın müqəddəs mələklər kimi tərtəmiz yaşadıqları, günahsız ömür sürdükləri o ilahi zamansızlığın, məkansızlığın şərəfinə ümumbəşər abidəsidir Novruz? Ayrı nə ola bilər ki?.. Bəxtimizə düşən aylar, günlər sırasında elə bir vaxt kəsiyi var ki, həmin anda insanın milyonillik yaddaşı yeni başdan geri qayıdır. Sanki bəşəriyyət yadına salır ki, o nə vaxtsa günahsız olub,







nəğmə kimi, saf su kimi, körpə quş kimi, yaşıl söyüd budağı kimi...

Və möcüzənin ən görümlü cəhəti burasındadır ki, insan özünü o təzə gündə, düzün-dünyanın təzələndiyi vaxt kəsiyində cənnətdən, mələk ömründən ayrıldığı ilk, bəlkə də, son gündəki kimi təmizləməyə çalışır. Gecənin qara bağrında alovu ərşə dayanan tonqal çatmaq gecə-gündüz sərhədini əridib o müqəddəs günü xatırlamaq üçün deyilmi? Bəs buna nə deyəsən ki, insan məhz Novruz günündə müqəddəs və əbədi nə varsa ona üz tutur; sübh tezdən çeşmə başında yaşıla çalan, çağlayan bahar sularına, yuvamızın yaşıl çadırı göy üzünə, yaşıl-yaşıl ümidlərə, yaşıl-yaşıl yamaclar sinəsindən boylanan türbələrə... əbədi olanlara üz tutur!

Elə ki, zamanın, məkanın yaşıl ömrü gəlib yetişdi, boz ay kürəyini yerə verib gözəl baharın üzəngisini basdı, öncə gərək öz qəlbini kirdən-pasdan, xıltdan-xımırdan təmizləyəsən. Novruz gecəsi qəlbin kimi həyət-bacanı da gülə-gümüşə döndər ki, əziz günün təravətini bir az da artırasan. Ulu babalarımız, ulu nənələrimiz Novruz günü könülə dəyən söz iş-

lətməyi, yalan danışmağı, kobudluğu yasaq eləyiblər. O gecə, müqəddəs Novruz axşamı qonşu gərək qonşusunu iki inəkli istəyə, səhərin gözü açılandan gecənin aydınlığınacan dilinə bəd söz gətirməyə, can deyə, can eşidə...

Novruz axşamı, ondan irəliki çərşənbələrdə ürəkdə tutulan niyyət yerinə yetər. Tonqallar üstündən atılan adamların dərd-səri, ağrı-acısı qovurğa kimi qovrulur, yaz suları azar-bezarı axıdır. Novruz günü ən görümlü, ən biçimli paltarları geyinməlidir oğul-uşaq, qız-gəlin...

O gün al-əlvanlığına, nənə xalçası kimi min rəngli olmağına baxmayaraq, hər insan taleyi bir yaşıl nəğməyə bənzəyər. Dibçək, boşqab içində boylanan yaşıl səməni baharın heykəlidi sanki. Yer üzü, adamlar o qədər təmizlənər, o qədər müqəddəsləşər ki, yaz arzulu söyüd, iydə, nar ağacları sonsuz ehtiram və məhəbbətlə tumurcuqlu budaqlarını əyər, bərəkətli torpağa alın qoyarlar!



Ana yurdumuzun hər qarışını qızıl suyuna çək, nura bələ, evimizə-eşiyimizə, qəlbimizə istilik ver, od çərşənbəsi!

Həyatımıza duruluq gətir, könlümüzü saflığa cala, bağçalara, bağlara xeyir-bərəkət gətir, su çərşənbəsi!

Göy üzünə genişlik, ruhumuza qanad ver, bərəkət zəmilərini beşik kimi yırğala, hava çərşənbəsi!

Ümidimiz, özülümüz, əcdadımızın müqəddəs izlərini yaşadan torpaq çərşənbəsi, bərəkətini yurdumuzdan əsirgəmə!



## TONQAL QALAMA

Od çərşənbəsinin əsas rəmzlərindən sayılan tonqal yandırılması Novruz adətləri içərisində xüsusi yer tutur. Qeyd olunduğu kimi od yaranışın mənbəyində duran dörd ünsürdən biridir. Təbiətin oyanışı hərarətin yüksəlməsi ilə sıx bağlıdır. Adamlar tonqal yandırmaqla soyuqların, çovğunlu, qarlı havanın tez ötüb keçməsini, əkinbiçin üçün əlverişli hava şəraitinin bərqərar olmasını arzulamışlar.

Ümumiyyətlə, od Azərbaycanda müqəddəs sayılır. Tarixin izləri göstərir ki, bu ərazidə insanlar ən qədim çağlardan od əldə etmişlər. Dünyanın ən qədim məskənlərindən olan Azıxda, Qobustanda aparılan arxeoloji qazıntılar zamanı









çox sayda ocaq yerləri, oddan istifadə olunduğunu göstərən dəlillər aşkar edilmişdir. Atəşpərəstlik dininin yaranması da məhz Azərbaycan ərazisi ilə bağlıdır. Adamlar inanırlar ki, od üstündən tullanaraq "ağırlığım, uğurluğum bu ocaqda yansın" deməklə ən ağır xəstəliklərdən xilas olmaq mümkündür. Azərbaycan sözünün izahlarından biri də odlar yurdu anlamındadır. Söylənilir ki, ən qədim zamanlarda qohum tayfalar bir-biri ilə od dilində danışarmışlar. Məsələn, belə: əgər ön hissədə yerləşən bir elat düşmən hücumundan duyuq düşərsə, ən hündür bir nöqtədə ocaq qalayar və qonşu ellərə gözlənilən fəlakət barədə xəbər çatdırarmış. Qalanan tonqalların sayı da müəyyən məna daşıyarmış. Maraqlıdır ki, Azərbaycan torpaqlarının alt qatları neft, qaz kimi yanacaq məhsulları ilə zəngindir. Novruz bayramı rituallarında şam yandırmaq da od inancı ilə bağlıdır.

## SƏMƏNİ GÖYƏRTMƏK

Bu da əsas Novruz adətlərindəndir. İlk çərşənbədən başlayaraq səməni göyərtmək ta Novruzdan bir neçə vaxt ötənə qədər davam edir. Səməni göyərtmək adəti azərbaycanlıların bərəkət arzusunun ifadəsidir. Səməni göyərtmək üçün nə dayaz, nə də dərin boşqab götürülür, bu qabın həcmi istəkdən asılı olur. Hələ ilk çərşənbəyə on-on beş gün qalmış seçmə buğdadan, digər dənli bitkilərdən götürülüb hamar şəkildə boşqabın səthinə yayır, üzərinə tənzif çəkir, təmiz çiy su çiləyirlər. Ev şəraitində havalı yerdə saxlanan dən cücərir, sonra isə sürətlə boy atıb əsl yaz tarlasının rəmzinə çevrilir. Çərşənbəyə bir-iki gün qalmış demək olar ki, hər evin bir və ya bir neçə







səmənisi olur. Əgər evdə hazırlamaq imkanı yoxdursa, səməni çələngini dükan-bazardan da almaq olar. Səməni Novruz Bayramının və həmin günlərdə mənzillərin, süfrələrin yaraşığıdır. O, insanların qəlbində ən fərəhli hislər oyadır. Novruz Bayramı ensiklopediyasında deyilir: “Yunan filosofu, yazıçı və tarixçi Plutarx (bizim eranın təxminən 46-127-ci illəri) göstərmişdir ki, Qədim Azərbaycanda (Midiyada) taxılı müqəddəs bitki saymaq adəti geniş yayılmışdır. Bu adət hər dəfə ilin başlanğıcında (yazda) icra edilərdi”. Səməninin ortasını qırmızı lentlə qurşamaq, onun ətrafına şam düzüb yandırmaq və:

Səməni saxla məni,
İldə göyərdərəm səni - deyə

nəğmələr oxumaq da adətdir.



Bir ovuc su,
Bir ovuc buğda
dərindən
dil tapıblar
dayaz
boşqab içində,
Gərək olmayıb onlara
torpaq adlı
tərcüməçi də...
Gülür yaşıl-yaşıl
yamyaş səməni.
Yamyaşıl boşqab içində
Yer üzünün yamyaşıl
çəmənidi səməni.

Səməni -
yaşıl plov qalağı,
yaşılbaş sona,
meşələrin yaşıl bulağı!
Səməni -
Yaz yaşında yaşıl dağ,
Yamyaşıl od dilimi,
Səməni - ocaq,
Yaradanın yaz salamı,
ruzi verən əlidi,
baharın heykəlidi,
zəminin heykəlidi
səməni!

## NOVRUZ NƏĞMƏLƏRİ

Novruz genişmiqyaslı el bayramı olduğuna görə saysız-hesabsız folklor nümunələrini, ağız ədəbiyyatı örnəklərini ehtiva edir. Novruz Bayramından bəhs edən ədəbiyyatda bu örnəklər əkin nəğmələri, sayaçı nəğmələri, xıdır nəbi nəğmələri, sağın, nehrə, cəhrə, hana, balıqçı nəğmələri adlandırılır. Həmin nəğmələrdən seçmələrdə lakonizm, axıcılıq, arzu və istəklərin səmimiliyi, ilkinliyi nəzəri cəlb edir. Örnəklərin toplanması professor, dr. Azad Nəbiyevə aiddir.















## SAYAÇI NƏĞMƏSİ

Salaməleyk, say bəylər,
bir-birindən yey bəylər,
Sayamı gətirmişəm,
Sayını itirmişəm.
Quzusu sayalı bəylər,
Gül üzü hayalı bəylər
Qurumasın gölünüz,
Üzə gülsün dölünüz.
Kəsilməsin soyunuz,
Gödəlməsin boyunuz.
Sayanız üstə gəlsin,
Üstündə püstə gəlsin.
Hay verin sayaçıya,
Pay verin sayaçıya.
Qapınız haylı olsun,
Sayanız saylı olsun.





## ƏKİNÇİ NƏĞMƏSİ

Kotanım daşdan gələr
Dönər o başdan gələr
Hodaqçının süfrəsi
Genə obaşdan gələr
ho, ho, ho,
ho, ho, ho!

Ağam öküz mərd olar,
Pis qonşuya dərd olar,
Tənbəl öküz yiyəsi
Paxıl olar, sərt olar
ho, ho, ho,
ho, ho, ho!

Boyun yerin yağlaram,
Pis gözləri dağlaram
Kotanımı sındırsan
Sübh üstəcən ağlaram
ho, ho, ho,
ho, ho, ho!





## XIDIR NƏĞMƏSİ

Xıdırım şuma düşüb,
Gümanım şama düşüb,
Şum yerini şumlayaq,
Tum gətirib tumlayaq.
Xıdırım addıdı,
Xıdırım oddudu
Ağ atı haylayaraq,
Günləri saylayaraq
Xan xıdır gələsidi
Halımı biləsidi...



## SAĞIN NƏĞMƏSİ

Nənəm, nənəm
Səni sağan
Mənəm, mənəm
Quyruğuvu
Farağat qoy,
Ayağıvı
İrahat qoy.
Nənəm, nənəm,
Səni sağan
Mənəm, mənəm
Dutum, dutum,
Anam dutum,
Sübh südündən
Pendir tutum.
Küpələrim
Dolsun yağla
Balalarımızı bu yaz saxla
Nənəm, nənəm
Səni sağan
Mənəm, mənəm!





Nehrə

## NEHRƏ NƏĞMƏSİ

Novruz gəldi, nəhrəm gəl,
Nəhrəm, gəl, nəhrəm, gəl.
Cincilimim, yarpızım
Taxta üstə hazırdı.
Samavarım qaynadı,
Təndirlərim qızardı,
Nəhrəm gəl, nəhrəm gəl.

Ərim məndən küsübdü,
Nəhrəm, gəl.
Qapını qonaq kəsibdi
Nəhrəm gəl.
Əlimi bıçaq kəsibdi,
Nəhrəm gəl, nəhrəm gəl.







## CƏHRƏ NƏĞMƏSİ

Taran, yunum, taran, yunum,
Daran, yunum, daran, yunum.
Taran, taran,
Daran, daran.

Daran taraz gəl cəhrəyə,
Taran dayaz gəl cəhrəyə,
Az-az gəl cəhrəyə,
Naz-naz gəl cəhrəyə...
Taran, yunum, taran, yunum,
Daran, yunum, daran, yunum.

Novruz nəğmələrinin mətnində ibtidailik görünməkdədir. Demək lazımdır ki, bu nəğmələrin sözlərinə uyğun musiqinin ifaçıları xalq olmuşdur: bunlar – əkinçilər, çobanlar, naxırçılar, sağınçılar, nənələr, analar, gənc qızlar, bir sözlə, bütün el-elatdır. İlk baxışda sadə görünən bu nəğmələrin misralarında və havacatında min illərin həyat tərzinin, tarixi dönəmlərin izləri vardır.



Cəhrə









## DÜNYANI YAZ YAŞADIR

Bu yaz bir başqa yazdır! Nakam Müşfiqdən min dəfə təkrarlanan bu beş kəlmənin məna tutumu nədənsə hər dəfə başqa biçimdə, başqa çalarda görünür, duyulur. Çünki bu misra yaz havası üstündə deyilib, baharın özünə bənzəyir. Təkrarlardan bezən, cana yığılan, baş götürüb qaçan insan əbədi yaz bənzəyişinə hər dəfə yeni bir hikmət kimi can atır. Hər doğulan körpə özündən əvvəl dünyaya göz açan körpələrin heç biri olmadığı kimi, hər gələn bahar da irəliki yazın təkrarı deyil. Bahar - Novruz cazibəsinin sadə sirri, bax elə bundadır!..

Milyon il əvvəl kahadan çıxan, bir qarın qənimət üçün canını kola-kosa toxuyan qədim insan kimi milyon il bundan sonra yaşayacaq ağıllı adam da bir udum havaya, bir tikə çörəyə, bir içim suya görə bahara minnətdar olacaq. Dünya bahar yaşındadır. Nə az, nə çox. Bu fəslin böyük qüdrətini, yəqin ki, hər birimizdən daha çox ilk dəfə Aya qədəm basan insan hiss edib. Əgər daşında, kəsəyində, zaman ovuntusu kimi dizə çıxan tozu da yaz havası, yaz hərarəti duyulsaydı, Ay torpağı gül bitirərdi.



Yazın bircə peşəsi var: diriltmək! Qaya dibində bulağı, buludda yağışı, budaqda yarpağı, qönçədə gülü, insanda sevgini diriltmək!.. Bahar illərdən-illərə ən etibarlı keçiddir, körpüdür. Bir qocadan soruşdular: kişi, yaşın neçədir? Cavab verdi: bu yaza çıxsam, inşallah, yüz olacaq...

Milyon-milyon illərdir ki, insanı yaz yaşadır. Yetirir, bitirir. Çünki qaynar gün işığı da, bol-bol bərəkət suları da, göyərtmək istedadı da yalnız ona məxsusdur. Baharın xeyirxahlığını bizə qanımızın yaddaşı pıçıldayır. Bahar xeyir-bərəkət fəslidir. Ədalət fəslidir. Budur, gecə ilə gündüzün bərabərliyi! Fələyin tərəzisi Novruz deyilən gün taraz gəlir. O gecə ağacların sinəsi buğlanan torpağa baş qoyması, bəlkə, bu səbəbdəndir? Aləm dünyanın düzlüyünə təzim edir, yoxsa? O günün şərəfinə qurbanlar kəsilir. Baharın bərəkətli əli tərəzinin bir gözünə daim sevinc atır ki, qəm yığılan gözü ağır gəlməsin.

Bahar birlik rəmzidir - suyun, günəşin, havanın, torpağın, toxumun, zəhmətin birliyinin. Birliyi olmayan xalqın baharı yollarda yubanar.

Novruz təkcə fəsil bayramı, il, zaman dəyişməsi deyil. Novruz milli mədəniyyətimizin, mənəvi dünyamızın ən zəngin səhifəsi, təbiət və cəmiyyət haqqında dünyagörüşün dolğun ifadəsidir. Novruz nadir mənəviyyat, mədəniyyət və adət-ənənə abidəsidir. Elə bir abidə ki, mayası xeyirxahlıqdan yoğrulub.

Bəlkə də, dünyanın ən nikbin, ən canlı və dolğun tablosu buğlanan torpaqdır. Novruz nəfəsi dəydikcə adama elə gəlir ki, Yerin canındakı soyuqluq gedərgəlməzə çəkilir. Göylər torpağa, torpaq göylərə can atır. Rənginin qonurluğuna, qaralığına, bozluğuna baxmayaraq, torpaq yalnız və yalnız ağ vərəqi yada salır. Bu ağ vərəqə qəlbimizin odunu səpməliyik, təpərimizi, dizimizin gücünü, gözümüzün işığını, arzu və niyyətimizi sehrli toxumlar kimi nəfəs alan bərəkət şırımlarına düzməliyik. Alnımızın tərini verib ulu təbiətə anlatmalıyıq ki, o bizi yaşadıb, yaşadır, yaşadacaq. Hər Novruz yenidən yada salmalıyıq bunu... Ana tarla çağıranda bir gün nədir, bir an belə gecikmək fəlakətə bərabərdir. Torpaqla kəndlinin görüşü baharla dünyanın görüşü qədər qanunauyğundur. Biri insanlığın vərdişidir, biri təbiətin. Bu, təkcə vərdiş deyil, gözəgörünməz ilahi qələmlərlə imzalanmış əhddir, anddır! Bizi yaşadan bu anddır!

Yaz dirilik fəsli olduğuna görə Novruz da dirilik bayramıdır. Bax bu əziz gündə insan günəşin, suyun, torpağın, havanın qiymətini daha dərindən bilir. Novruzu sevmək Vətəni sevmək deməkdir. Novruza vurğunluq Vətənə vurğunluqdur. Çünki gözümüzü açandan Novruzu ürəyimiz istəyən kimi qarşılamışıq. Bu əziz bayramdan heç vədə ayrı olmamışıq. Çünki bahar havası, yaz hərarəti, Novruz sevdası torpağın canındadır. Novruz Azərbaycanın ürəyidir, döyünən nəbzidir.

## NOVRUZ GEYİMLƏRİ



Novruz Bayramı üçün məxsusi biçilib tikilmiş paltarlardan danışmağın yeri yoxdu. Əslində, Azərbaycan xalqı istər xanımlar, istər kişilər məhz bu bayramda ən gözəl, ən yaraşıqlı və əlbəttə ki, təptəzə paltarları geyinib el arasına çıxmaq, qonaq getmək ənənəsini min illərdir davam etdirirlər. Bununla belə kütləvi geyimlər öz yerində, Novruz mərasimlərinin, oyun və tamaşalarının iştirakçıları, icraçıları isə adətən milli geyimlərdə olurlar.







Novruz geyimlərində parlaq rənglərə üstünlük verilir. Paltarların üzərindəki güllər, butalar, zərziba gün işığında alışıb yanır. Rəqs edən qızların incə belində qızıldan, gümüşdən kəmərlər olur. Bahar nəfəsli qızların uzun saçları nəzəri çox cəlb edir. Hörüklər gül-çiçəklə bəzədilir. Əllərə, ayaqlara xına çəkilir. Başa örtülən qırmızı, mavi, yaşıl, ağ rəngli, qırağı naxışlı tül örpəklər dalğalandıqca gözəl-göyçək qızlar mələklərə bənzəyirlər. Bayram mərasimlərində xanımlar ayaqlarına dəvə, qoyun yunundan toxunmuş isti, naxışlı uzunboğaz corab və ucu yuxarı qövslənən əlvan bəzənmiş məs (yüngül ayaqqabı) geyinirlər. Valideynlər bayram günü uşaqların geyim-kecimino xüsusi fikir verirlər. Adətən, həmən gün körpələrin alt paltarından tutmuş ayaqqabısına, donuna, pencək-şalvarına, köynəyinə qədər təzə olur.





## BAYRAM TƏMİZKARLIĞI

İstər çərşənbələrdə, istərsə də Novruz Bayramı axşamında, demək olar ki, bütün xalq, eləcə də qədim yaddaşı özü ilə dünyanın beş qitəsində hifz edib saxlayan azərbaycanlılar insan gigiyenası ilə bağlı bütün prosedurları yerinə yetirirlər; saçlar təmizlənir, daranır, üzlər təraş olunur, dırnaqlar tutulur, dişlər fırçalanır, hamama gedilir, duş, vanna qəbul edilir... Bayrama qədər həyət-baca, çal-çəpər qaydaya salınır, zir-zibil, artıq əşyalar çərşənbə tonqallarında yandırılır. Həmin gün artıq bir çöp də gözdən yayınıb yerə düşə bilməz. Ev heyvanları; qaz, ördək, toyuq,





hind quşu, it, pişik, at, eşşək, qoyun, inək, camış, dəvə yerləri, tövlələr, qəhəllər süpürülür, kürünüb təmizlənir.

Novruz Bayramına qədər bağ-bağatın budanıb təmizlənməsi, qurumuş ağacların yerinə yüz minlərlə yeni ağacın basdırılması xalqın torpağa, təbiətə bağlılığının, vətəni gözəlləşdirmək istəyinin timsalıdır.

Xalqımızın belə bir misalı var: "Əvvəl evin içi, sonra çölü" Azərbaycanda bu misala Novruz Bayramı günlərində ciddi əməl edilir. İrəlidə dediyimiz kimi, çöldə aparılan təmizlik işləri evin içində də özünü göstərir. Evdə nə qədər xalça, palaz, fərməş, vərni, örtük, pərdə, yorğan, döşək, yastıq varsa, sürahilərdə, eyvan və artırmalarda sərilərək gün işığına çıxarılır. Xalça-palazı, yorğan-döşəyi alça, göyrüş çubuqları ilə yaxşıca çırpıb tozunu alırlar. Əksər işgüzar qadınlar, hətta yorğan-döşəyi sökür, yununu yenidən didib çırpır, yuyur, qurudur və yataq dəstlərini yenidən sırıyırlar. Onların üzlüyü yenisi ilə əvəz edilir. Evdə nə qədər qab-qaşıq, var onlar da təzədən yuyulub sürtülür, silinib təmizlənir.

## NOVRUZ ÇİÇƏK VƏ GÜLLƏRİ

Novruz Bayramı günlərində güldanlara gül-çiçək qoymaq da dəbdir. Azərbaycan elə yerdir ki, burada ilin bütün fəsillərində meyvə, tərəvəz, gül-çiçək tükənmir. Amma yazın ilk açan çiçəkləri də var. Bunlar qar altından baş qaldıran novruz-gülü və dağ yamaclarında üzü mart ayına tərəf bənövşəyi kəpənəklər kimi görsə-nən bənövşə gülüdür. Ağ, qırmızı, sarı rəngli qızılgüllərlə bərabər, adı bilinən və bilinməyən çöl çiçəkləri də bayram ov-qatlı mənzillərə yaz təravəti, xəfif ətir bəxş edir.









Bu bahar hamını salıbdı qana –
Kasıblar dik gedir, varlılar uçur.

Güllü xalçaları dartıb eyvana
Köynəyi qırçınlı qarılar uçur.

Üstündə gül-çiçək çatıb milyona
Bu yükə tablamır, arılar uçur.

Balaca bir ürək sığışmır cana,
Meydanı genəlib, yeri var, uçur.

Mən də kəlmələrdən qurmuşam hana
Xalçamın gülünə arılar uçur...



## BAYRAM XONÇASI

Novruz xonçası bəzəmək hər kəsin zövqünə və imkanına bağlıdır. İstisnasız olaraq bütün mənzillərdə xonça bəzədilir. Həm də bu xonça dörd çərşənbənin hamısında və şübhəsiz ki, bayram axşamı süfrədə yer alır. Bayram günlərində iş yerlərində də bəzənmiş Novruz xonçaları görmək adi haldır. Novruz xonçası dükan-bazarı, vitrinləri bəzəyir.

Oğlan evi ən gözəl xonçaları nişanlı qız evinə hədiyyə aparır. Belə xonçalara müəyyən yeməli nemətlərlə yanaşı bahalı zinət əşyaları da qoyulur. İmkansız ailələrə xonça tutub göndərmək xalqın mərhəmət hissinin ifadəsidir. Etiqadlara dərin hörmətlə yanaşan dünya xalqları sırasında azərbaycanlılar da əziz insanların ruhunun heç zaman ölmədiyinə inam









bəsləyirlər. Görünür elə bu səbəbdən də Novruz Bayramı günlərində insanlar xonça bəzəyib qəbir üstünə gedir, bayram xonçasını, gül-çiçəkləri məzar üstünə düzərək dualar verir, rəhmət oxuyurlar. Dedik ki, Novruz xonçası hər kəsin zövqünə və imkanına uyğun olur, bununla belə orada zəruri nemətlərin olması vacibdir. Məsələn, xonçaya, adətən, ortası qırmızı lentlə qurşanmış səməni qoyulur. Qıraqlara rəngbərəng şamlar düzülür (ailədəki adamların sayına uyğun). Xonçaya qırmızı, yaşıl, alabəzək boyanmış yumurta, qoz, fındıq, qovurğa, qaynadılıb qovrulmuş noxud, paxlava, quru yemişlər, noğul, nabat, konfetlər, alma, armud və digər meyvələr, meyvə qurusu düzülür. Xonçadan nəsə götürüb yemək olar, amma bayram münasibəti ilə bol bazarlıq eləyən adamlar eyni çərəz və meyvələri ayrı qablarda da qoyurlar ki, ev adamı, qonaqlar istəyəndə nuş etsinlər, imkan daxilində əsas xonça Novruz Bayramı gününə qədər əl dəyilməmiş qalsın, yaraşıqlı görünsün.



## NOVRUZ TƏRANƏLƏRİ

Novruz Bayramında çalıb oxumaq qədim bir adətdir. Keçmiş zamanlarda bu cür çal-çağır evlərdə, məhlədə, qohumların, qonşuların yığışdığı məclislərdə qurulardı. İndi bu adət ictimailəşmişdir. Bayram günlərində Azərbaycanın saysız-hesabsız mədəniyyət ocaqlarında, parklarda, saraylarda, ali və orta ümumtəhsil məktəblərində, iş yerlərində, restoran və kafelərdə şənliklər günlərlə davam edir və əsasən peşəkar, eləcə də həvəskar musiqiçilərin, artistlərin ifasında mahnılar səslənir, Novruza bağlı səhnəciklər, tamaşalar ifa olunur.

Məclislərin ən çox xoşladığı saz və muğam musiqisidir. Bakı kəndlərində meyxana demək adəti də var və bu günə qədər yaşamaqdadır.













## YAZ BAYRAMI - SAZ BAYRAMI

Aşıq-ozan sənəti ən qədim folklor örnəklərindən olmaqla Azərbaycan xalqının mənəvi-mədəni inkişafında mühüm yer tutur. İndi Novruz şənliklərini saz çalğısı, aşıq musiqisi olmadan təsəvvür etmək mümkün deyil. Azərbaycanın ustad aşıqlarından olan Sarı Aşıq, Aşıq Abbas Tufarqanlı, Dirili Qurbani, Xəstə Qasım, Şəmkirli Aşıq Hüseyn, Aşıq Musa, Aşıq Ələsgər, Aşıq Alı, Aşıq Şəmşir, Bozalqanlı Aşıq Hüseyn, Aşıq Mirzə Bilal, Aşıq







Şakir, Aşıq Pənah və başqaları Novruz Bayramı müqəddəsliyini, ümumiyyətlə, yazın gəlişini, təbiətin oyanmasını, həyatın gözəlləşməsini, bolluq və xoş güzəranı tərənnüm edən gözəl, ifadəli şeir nümunələri yaratmışlar. Hazırda Azərbaycanda Qərbi Azərbaycan, Kəlbəcər, Şirvan, Muğan regionlarında formalaşmış aşıq məktəbləri mövcuddur. Azərbaycanda Aşıqlar Birliyi fəaliyyət göstərir. Aşıq sənəti Azərbaycan xalqının yaradıcılıq sahəsi olaraq UNESCO-nun dünyanın qeyri-maddi mədəni irs siyahısına daxil edilmişdir. Novruz Bayramı günlərində aşıqlar qədim sazı sinələrinə basıb el-el dolaşır, yurd, vətən, yaz, Novruz, sevgi haqqında nəğmələr qoşurlar. Aşıqları xalq hər yerdə böyük məhəbbət və sevgi ilə qarşılayır, onlara bayram sovqatı bağışlayırlar.









## MUĞAM SOVQATI

Novruz Bayramında xalq mahnısı və muğam ifası da adətlərdən biridir. Muğam unikal bir sənətdir. Onu, adətən, tar, kamança və qavalın (bəzən balaban və nağara da heyətə daxil olur) müşayiəti ilə xanəndələr ifa edirlər. Azərbaycan muğamı mürəkkəb konstruksiyaya malikdir. Bu öməklər qəzəl janrlı sözlərdən, rəngdən (ritmik havacat) və muğam hissəsindən ibarət klassik musiqi əsərləridir. Muğam oxumaq üçün xanəndənin yüksək tembrə malik güclü səsi olmalıdır. Azərbaycanda əsasən "Segah", "Rast", "Çahargah", "Hümayun", "Digah", "Şüştər", "Şur", "Bəstənigar", "Şahnaz" və sair muğamlar daha çox oxunur. Muğam sənəti də Azərbaycanın milli mədəni sərvəti olaraq UNESCO-nun dünyanın qeyri-maddi mədəni irsi siyahısına daxil edilmişdir.













## MEYXANA

Novruz Bayramında xalq yaradıcılığının bir sahəsi kimi xüsusən Abşeronda meyxana deyilməsi də adətdir. Meyxananı musiqi alətləri müşayiət etmir. Meyxanaçı əruz vezninin mövcud qəliblərinə əməl edərək bədahətən şeir parçaları söyləyir. Bu şeir parçaları deyildiyi anda yaradılır. Burada güclü yumor, gözlənilməz deyim tərzi, obrazlı təfəkkür estetik nəticənin əsasında dayanır. Novruz axşamları məhəllədə, həyətlərdə meyxana məclisləri təşkil olunur.







## TAMAŞA VƏ OYUNLAR

Görkəmli folklorşünas Azad Nəbiyevin topladığı, Novruz adət-ənənə və mərasimləri ilə bağlı materiallarda Novruz tamaşa və oyunlarının süjetləri yer almışdır. Onlardan ən qədim zamanlardan bu günümüzə qədər geniş yayılanları cıdır, zorxana, qılıncoynatma, kəməndatma, daşqaldırma, gözübağlıca, kəndirbaz, buğadöyüşdürmə, qoçdöyüşdürmə, kosa-kosa tamaşalarıdır. Çövkən, motal-motal, aşıq-aşıq, dirədöymə, bənövşə-bəndə düşə, toqqa-toqqa, çilingağac, ənzəli kimi yeniyetmələrin və uşaqların sevdiyi oyunlar, əslində, fəsillərə uyğun olaraq il boyu icra edilir. Novruz Bayramlarında, çərşənbə axşamlarında bu tamaşa və oyunlar, demək olar ki, kütləviləşir və bütün ölkəni əhatə eləyir.















## CIDIR

Novruz tamaşası sırasında yer alan Cıdır adından göründüyü kimi at yarışmasıdır. Bu tamaşaya ən igid, cəsarətli cavanlar ən itiqaçan, dözümlü atlarla qoşulurlar. Azərbaycanın tarixi şəhərlərindən olan Şuşada dağların zirvəsində məşhur Cıdır meydanı mövcuddur. Cıdır meydançaları digər regionlarda da var.

Cavanlar Cıdıra çıxanda tamaşaya bütün el-elat toplaşır. Təmiz qanlı Qarabağ və Dilboz atları görkəmi, cəldliyi və dözümü ilə baxanları valeh edir. Ümumiyyətlə, at Azərbaycan xalqının həyat və məişətində özəl bir mövqeyə malikdir. Məşhur "Kitabi-Dədə Qorqud", "Koroğlu", "Qaçaq Nəbi" dastanlarında,







nağıllarda at obrazı mühüm yer tutur. At murad sayılır.

Cıdır yanşmalarında fərqlənən, qalib gələn igidlərə sovqat verilir, atın belinə bahalı çul salırlar.

Professor Azad Nəbiyev Cıdır mərasimini araşdıraraq yazır: "Novruz günlərində keçirilən Cıdıra hazırlıq kiçik çillədən başlanardı. Deyərdilər ki, kiçik çillənin ilk günü sübhdən suvarılan at Cıdırda dala qalmazmış.

Cıdırqabağı atlar qaşovlanar, təmizlənər, nallanar və bəzədilərdi. Cıdır atları üçün xüsusi zınqırovları olan yüyənlər düzəldirdilər, qotazlı yəhərüstülər toxunardı. Saçaqlı və qotazlı toxumalar cıdır atlarına xüsusi gözəllik verərdi".





## ZORXANA

Daha bir maraqlı Novruz tamaşası zorxanadır. Bu oyun pəhləvanların, güləşçilərin iştirakı ilə keçirilir. İgidlər müəyyən dairə içərisində öz güclərini sınayırlar. Qalib gələnlərə hədiyyələr, pul mükafatı verilir. Zorxana oyunları həm açıq havada, yaşıl çəmənlik üstündə, həm də yeraltı məkanlarda keçirilir. Novruzda təşkil olunan oyunlar zamanı yarış məkanı gül-çiçəklə, bayram xonçaları, yanan şamlarla bəzədilir. Oyunlar musiqi ilə müşayiət olunur.

Novruz tamaşalarının sinə, daşqaldırma, kəndirbaz, sim pəhləvanı, buğa döyüşü, dəvə döyüşü, qoç döyüşü və sair növ və formaları da vardır.

Novruzda çövkən, qurd, motal-motal, aşıq-aşıq, usta-şəyird oyunlarının icrası zaman-zaman davam etdirilmiş, müəyyən dəyişikliklərlə müasir dövrə qədər gəlib çatmışdır.









## YUMURTA DÖYÜŞÜ

Yumurta döyüşü ən maraqlı Novruz Bayramı adətlərindən biridir. Hələ ilk çərşənbələrdən dibinə saman səpilmiş toxuma zənbillərə, yumurtanı sınıb-əzilməkdən yaxşı qoruyan digər qablara, hətta un kisəsinin, buğda çuvalının içinə yumurta yığmağa başlayırlar. Adətən, toyuq yumurtasını toplayırlar. Qaz, ördək, hind quşu yumurtası tədarük edənlər də olur. Hamı çalışar ki, Novruz Bayramına qabığı bərk, pərdəsi qalın, içərisi dadlı və təmiz olan kənd yumurtası əldə etsln. Əsasən el-obanın yeniyetmə oğlanları, ilk çərşənbədən başlayaraq, çiy yumurta ilə döyüşürlər. Sınıq yumurtalar qayğanağa yarayır. Möhtəşəm döyüşmə mərasimləri isə axır çərşənbədə baş verir. Kəndin, qəsəbənin, şəhərin sakinləri sübh tezdən məhəllələrarası meydanlara axışırlar.

Hər kəsin cibində bir neçə boyanmış yumurta olur. Bu yumurtalar bərkliyini bildirən müəyyən əlamətlərə görə axşamdan seçilir. Eldə-obada elə bilici adamlar olur ki, onlar ehmal-ehmal dişə









vuraraq çıxan səsi eşidib irəlicədən yumurtanın zərbəyə davamlı olub-olmadığını təyin etməyi bacarırlar. Bir kişi, yaxud yeniyetmə meydanda toplaşan hər hansı bir iştirakçıya yanaşır, onların arasında, adətən, belə bir söhbət gedir:

- Bayramın mübarək.
- Bayramın mübarək.
- İstəyirsən, döyüşək?
- İstəyirəm!
- Gəl döyüşək.
- Yaxşı, döyüşək, amma gəl əvvəlcə yumurtalarımızın dadına baxaq (yəni dişə vurmaqla bərkliylni, yaxud boşluğunu yoxlayaq).

Növbə ilə bu onun, o da bunun yumurtasını dişinə vuraraq baxışırlar.

Döyüşmək qərarına gəlsələr, ikinci şərt meydana gəlir, kim tutacaq, kim birinci vuracaq. Oğlanlar “tut, vurum”, “sən tut”, “tut, vurum”, “sən tut”, deyə mübahisə edirlər. Nəhayət, biri tutmağa razılaşır. Gərək yumurtaların tam şiş ucları toqquşsun. Çünki yumurtanın arxa və yan hissəsi ilə müqayisədə ən bərk və davamlı hissəsi ön ucdur. Yumurta döyüşdürənlər nədənsə mərc də gələ bilərlər. Əsas etibarı ilə udan sındırdığı yumurtalarla kifayətlənməli olur. Çox yumurta udan bu qəniməti qohuma, qonşuya, kasıb tanışlara paylayır.

## PAPAQATDI

Çərşənbə axşamlarının hamısında və Bayram axşamında uşaqlar, yeniyetmələr dəstə bağlayaraq kəndin, qəsəbənin məhəllələrini, həyətləri gəzir, mənzillərin qapısını döyür, oraya papaq, kisə, torba qoyaraq münasib bir yerdə gizlənirlər. Ev yiyəsi çıxır, görür ki, heç kəs yoxdu, papaq, kisə, torba qoyulub qapısının ağzına. Bu dəfə o alqış eləyib, xoş sözlər söyləyərək papağı, torbanı götürür, qapını bağlamadan içəri gedir, bu qoyulan qabların içərisinə imkanı çatdığı qədər evdə olandan -







qovurğa, qoz, fındıq, yumurta, noğul, nabat, şirniyyat, alma, heyva, nar... yığıb qayıdır. O gərək papaq atanın kim olduğunu bilməsin. Papaq atmanın "cəvərən cüllüt" deyilən bir forması da Qarabağın bəzi kəndlərində yaşamaqdadır. Kəndlərdə çay, göl qırağında, məhəllələrarası çəpərlərin dibində bitib buğum-buğum ucalan qarğı bitkisi var. Qarğı boy atıb bərkiyəndən sonra payızın lap sonunda kəsilir, qurudulur, ondan dekorativ hasar çəkmək, mal-heyvan yerini düzəltmək, damların, yardımçı əl evlərinin üstünü örtmək üçün istifadə olunur. Novruz Bayramına bir az qalmış uşaqlar ən möhkəm qarğı oduncağını seçir, yarpaqlarını təmizləyir, uc hissəyə cəvərən bağlayır. Cəvərən bir buğum qarğıdan düzəldilir. Bunun üçün bir tərəfi buğumlu olan iki qarış uzunluqda qarğı parçası götürülür. Buğumun əks istiqamətindən buğuma qədər qarğı parçası şaquli istiqamətdə dil-dil doğranır, baş hissəyə dairəvi məftil halqa keçirilir. Nəticədə konusvari yaraşıqlı bir qab alınır. Uşaqlar bu cəvərəni uzun qarğıya bənd etdikdən sonra evlərin qapısını döyür, qapı açıldıqda bu qəribə qabı içəri uzadır və qapını özlərinə tərəf çəkib bağlayırlar. İçəridən "cəvərən cüllütü çəkin" deyə səs gələndə uşaqlar qarğını geri çəkib qapını bağlayır və cəld uzaqlaşırlar ki, onları görüb tanımasınlar.

Görünür cəvərən cüllüt ona görə düzəldilib ki, xırda şeylər, məsələn, qovurğa yarıqlardan axıb getsin, daha doğrusu ev sahibi daha sanballı sovqat qoymaq haqqında düşünsün; məsələn, yumurta. Həqiqətən də, bayram sovqatı üçün papaq, kisə, cəvərən cüllüt atan uşaqların, yeniyetmələrin sevincinə səbəb olan ən qiymətli hədiyyə yumurtadır.

## FALABAXMA

Axır çərşənbə günü falabaxma adəti var. Fala baxmanın ümumi məzmunu saxlanılmaqla insanların fantaziyasına münasib falabaxma forma və şəkilləri bəllidir. Adətən, falabaxma mərasimlərini qızlar, gəlinlər düzənləyirlər. Falabaxma qaba tökülmüş təmiz su, arxasına pambıq dolanmış iynə (suda batmasın deyə), qızıl üzük və s. vasitəsilə icra edilir. Şam, kibrit çöpləri yandırmaqla da fala baxırlar. Adətən, bu rituallar çərşənbə axşamları yerinə yetirilir, qızlar, gəlinlər səhərə kimi yatmayıb çilə çıxarırlar. Çilə çıxardılan gün bikef olmaq yaramaz, demək-gülmək, əylənmək vacibdir. Yalnız xoş sözlər söyləmək, yaxşılıqlar barədə düşünmək lazımdır.

Falabaxmanın bir növü də qapı pusmaqdır. Adam ürəyində niyyət tutub bir qapı arxasına gəlir, qulağını qapıya yaxınlaşdırıb içəridə nə danışıldığını eşitməyə can atır. Əgər ilk dəfə yaxşı söz eşitsə niyyəti yerinə yetəcək, yox avara söz eşitsə, deməli, niyyətində tutduğu işi yerinə yetirməkdən vaz keçməlidir.








## Novruz çərşənbələrində adətdir

Əziz bayrama hazırlıq görmək
Təmizlik aparmaq
Bağa-bağçaya qulluq etmək
Pal-paltarı, qab qaşığı günə vermək, yuyub təmizləmək
Səməni göyərtmək
Süfrə açmaq
Tonqal yandırmaq
Təzə paltar geyinmək
Xonça bəzəmək
Yumurta boyamaq
Su üstündən atlanıb dua oxumaq
Od üstündən atlanıb dua oxumaq
Şam yandırmaq
Axır çərşənbə axşamı gec yatmaq
Doğma adamların qəbrini ziyarət etmək







Dostları, qohumları yada salıb qonaq getmək
Qarşına çıxan hər kəsə pay vermək
Yumurta döyüşmək
Küsdüyün adamla barışmaq
Uşaqları sevindirmək
Qocalara həyan olmaq
Bir kimsəni incitməmək
Ağac əkmək
Nişanlı qız evinə bayram xonçası göndərmək
Heyvanlara qarşı (it, pişik, at, qoyun, inək) mərhəmətli olmaq
Ov ovlamamaq
Bayram axşamı hər kəsin öz evində olması
Spirtli içki içməmək...



## YAZ ƏTİRLİ SƏTİRLƏR

1.
Ağacların gözündə gün,
Yarpaq əli qaşınandı.
Hər tumurcuq sirli düyün -
Dünya bahar yaşındadı.

Düyməsini külək açır,
Lalə yamac döşündədi.
Məzarlar da çiçək açır -
Dünya bahar yaşındadı.

Yel aparır, qaçaq düşür,
Damaqlardan qışın dadı.
Qəm gözünü damcı deşir -
Dünya bahar yaşındadı.

Gün gəlindi, yuva salır,
Qarışqalar işindədi.
Çəmən gül-gül nəfəs alır -
Dünya bahar yaşındadı.

Buğlu torpaq aş qazanı,
Su bərəkət tuşundadı.
Tanrı sevir yer qazanı -
Dünya bahar yaşındadı.

Od tökülür ürəklərə,
Qızlar bulaq başındadı.
Sevgi dolur səhənglərə
Dünya bahar yaşındadı.



Gül qaz

**2.**

Fəsillərin rəngini
Göz gərəkdi görəsi.
İlin doqquz zənciri -
Bahar - payız arası.

Eli-elə calayır
Durnaların sırası.
Günəş tonqal qalayır
Bahar - payız arası.

Güllü düzdə rəngə bax;
Qırmızısı, alası...
Bala dönür buz bulaq
Bahar - payız arası.

Dərələrə sıxılır
Dağ gözünün qorası.
Dərd-ələmlər soluxur
Bahar - payız arası.

Qayaları boyalar
Kəkliklərin xınası.
Qara daş da oyanar
Bahar - payız arası...

Az qalır yıxa dağı
Qartalların qiyyəsi.
Ömrüdü bir yarpağın
Bahar - payız arası.



Gül oğlan







## NOVRUZ BAYRAMININ SÜFRƏSİ

**Novruz Bayramının süfrəsi bolluq, firavanlıq, xoşbəxt həyatın rəmzi olan bir abidədir.**



Novruz süfrəsini bəzəyən nemətlərin tədarükü bayramdan bir-iki ay əvvəl başlanır. Hər bir evdə yetərincə yaxşı üyüdülmüş unun, təmiz buğdanın olması zəruridir. Meyvə quruları, düyü, qoz, fındıq, bal, doşab, bol yumurta, əriştəlik yuxa doğrantısı, gülablar, mürəbbələr, şəkər, yağ, şorabalar, motal pendiri Novruz süfrəsini bəzəyən xörəklərin əsas komponentləridir. Yüz cür dadlı təamlar, ət də daxil olmaqla məhz bu ərzaq növlərindən hazırlanır. Bayram gününə qədər ocağın odunundan tutmuş kibritə, duzdan tutmuş istiota, göyərti qurusundan tutmuş meyvə qurusuna qədər hər şey hər bir evdə tədarük olunmalıdır. Novruz süfrəsində olan nemətlərin halal qazancla alınması və yaxud insanın öz halal zəhməti və alın təri ilə əldə edilməsi vacib şərtlərdən biridir. Bayram nemətlərinin tədarükü zamanı qohumların, qonşuların, tanışların bir-birilərinə yardım göstərməsi qəbulediləndir.







Çərşənbə axşamlarında, axır çərşənbədə və Novruz Bayramı axşamında mütləq qaydada qazan asılması, xörək bişirilib süfrə açılması, ev adamlarının məhz öz süfrəsinin ətrafında olması, həmin çərşənbə axşamlarında və bayram axşamı mütləq qaydada uzaq, yaxın səfərlərdən çəkinərək öz evində gecələməsi, ailə ilə bir yerdə bayramı qarşılaması mühüm şərtlərdəndir.

Bayram süfrəsi açılarkən stolüstü örtüklərin ən təmizi və yaraşıqlısı seçilir. Lap qədimlərdə insanlar döşəməsi xalça, palazla tam örtülmüş mənzildə divar boyu düzülmüş döşəklərin üstündə oturub mütəkkəyə dirsəklənərmişlər.

Bayram süfrəsində səməni və yeddi növ ərzaqdan düzəldilmiş xonça olmalıdır. Mənzil, qab-qaşıqlar, bir sözlə, hər şeydə ideal təmizlik gözlənilməlidir. Heç bir ev adamı hamamda təmiz yuyunub, təpədən dırnağa qədər təmiz paltar geyinməsə bayram süfrəsinə əyləşə bilməz. Bayram süfrələrini gül-çiçək, şərbətlər, mürəbbələr, şirniyyatlar bəzəyir. Qaynamış samovar suyu ilə müxtəlif ətirli



otlardan, çiçəklərdən və şübhəsiz ki, Lənkəran, Astara, hind, Seylon çaylarından dəmlənmiş pürrəngi çay süfrələrin bəzəyidir. Bayram süfrəsi üçün milli xörəklərin bir neçə növü bişirilə bilər. Adətən, bu aş, bozbaş, dolma (yarpaq və kələm), dovğa, çığırtma, küftə-bozbaş, soyutma, ləvəngi olur. Novruz bayramı axşamı qoyun, mal, toyuq, hindtoyuğu, ördək, qaz ətindən, balıq və digər ov ətlərindən manqalda kabab çəkilməsi də dəbdir. Bir sözlə, Novruz süfrəsi insanın həvəs və meyilindən, zövqündən, şübhəsiz ki, imkanından asılı olaraq qurulur. Burada spirtli içkilərdən, haram kəsilmiş ətlərdən başqa hər bir növdən olan nemətlərə yer var. Novruz süfrəsi meyvə və tərəvəzin bolluğu ilə də diqqəti cəlb edir. Təsəvvür yaratmaq üçün Novruz süfrəsində istifadə olunan nemətlərin, bəzilərinin adlarını saymaq yerinə düşər. Bunlar:

Çörək, bayram çörəyi, un, buğda, püstə, innab, ləbləbi, kişmiş, xurma, badam, qoz, fındıq, meyvə quruları, sucuq, qovurğa, mixək, hil, zəncəfil, darçın, zəfəran, gülab, nabat, noğul, meyvələr, göyərtilər, tərəvəzlər, şəkərbura, paxlava, qurabiyə, plov (müxtəlif), səməni, şam, gül-çiçək, yumurta və s. və ilaxirədir.

## NUŞ OLSUN!

Novruz süfrəsində yer alan milli xörəklərin bir neçəsinin reseptlərini təqdim etmək yerinə düşür. Bu testlər Cabir Xəlifə-zadənin "Azərbaycan milli kulinariyasının ləziz nemətləri" kitabından götürülmüşdür.







**DÜŞBƏRƏ.** Yağlı qoyun ətini soğanla birgə ət maşınının xırda gözündə çəkir, duz, istiot vurub yaxşıca qarışdırırlar.

Ələnmiş buğda unundan su ilə bərk xəmir yoğuraraq çox nazik yuxa yayır və 2x2 sm böyüklükdə dördkünc formada kəsirlər. Kəsilmiş xəmirin ortasına hazır farşdan fındıq boyda qoyub, qıraqlarını birləşdirir və uclarını yapışdıraraq xüsusi düşbərə formasında bükürlər. Hazır



düşbərələrin ununu çırpıb azacıq duz vurulmuş qaynayan bulyona və ya suya tökür, qaynadırlar. Bişmə müddəti 5-6 dəqiqədir. Düşbərə bişdikdə bulyonun üzünə çıxır və zərif ağ köpük əmələ gəlir.

Süfrəyə veriləndə düşbərəyə xırda doğranmış keşniş və ya quru nanə tökürlər. Əzilmiş sarımsaqlı üzüm sirkəsi ayrıca verilir.

Ərzaqlar: 100 qr. buğda unu, 30 qr. qoyun əti, 5 qr. soğan, 5 qr. keşniş, yaxud 0,2 qr. quru nanə, tama görə duz, istiot.

**KÜFTƏ-BOZBAŞ.** Qoyun ətinin tikəsi götürülür. Sümüklərindən tez-tez kəfini yığmaqla bulyon bişirilir. Yumşaq ət baş soğanla birgə ət maşınının xırda gözündən keçirilir. Qiyməyə duz, istiot, çərtilmiş keşniş, şüyüd, bir az quru nanə, arıdılıb yuyulmuş, bir az əzişdirilmiş düyü qataraq yaxşıca qarışdırılır. Sonra hər





adam başına iki küftə hazırlayırlar. Hər küftənin içərisinə bir ədəd yuyulmuş alça qurusu qoyurlar. Süzülmüş ət bulyonuna axşamdan suya qoyulmuş noxud əlavə edilir. Şəffaf bulyona xırda doğranmış baş soğan və hər paya bir yumurta boyda soyulmuş kartof salınır. Küftənin hazır olmasına bir az qalmış istiot və nəhayət, zəfəran suyu vurulur.

Süfrəyə kasalarda verilir və üstünə xırda doğranmış keşniş, şüyüd, yaxud quru nanə səpilir. Xörəyin yanında ayrıca qabda qoyulmuş baş soğan və sumaq verilir.

Ərzaqlar: 125 qr. ət, 50 qr. düyü, 10 qr. alça turşusu, 20 qr. noxud, 50 qr. kartof, 1 baş soğan, 0,1 qr. zəfəran, bir çimdik quru nanə, yaxud 20 qr. keşniş, şüyüd, tama görə duz, istiot.

Qeyd: Mövsümdə zəfəran yerinə təzə pomidor vurmaq olar.



**PARÇA BOZBAŞ.** Tikə boşbaşı adi qazanda bişirirlər. Bunun üçün noxudu axşamdan arıdır, yuyur, soyuq suda isladırlar. Yağlı qoyun ətinin döş və başqa hissələrini hər biri 40-50 qramlıq parçalara doğrayıb yuyur, qazana tökürlər. Üzərinə soyuq su, duz atıb vamla qaynadırlar. Təzəcə qaynamağa başlayanda kəfini yığır, isladılmış noxud və iri doğranmış baş soğan əlavə edib qaynadırlar. Noxud və ət bişəndən sonra alça qurusu, soyulmuş və doğranmış kartof əlavə edir, 15-20 dəqiqə bişiririər. Hazır olmağına az qalmış tikə bozbaşa istiot və sarı kök əlavə edirlər.

Tikə bozbaş süfrəyə verilərkən kasalara çəkilir, üzərinə xırda doğranmış şüyüd səpilir. Tikə bozbaşın yanında sumaq, döyülmüş qara istiot və kəvər verilir.

Ərzaqlar: 125 qr. qoyun əti, 15 qr. noxud, 30 qr. baş soğan, 50 qr. kartof, 10 qr. şüyüd, bir çimdik sarıkök, tama görə duz, istiot

**SƏMƏNİ (GÖYƏRTİ).** Toxum buğdanı təmiz yuyub isladır, qazanda bir neçə gün saxlayırlar. Buğdalar çırtlayanda onları aşsüzənə yığırlar. Üstünü yaş dəsmalla örtür, gündə iki dəfə sulayırlar. Bir neçə gündən sonra buğdalar cücərib cim atır. Cim atdığı zaman doğrayıb ət maşınından keçirirlər. Hazır olan şirəni ələkdə süzür, qazana tökür, buğda unu ilə taxta qaşıqla fasiləsiz qarışdırır və od üzərində bulaya-bulaya bişirirlər. Kəfkir ilə dibini qazıyırlar ki, qazmaq tutmasın və dibi yanmasın. Hazır səmənini süfrəyə qaynar və soyuq halda verirlər.





Ərzaqlar: 200 qr. buğda, 50 qr. un.

Qeyd: Səməni qış və yaz aylarında bişirilir. Novruz bayramı üçün mərasim xörəyi sayılır.

**TOYUQ ŞORBASI.** Yerkökünü və soğanı xırda saman şəklində doğrayıb ərinmiş yağda qovururuq. Təmizlənmiş və ütülmüş toyuğu qaynayan suya salırıq. Bişirib kəfini yığırıq. Sonra toyuğu bulyondan çıxarıb kənara qoyuruq. Qaynayan bulyona təmizlənmiş və yuyulmuş düyü atırıq. 15 dəqiqədən sonra düyünün üzərinə 2 ədəd alça turşusu, qovrulmuş tərəvəzləri və duz, istiot töküb azacıq qaynadırıq. Şorbanı süfrəyə verərkən kasalara töküb üzərinə bir parça toyuq əti qoyuruq və göyərti səpirik.



Ərzaqlar: 70 qr. toyuq əti, 20 qr. yerkökü, 20 qr. baş soğan, 15 qr. yağ, 20 qr. düyü, 2 ədəd alça qurusu, tama görə duz, istiot.

**ŞƏKİ PİTİSİ.** Piti xüsusi dulus qablarda bişirilir. Hər pay xörək ayrıca bişirilir. Hər paya qoyun ətinin yumşaq hissəsindən 30-40 qramlıq iki tikə ət götürülür, təxminən 30 qramlıq quyruq parçası atılır. Axşamdan noxudu arıdır, yuyub, soyuq suda islağa qoyurlar. Yumşaq ət və noxud piti qabına salınır. Üzərinə dolana qədər soyuq su tökülür. Sonra piti qabları odun üzərinə qoyulur və vam odda qaynadılır. Suyunu çəkdikcə üzərinə qaynar su əlavə edilir. Üzərinə çıxan kəf tez-tez qaşıqla yığılır. Sonra içinə xırda-xırda dördkünc formada doğranmış baş soğan salınır, duz tökülür. Bişənə yaxın bir-iki



ədəd albuxara və təmizlənmiş şabalıd atılır. Hazır olana yaxın üzərinə zəfəran suyu və istiot əlavə edilir. Bəzən payız və qış mövsümündə pitiyə bir-iki dilim turş heyva da atılır. Hazır pitinln rəngi azacıq sarımtıl və şəffaf olmalıdır. Xörəyin özünəməxsus ətri gəlməlidir. Piti, adətən, süfrəyə piti qabında verilir, yanına kasa qoyulur. Ayrıca qabda soyulmuş və dörd yerə kəsilmiş baş soğan, xırda doğranmış keşniş, şüyüd və sumaq verilir.

Ərzaqlar (bir pay üçün): 100 qr. yumşaq qoyun əti, 40 qr. qoyun quyruğu, 20 qr. soğan, 10 qr. gavalı qurusu, 20 qr. şabalıq, 15 qr. noxud, 0,2 qr. zəfəran, 3 qr. sumaq, 10 qr. göyərti, tama görə duz, istiot, qədərincə su.

Qeyd: bəzi bölgələrdə şabalıdı kartofla, gavalını isə pomidorla əvəz edirlər.

**QOYUN ƏTİNDƏN TƏNƏK DOLMASI (YARPAQ).** Təzə körpə tənək yarpaqlarını yuyur, saplaqlarını kəsib qaynar suda pörtürlər. Yumşaq qoyun və ya dana ətini (ət yağsız olarsa, quyruq vururlar) soğanla birlikdə ət maşınının xırda gözündən keçirirlər. Sonra, duz, istiot vurur, narın doğranmış şüyüd, keşniş, ovulmuş quru nanə, təmizlənib yuyulmuş düyü əlavə edir, yaxşıca qarışdırırlar. Hazır tənək yarpaqlarının iç (tüklü) tərəfinə təxminən 15 qram farş qoyub bükürlər. Hazırlanmış dolmaları bükülən tərəfi aşağı olmaqla dayaz qazana bir neçə qat düzərək, azacıq su əlavə edir, üstünü kiçik boşqabla qapayır, qapağını örtərək vam istilikdə bişirirlər.

Dolma nimçələrə çəkilir, isti halda süfrəyə verilir. Yanında ayrıca piyalədə sarımsaqlı qatıq verilir.

Ərzaqlar: 100 qr. qoyun əti, 30 qr. təzə tənək yarpağı, 30 qr. soğan, 15 qr. düyü, 20 qr. göyərti, 3 qr. nanə, 50 qr. qatıq, 5 qr. sarımsaq, tama görə duz, istiot.

Qeyd: Qışda tənək dolmasını duza qoyulmuş tənək yarpaqlarından bişirirlər. Bu zaman yarpaqları soyuq suda yuyub isti suda pörtürlər.

**QOYUN ƏTİNDƏN KƏLƏM DOLMASI.** Yumşaq qoyun və ya mal ətini soğanla birlikdə ət maşınının xırda gözündən keçirir, duz, istiot, darçın, xırda









doğranmış keşniş, şüyüd vururlar. Düyünü təmizləyir, yuyub ətə əlavə edirlər. Farşa təzə pomidor və yaxud pomidor məti vurur, yaxşıca qarışdırırlar. Şabalıdı təmizləyir, turş heyvanı dilim-dilim doğrayırlar. Kələmin üst qabıqlarını və kötüyünü çıxarıb atır, qalan yarpaqlarını açır, qaynar suda pörtürlər. Soyuduqdan sonra kələm yarpaqlarını seçərək arxadakı qalan hissəsini uzununa kəsirlər. Hazırlanmış kələm yarpaqlarının içinə 30 qramlıq ət farşı, bir ədəd şabalıd, bir dilim heyva qoyaraq dördkünc formada bükürlər. Sonra qazanın içinə bir-iki ədəd yarpaq qoyaraq, üzərinə bir neçə qat dolma düzür, üstünə qaynar su əlavə edirlər.

Dolmaları nimçəyə çəkir, üstünə öz suyundan töküb darçın səpir və süfrəyə verirlər.

Ərzaqlar: 150 qr. qoyun əti, 300 qr. təzə kələm, 15 qr. düyü, 20 qr. baş soğan, 15 qr. şabalıd, 20 qr. heyva, 1 ç/q pomidor məti, 10 qr. göyərti, 0,2 qr. darçın, tama görə duz, istiot.

**TOYUQ LƏVƏNGİSİ.** Toyuq və ya cücəni təmizləyir, içalatını çıxarır, yuyur, duz, istiot vurur, alça turşusu sürtürük. Qoz ləpəsini ət maşınından keçiririk. Sonra baş soğanı da maşından keçirib suyunu sıxır, duz, istiot, sarıkök vurur, qoza qatıb qarışdırırıq. Ləvəngini toyuğun içərisinə doldurur, ayaqlarını qarnına tərəf əyərək geydiririk, sobada və yaxud təndirdə 20-30 dəqiqə bişiririk.

Hazır ləvəngini həm ayrıca, həm də plovla süfrəyə vermək olar.

Ərzaqlar: 1 ədəd toyuq, 300 qr. qoz ləpəsi, 300 qr. baş soğan, 30 qr. alça turşusu, tama görə duz, istiot, bir çimdik sarıkök.

**BALIQ LƏVƏNGİSİ.** Təzə puliu baiığı (kütüm və ya xəşəm) yuyub içini təmizləyirlər. Sonra qarnını içlə doldurub nazik sapla tikirlər. Üzərinə azacıq zeytun yağı sürtüb sobada bişirirlər. Hazır balığı uzunsov nimçəyə qoyur, azacıq əyirlər. Yanını limon və göyərti ilə bəzəyirlər.

Ləvənginin hazırlanması: Ləvəngini hazırlamaq üçün qoz ləpəsini ət maşınından keçiririk. Sonra soğanı da ət maşınından keçirib suyunu tənziflə sıxırıq. Soğana və qoza alça turşusu, duz, istiot





vurur, əllə qarışdırırıq. Əgər balıq kürülüdürsə, bu kürüdən də ləvəngiyə qatır, balığın qarnına doldurur, sapla tikib sobaya qoyuruq. Balığı təndirdə də bişirmək olar.

Ərzaqlar: 1 kq 200 qr. balıq, 100 qr. qoz ləpəsi, 300 qr. baş soğan, 20 qr. turşu, 1 ədəd limon, 30 qr. göyərti, tama görə duz, istiot.

**TİKƏ KABAB.** Erkək quzu və ya cavan qoyun ətinin bel və arxa qabırğa hissəsini 10-15 sm uzunluğunda, hərəsi 40-50 qr. olan tikələrə doğrayırıq. Duz, istiot vurur, xırda doğranmış baş soğan, azacıq lumu şirəsi əlavə edib yaxşıca qarışdırır, sərin yerdə emallı qabda 2-3 saat saxlayırlar. Sonra paslanmayan metaldan olan şişlərin hər birinə təxminən 3-4 parça ət keçirirlər. Manqalda köz üzərində tədricən çevirməklə hər tərəfini bərabər dərəcədə qızardırlar. Çalışmaq lazımdır ki, kabab qızararkən yanmasın. Bunun üçün alovlu kömürü ya yelləyib söndürmək, ya da üzərinə duzlu su səpmək lazımdır.

Hazır kabab isti-isti süfrəyə verilir. Nimçəyə yığanda yanını xırda doğranmış baş soğan və göyərti, sumaq və limon dilimləri ilə bəzəyirlər. Yay vaxtı süfrəyə şişdə qızardılmış bütöv pomidor da verilir. Kababın yanında, həmçinin təzə və duza qoyulmuş tərəvəzlərdən salatlar, təndir çörəyi və ya lavaş qoyulur. Ayrıca qabda təbii nar şirəsi və yaxud narşərab verilir.

Ərzaqlar: 300 qr. qoyun əti (sümüklü), 50 qr. baş soğan, 1ədəd limon, 1 ədəd pomidor, 5 qr. sumaq, 20 qr. göyərti, tama görə duz, istiot.

**LÜLƏKABAB.** Yağlı erkək qoyun, yaxud dana ətinə azacıq quyruq, soğan, duz, istiot vurub ət maşınından keçirirlər. Hazır farşın yarısını ikinci dəfə maşından keçirir, soyuq su əlavə edib o biri yarısı ilə yaxşıca qarışdırır, farşı əlin qırağı ilə döyəcləyirlər. Bir müddət soyuducuda saxlayırlar ki, farş bir az bərkisin. Sonra farşı balaca hissələrə ayırır, əli sulayaraq hər şişdə üç ədəd olmaqla 8-10 sm uzunluğunda lülə formasına salır, manqalda közərmiş kömürün odunda üzü qabıq bağlayana qədər qızardır, sonra o biri üzünü çevirirlər. Manqalda od alovlu olmamalıdır. Lüləkabab qızardıqda onu şiş-









dən çıxarır, isti-isti nimçələrə çəkir, üzərinə doğranmış baş soğan və keşniş səpirlər. Yanında sumaq və şişdə bişirilmiş pomidor qoyulur. Lüləkabab, adətən, lavaşla yeyilir. Süfrəyə yanında ayrıca narşərab verilir.

Ərzaqlar: 200 qr. qoyun və ya mal əti, 50 qr. quyruq, 60 qr. soğan, 3 qr. sumaq, 10 qr. narşərab, 1 əd. pomidor, 10 qr. göyərti, tama görə duz, istiot.

**BASDIRMA KABAB.** Malın can ətindən 30-40 qramlıq tikələr doğrayır, erkək qoyun quyruğundan hər paya 2-3 tikə də əlavə edirlər. Sonra emallı qaba töküb üzərinə duz, istiot və xırda doğranmış baş soğan vururlar, limon şirəsi sıxır, qalan limonu isə qabıqla xırda-xırda doğrayıb ətə qatırlar. Yaxşıca qarışdırdıqdan sonra 2-3 saat soyuducuda saxlayırlar. Sonra tikələr şişlərə taxılır, manqalda qızğın köz üzərində çevirməklə bişirilir. Bu kabab, adətən, 5-6 dəqiqəyə hazır olur. Kabab süfrəyə isti-isti verilir. O, halqavari doğranmış soğan, qızardılmış pomidor, limon dilimləri ilə bəzədilir. Üstünə reyhan və ya nanə göyərtisi qoyulur.

Ərzaqlar: 150 qr. can əti, 50 qr. quyruq, 50 qr. baş soğan, 1 ədəd limon, 1 ədəd pomidor, 10 qr. göyərti, tama görə duz, istiot.

**QİYMƏ PLOV.** Qoyun ətinin tikələrini yuyur, xırda-xırda doğrayır, duz, istiot vurur, baş soğanla birgə ya ət maşınının iri gözündən keçirir, ya da qiyməkeşlə döyürük. Sonra yağda qovurur, üzərinə təmizlənib yuyulmuş kişmiş və zoğal axtası əlavə edirik. Şabalıdın başını kəsir, duzlu suda bişirib qabıqdan təmizləyir, xırda doğrayıb qızardılmış qiymənin üzərinə tökür, zəfəran və darçın vururuq. Sonra yaxşıca qarışdırır, qazanın qapağını örtüb 10 dəqiqə vamla bişiririk.

Hazır plovu təpəcik şəklində nimçəyə yığır, üzərinə azacıq ərinmiş kərə yağı gəzdirir, qazmaq qoyulur, qiymə isə öz şirəsi ilə yanına tökülür və süfrəyə verilir. Bəzən qiymə süfrəyə ayrıca çuxur nimçələrdə verilir.

Ərzaqlar: 200 qr. yumşaq qoyun əti, 150 qr. düyü, 50 qr. ərinmiş yağ, 20 qr. kişmiş, 20 qr. zoğal axtası, 40 qr. soğan, 30 qr. şabalıd, bir çimdik darçın, 0,2 qr. zəfəran, tama görə duz, istiot.













**TURŞUQOVURMALI PLOV.** Qoyun ətinin yumşaq hissəsindən 20-25 qramlıq tikələr doğrayır, duz, istiot vurur, dayaz qazanda azacıq ərinmiş yağda qovurur, bir qədər bulyon, yaxud qaynar su töküb vam istilikdə bişiririk. Suyu çəkilənə yaxın ayrıca hazırlanmış soğança əlavə edib qarışdırır, bir müddət də bişiririk. Bişənə yaxın yuyulmuş albuxara və alça qurusu, azacıq zəncəfil əlavə edirik. Xuruş hazır olandan sonra zəfəranlı plovu nimçələrə çəkir, qazmaqla bəzəyirik. Turşuqovurma xuruşunu isə ayrıca çuxur qabda süfrəyə veririk.

Ərzaqlar: 200 qr. qoyun əti, 150 qr. düyü, 50 qr. baş soğan, 15 qr. albuxara, 10 qr. alça qurusu, bir çimdik zəncəfil, 50 qr. ərinmiş yağ, 0,2 qr. zəfəran, tama görə duz, istiot.

**AĞ AŞ.** Düyünü arıdıb yuyur, qazana tökür, üzərinə su və duz əlavə edib qaynadırıq. Düyü bişib horra halına gələndə ocaqdan götürürük. Sonra quru alçadan hazırlanmış turşuya şəkər, yağ vurub pörtür, nimçələrə çəkilmiş aşın üstünə töküb süfrəyə veririk.

Ağ aşı ən çox qışda yeyirlər. Ağ aşın yanında qatıq da vermək olar.

Ərzaqlar: 150 qr. düyü, 30 qr. quru alça, 20 qr. şəkər, 40 qr. yağ, tama görə duz, qədərincə su.

**TURŞULU AŞ.** Paxla, buğda, lobya və noxudu bir gün qabaq soyuq suda islağa qoyuruq. Düyünü də yuyub isladırıq. Sonra onların hamısını böyük qazana tökür, üzərinə su əlavə edib qaynadırıq. Yarıbişmiş halda olanda qazana quru alça və doğranmış balqabaq tökür, daha sonra doğranmış keşniş əlavə edirik. Bir az qaynadır, dadına görə şəkər səpir, birlikdə qaynatdıqdan sonra tama görə yağ və duz vururlar.



Hazır xörək çuxur nimçələrdə isti-isti süfrəyə verilir. Bu aş daha çox qış aylarında yeyilir.

Ərzaqlar: 150 qr. düyü, 30 qr. paxla, 20 qr. lobya, 20 qr. noxud, 20 qr. buğda, 10 qr. quru alça və ya lavaşana, 30 qr. balqabaq, 10 qr. keşniş, 10 qr. şəkər tozu, 50 qr. yağ, tama görə duz, qədərincə su.

**SÜZMƏ XƏNGƏL ƏT İLƏ.** Qoyun ətini ət maşının iri gözündən keçirir, soğan qatır, duz, istiot vurur, soğan tünd-sarı rəng alana qədər qovururuq. Sonra ağzı bağlı qazanda ət hazır olana qədər bişirir, axırda azacıq zəfəran vururuq.

Ayrıca ələnmiş buğda unundan duz, su və yumurta qatmaqla bərk xəmir yoğurur, kündələyib nazik yuxalar yayırıq. Hazır yuxaları tavada, yaxud ilıq sacda bir qədər qurudururq. Sonra yuxaları 5x5 sm irilikdə dördkünc şəkildə doğrayır, qaynar, duzlu suda 8-10 dəqiqə qaynadır və aşsüzəndə süzürük. Süzülmüş xəngəli nimçələrə çəkir, üstünə hazır isti qovurma yığır, ərinmiş yağ töküb süfrəyə veririk.

Ayrıca qabda döyülmüş sarımsaqlı qatıq və ya ovulmuş qoyun pendiri verilir.



Ərzaqlar: 100 qr. qoyun əti, 100 qr. buğda unu, 5/1 əd. yumurta, 20 qr. ərinmiş yağ, 3 qr. sarımsaq, 50 qr. qatıq, 30 qr. soğan, zövqə görə zəfəran, duz, istiot.

**ƏT QUTABI.** Yumşaq mal və ya qoyun ətini xırda parçalara doğrayır, duz, istiot, soğan vurur, suda isladılmış və əzilmiş lavaşana, nar mövsümündə isə lavaşana əvəzi giləlenmiş nar qatıb yaxşıca qarışdırırlar. Ayrıca ələnmiş buğda unundan bir qədər duzlu su ilə bərk xəmir yoğurur, xırda kündələr tutub 15-16 sm diametrdə nazik yuxalar yayırlar. Dairəvi yuxanın bir yarısına döyülmüş əti (farş) yayır, o biri yarısı ilə ətin üstünü örtürlər. Aypara formalı xəmirin kənarlarını xırda bükərək yapışdırırlar. Qızardılmış tavada qutabın hər iki üzünü yağda qızardırlar. Hazır qutablar qurumasın deyə onları üst-üstə yığırlar. Qutablar süfrəyə isti-isti verilir. Yanında ayrıca qabda sumaq və qatıq verilir.

Ərzaqlar: 150 qr. buğda unu, 150 qr. qoyun və ya dana əti, 30 qr. baş soğan, 20 qr. nar, 30 qr. ərinmiş yağ, 5 qr. sumaq, 50 qr. qatıq, tama görə duz, istiot.











**GÖYƏRTİ QUTABI.** Turşəng, ispanaq, keşniş, şüyüd və göy soğanı arıdır, soyuq suda təmiz yuyur və xırda doğrayır, duz, istiot vuraraq yaxşıca qarışdırırlar. Ələnmiş buğda unundan su ilə bərk xəmir yoğurur, xırda kündə tutub 14-15 sm diametrində (ət qutabında olduğu kimi) nazik yayırlar. Xəmirin yarısına göyərti qoyur, ikinci yarısını da üstünə çevirib qıraqlarını incə formada birləşdirirlər. Sonra tavada və ya sacda hər iki tərəfini qızardırlar. Nimçələrə yığır, üstünə kərə yağı çəkirlər. Yanında piyalədə təzə şirin qatıq verirlər.

Ərzaqlar: 100 qr. buğda unu, 50 qr. turşəng, 50 qr. ispanaq, 20 qr. keşniş, 20 qr. şüyüd, 50 qr. qatıq, tama görə duz, istiot.

**ŞƏKƏRBURA.** Xəmir mayasını 30-35 dərəcəyə qədər isidilmiş üzlü süddə əridir və azacıq duz vururlar. Ayrıca qaba un töküb, maya vurulmuş süd, yumurta, ərinmiş yağ və zəfəran suyu qatıb bərk xəmir yoğururlar, üstünü örtüb 1-1,5 saat ərzində acımaq üçün isti yerdə 30-35 dərəcə hərarətdə saxlayırlar.

Xəmir gəldikdə onu kündələyib 2 mm qalınlıqda yayırlar. Sonra yayılmış dairəyə iç qoyub qıraqlarını yiv şəklində bururlar. Şəkərburanı sol əiin ovcunda tutaraq sağ əli ilə kiçik maqqaşla bir üzündə müxtəlif naxışlar salırlar. Şəkərburanı çuqun tavada və ya dəmir təbəqələr üzərində azacıq qurudurlar. Sonra sobada 180-200 dərəcədə 20-25 dəqiqə bişirirlər. Bişəndən sonra sobadan çıxarıb soyudurlar.

İç hazırlamaq üçün şirin badam ləpəsini qaynar suya tökürlər 5-8 dəqiqə pörtürlər. Sonra qabığını çıxardıb azacıq qurudaraq ət maşınının xırda gözündən keçirirlər və 1:1 nisbətilə şəkər tozu və döyülmüş hil ilə qarışdırırlar.

Qeyd: Badam əvəzinə qovrulmuş fındıqdan da istifadə etmək olar.

Ərzaqlar: Əla növ buğda unu - 500 qr., ərinmiş yağ - 150 qr., üzlü süd - 200 qr., 2 ədəd yumurta, maya - 20 qr., badam və ya fındıq ləpəsi - 400 qr., şəkər - 400 qr., hil - 0,5 qr., zəfəran - 0,5 qr., duz.

**BAKI PAXLAVASI.** Paxlavanın xəmiri və içi şəkərburanınkı kimi hazırlanır. Xəmirdən kündələr qayırıb 0,5 mm qalınlığında yayırlar. Tavanın və ya sininin dibinə yağ sürtüb yayılmış yuxanı salırlar və üzərinə 3-4 mm qalınlığında iç tökürlər. İçin üstündən yenə 0,5 mm qalınlığında yuxa salıb yenə iç səpirlər və bu qayda ilə əməliyyatı yuxa qurtarana kimi təkrar edirlər. Axırıncı yuxanı yağlamadan salırlar və əllə yüngülcə basaraq sıxlaşdırırlar.

Bu qatlı xəmiri 10 sm uzunu və 4 sm enində romb şəklində kəsir, üzərinə zəfəran suyu qatılmış yumurta sarısını sürtürlər. Sonra hər rombun ortasına 1-2 fındıq və ya badam ləpəsi basırlar. Paxlavanı sinilərdə 180-200 dərəcəli sobalarda 30-35 dəqiqə bişirirlər. Hazır olmağına 10-15 dəqiqə qalmış üstünə şəkər və ya balla hazırlanmış qatı şirə töküb yenə 5-6 dəqiqəliyə isti sobaya qoyurlar. Hazır paxlavanı çıxardıb soyudur, doğrayır, səliqə ilə iri nimçələrə yığırlar.

Ərzaqlar: Əla növ buğda unu - 500 qr., ərinmiş yağ - 120 qr., üzlü süd - 200 qr., 2 ədəd yumurta, maya - 20 qr., fındıq və ya badam ləpəsi - 500 qr., şəkər tozu - 500 qr., hil - 1 qr., zəfəran - 1 qr.





Göy tamahı yerə salıb,
Qurşaq-qurşaq bərə salıb,
Yaz işığı birə salıb,
Qışın kürkünə, kürkünə...

Cavanlaşıb, qızdı qarı,
Gözü gülür darı-darı.
Bahar bütün qapıları
Ağır ərk ilə, ərk ilə...

Göy üzü ulduz qaçırır,
Arxasınca iz qaçırır.
Küləyə bax, qız qaçırır
Alıb tərkinə, tərkinə...

Kol dibində sirr bənövşə,
İgidsənsə, dər bənövşə.
Bəxtəvərdi tər bənövşə
Düşsə hər kimə, hər kimə...

Dərdim ölər, qadam uçar
Alça, gilas, badam uçar,
Yaz gecəsi adam uçar
Dursa bərkinə, bərkinə...



Ruhumu şərbət hava
Bərəyə, bəndə çəkir.
Çağırır doğma yuva –
Yaz məni kəndə çəkir.

Qanımda kef cücərir,
Qəm atın gendə çəkir.
Yoluma lalə sərir,
Yaz məni kəndə çəkir.

Arıtək gül-çiçəyə,
Şəkərə, qəndə çəkir.
Qoşub əlçim küləyə
Yaz məni kəndə çəkir.

Ən ulu ruh diridi –
İlikdi, qandı çəkir.
Ölüm-itim yeridi -
Yaz məni kəndə çəkir.

Nə suçun var, yumağa
Çeşmələr anda çəkilir,
Qanadım var uçmağa -
Yaz məni kəndə çəkir.

Bu səadət yükünü
Tay hansı bəndə çəkir?
Üzümdən nur tökülür -
Yaz məni kəndə çəkir.

## NOVRUZ YAZILARI

### Novruz Bayramı tarixi, ədəbi, mədəni örnəklərdə

Novruz bayramı haqqında yazan müəlliflərin bir neçəsinin məqalələrindən yığcam parçaları təqdim edirik. Seçmələr "Novruz bayramı" ensiklopediyasından alınmışdır.

Şumerlərin tarixi mədəni abidəsi olan "Gilqamış" dastanından bəlli olan bilgiyə görə Bahar bayramının gəlişi dünya sivilizasiyasının qədim beşiyini quran şumerlər tərəfindən qeyd olunmuşdur. Onlara görə yazın gəlişi ilə yeni il başlanır. Şumerlər bolluq, bərəkət, əkinçilik, maldarlıqla bağlı olan bu bayramı bir neçə gün qeyd etmişlər. X-XI əsrlərdə yaşamış məşhur Şərq alimi Əbu Reyhan Biruni əsərlərində Azərbaycan və Novruz Bayramı haqqında söz açmış, bu bayramın həyat bayramı olduğunu yazmış, onu nəsillərdən nəsillərə ötürülən yadigar adlandırmışdır.



■ Çıraq





### İOSİF SAMUİLOVİÇ BRAGİNSKİ, şərqşünas alim



Braginski İosif Samuiloviç (1905-1986) - şərqşünas alim, Tacikistan Elmlər Akademiyasının müxbir üzvü (1951). Tacikistanın əməkdar elm xadimi. Əslən bakılı olan İ.S.Braginski 1931-ci ildə Moskva Şərqşünaslıq İnstitutunu bitirdikdən sonra bütün yaradıcı ömrünü Şərq xalqları ədəbiyyatı tarixinin ümumi-nəzəri məsələlərinin öyrənilməsinə həsr etmişdir. İ.S.Braginski Azərbaycan ədəbiyyatı və mədəniyyəti ilə bağlı xeyli dəyərli fikirlər söyləmişdir. Alimin 1967-ci il mayın 20-də "Ədəbiyyat və İncəsənət" qəzetində dərc etdirdiyi "Bahar bayramı haqqında" məqaləsi də elə bu istəkdən doğmuşdur. Məqalə azacıq ixtisarla verilir:

Uzaq keçmişdən bizə yadigar qalmış ən parlaq, ən gözəl bayramlardan biri bütün əkinçi xalqlara bu və ya başqa şəkildə məlum olan bahar bayramıdır. Bahar bayramı və digər belə bayramlar ətrafında hər bir xalq özünəməxsus poeziya və mərasimlər yaratmışdır. Şifahi xalq yaradıcılığını öyrənən folklorçular buna təqvim poezlyası və mərasimləri deyirlər. Baharı tərənnüm edən şirin xalq nəğmələrini, xüsusilə, kəndlərdə biz hələ kiçik yaşlarımızdan eşitmişdik.

Azərbaycan kəndlərində, tacik qışlaqlarında, Ukraynada və Fransada, uzaq Madaqaskarda və Aralıq dənizi sahillərində ilk bahar çiçəkləri haqqında nəğmələr oxunardı. Əlbəttə, bir-birindən bu qədər uzaqda yaşayan kəndlilər həmin nəğmələri nə bir-birindən alır, nə də bu oxşar nəğmələr və mərasimlər haqqında "sözü bir yerə qoyurdular".

Oxşar nəğmələr və mərasimlər eyni əmək şəraitindən, əkinçi əməyinə eyni münasibətdən yaranırdı, ondan irəli gəlirdi ki, əməkçi insanlar harada yaşayırdılarsa yaşasınlar, hansı coğrafi en dairəsində qərar tuturlarsa tutsunlar, onların təfəkkür tərzi, öz sevinc və kədərini ifadə etmək tərzi oxşar idi. Qədim bahar bayramında, söz yox ki, mövhumat, mərasimlərin qüvvəsinə sadəlövh inam da müəyyən dərəcədə özünə yer tapırdı. Məsələn, kəndlilər inanırdılar ki, su çiləyib yağış səsinə bənzər səs qopartmaqla havanı əkinçinin istədiyi kimi dəyişmək, yağış yağdırmaq olar. Lakin bahar bayramı, eləcə də digər el bayramları əməyə, ilin müxtəlif mövsümlərində əmək prosesləri barədə təsəvvürlərə əsaslanırdı. Bu "bütpərəst" bayramlarını qadağan etmək istəyən, amma buna müvəffəq olmayan kilsə sonradan-sonraya mərasimlərə dini ünsürlər daxil etməyə başladı. Maraqlıdır ki, kilsəyə bu da az müyəssər oldu. Xalqlar dədə-babalarından miras qalmış bayramların qeyri-



dini mahiyyətini göz bəbəyi kimi qoruyub saxlayırdılar.

Bu cəhət yazılı abidələrdə və ədəbi əsərlərdə də öz əksini tapırdı. Məlumdur ki, təhsil-maarif yuxarı siniflərin inhisarlarında olduğu tarixi dövrlərdə yazılı abidələr və ədəbi əsərlər xalq içərisində deyil, cəmiyyətin yüksək təbəqələrində yarandı. Kübarlar mühitində meydana çıxmış qədim Misir və assuri-babil yazılı abidələrində baharın gəlişi və təbiətin qış yuxusundan oyanması ilə əlaqədar olan xalq təsəvvürləri, el mərasimləri öz bədii təcəssümünü dramatik misseriyalarda, yaxud təbiətin çiçəklənməsinin rəmzi sayılan - ölən və dirilən (müxtəlif adlar daşıyan) Allahın şəninə coşqun himnlərdə tapırdı.

Baharın gəlişini təsvir edən xalq nəğmələri əsasında orta əsrlərdə Azərbaycan, İran, Orta Asiya və digər Şərq ölkələrinin bir çox şairlərinin yaradıcılığında xüsusi bir ədəbi forma - bahariyyə meydana çıxmışdır. Məsələn, Füzulinin:

Hava ərayişi-gülzarə oldu çöhrəguşa,
Bahar gülşənə geydirdi hülleyi-xəzra -

misraları ilə başlanan qəsidəsində bahariyyəyə - baharın təsvirinə rast gəlirik.





Ən qədim zamanlardan başlayaraq Azərbaycan, İran və Orta Asiya xalqları baharın gəlməsi bayramını təzə ilin, daha doğrusu, təzə kənd təsərrüfatı ilinin başlanması kimi, “yeni gün”, “novruz” kimi qeyd etmişlər. Bu bayramın mənşəyi onunla əlaqədar olan dastanlar, mərasim və adətlər istər tarixi, istərsə də elmi nöqteyi-nəzərdən maraqlıdır.

Görkəmli rus şərqşünas alimi K.A.İnostrantsev 1909-cu ildə dərc etdirdiyi “Sasani etüdləri” əsərində qədim ərəb müəlliflərindən Kəsrəviyə, Məsudiyə və başqalarına istinad edərək, Sasanilər hökmranlığı dövründə (III-VII əsrlər) İranda Novruz Bayramının necə keçirildiyi barədə məlumat vermişdir. Orta əsrlərin əvvəllərində yaşayıb-yaratmış müsəlman müəllifləri, o cümlədən xarəzmli böyük alim əl-Biruni (978-1048) əsərlərinin öyrənilməsi, ələlxüsus məşhur Ömər Xəyyamın (1048-1131) adına çıxılan “Novruznamə”nin farsca əlyazması axır illərdə dərc edildikdən sonra bu məlumat xeyli zənginləşmişdir.

Biz indi bilirik ki, vaxtilə iki ənənə varmış. Novruz Bayramı bir ənənəyə görə yayın ortalarında, taxıl biçimi və məhsul toplanışı mövsümündə, başqa bir ənənəyə görə yazda, gecə ilə gündüzün bərabərləşdiyi gündə keçirilmlş. Ölən və dirilən təbiət bayramı haqqında qədim təsəvvürlərlə bağlı olan ikinci ənənə Xəzər sahillərində yaşayan xalq kütlələri arasında, o cümlədən azəri xalqı içərisində indiyədək yaşamaqdadır.

Xəyyama aid edilən kitabda deyilir: “Novruz Bayramının keçirilməsinə səbəb budur ki, bəlli olduğu kimi, Günəşin iki dövrü vardır, birinci belədir ki, 365 gün və sutkanın çərəyi keçdikdə Günəş Qoç bürcünün ilk dəqiqələrlnə qayıdır, özü də günün hansı vaxtında çıxıbsa, düz o vaxt da qayıdır. Bu dövr ildən-ilə qısalır” (Ömər Xəyyam, Risalələr, M., 1961, səh. 183). Adamlar həmin günün mahiyyətini dərk etdikdə, başda şahlar olmaqla, onu “yeni gün” hesab etmiş və Novruz adlandırmışlar. Bayramın mənşəyi haqqında rəvayət belədir. Bu astronomik variantı izah edək (yeri gəlmişkən, göstərək ki, Xəyyamın dediyi ikinci dövr Günəşin sutkalıq dövrüdür). İllik dövr isə o deməkdir ki, Günəş göy qübbəsinin böyük dairəsi -



ekliptika boyunca düzülmüş on iki Zodiak bürcündən keçir. Həm də Günəş on iki Zodiak bürcünün hər birini bir aya keçir. Günəşin hərəkət etdiyi dairə - ekliptika 360 dərəcəyə bölündüyü üçün hər bir Zodiak bürcünə 30 dərəcə düşür. Qoç bürcü on iki zodiak bürcündən biridir. Günəşin Qoç bürcünə daxil olması gecə ilə gündüzün, sutkanın işıqlı hissəsi ilə qaranlıq hissəsinin bərabərləşdiyi bahar gününə təsadüf edir. Bütün dünyada qəbul olunmuş Avropa təqviminə görə, gecə ilə gündüzün bərabərləşdiyi bahar gününün yeri yavaş dəyişilir. Xəyyam zamanında gecə ilə gündüzün bərabərləşdiyi bahar günü martın 14-16-na düşürdü, indi isə martın 20-22-nə düşür. Xəyyamın dediyi "Qoç bürcünün dəqiqələri" Qoç bürcü dərəcələrinin altmışda bir hissələridir. Beləliklə, gecə ilə gündüzün bərabərləşdiyi bahar günü yeni il, baharın başlanması, torpağın oyanması ilə əlaqədardır. Yəni Novruz onu bayram edən xalqların təsəvvüründə bahar bayramıdır. Əfsanələr bu bayramın dəb salınmasını əsatiri şahların - ya Cəmşidin, ya da Kəyumərsin adı ilə bağlayır. Kəyumərs obrazı insanlara mədəniyyət, nemətlər gətirən ilk insan haqqında təsəvvürlə əlaqədar idi (zərdüştlərin dini kitabı olan "Avesta"da Kəyumərsin qədim İran adı "Qayə Mərdan", yəni "Ölümə məhkum canlı", başqa sözlə desək, "insan" idi; sonralar bu ad "Qayomərd", "Kəyumərs" oldu). Buna görə də belə hesab etmək olar ki, bayramın mənşəyini Kəyumərslə bağlayan əfsanə daha qədimdir. Bu öz ifadəsini Firdovsinin "Şahnamə"sində də tapmışdır. "Novruznamə" kitabında belə bir rəvayət nağıl edilir ki, ilk şah olan Kəyumərs "Günəşin Qoç bürcünün birinci dəqiqəsinə səhər daxil olduğu günü müəyyən etmiş, İran möbidlərini (kahinlərini) çağırıb, ilin tarixini bu andan başlamağı buyurmuşdur. Kim Novruz günü bayram edir, şənlənirsə, gələn Novruza qədər kefi kök, damağı çağ yaşayacaqdır" (Ömər Xəyyam. Risalələr, səh. 188-189). Sonralar Novruz Bayramını Cəmşid adlı başqa bir əsatiri şahın adı ilə bağlamağa başlamışlar. Rəvayətə görə, Cəmşid onunla şöhrət tapıbmış ki, özünün təxminən minillik şahlığı dövründə adamları mədəni nemətlərdən qənl edibmiş, ölkədə xəstəliklərin kökünü kəsibmiş.

Bu rəvayətlərin bəzəsini əl-Biruni özünün "Ötən günlərin abidələri" kitabında (Daşkənd, 1967) veribdir. Məsələn, o yazır: "Bəziləri isə deyirlər ki, Cəmşid diyar-diyar gəzməyi xoşlayırmış. Günlərin bir günündə Cəmşid Azərbaycanı da görmək istəyir, öz qızıl taxtına əyləşir, adamlar onu çiyinlərinə alıb aparırlar. Günəşin şüaları Cəmşidin üstünə düşdükdə, adamlar bu mənzərəni görüb heyran olur, sevinir və həmin günü bayram elan edirlər" ("Ötən günlərin abidələri", səh. 227). Bu rəvayətdə Azərbaycanda bayramın mənşəyindən danışılır. Lakin burada izah etməliyik ki, deyilənlərin hamısı xalq içərisində məşhur olan "ədalətli şah" ob-







razı ilə, yəni patriarxal-qəbilə quruluşunun yüksək mərhələsinin tarixən real tayfa başçıları haqqındakı təsəvvürlə əlaqədardır. Bir çox qədim müəlliflərin verdikləri məlumat da, bayramın özünün mərasim xarakteri daşıması da Novruzun elə lap əvvəldən xalq bayramı, baharın gəlməsi və əkinçilik işlərinin başlanması şərəfinə düzəldilən bir bayram olduğuna dəlalət edir.

Maraqlıdır ki, əl-Biruni İran, Azərbaycan və Xorasanın qədim bayramlarından danışanda iki növ bayramı bir-birindən fərqləndirir: "Bayram var ki, səbəbi dünyəvi işlərdir, bayram var ki, səbəbi dini işlərdir" ("Abidələr", səh. 224). Əl-Biruni dünyəvi, qeyri-dini bayramlar haqqındakı qədim əfsanələri öz dövrünün - Şərq müstəbidləri zəmanəsinin ruhuna uyğun bir tərzdə mənalandıraraq yazır: "Dünyəvi, əziz bayramlara və əlamətdar tarixi günlərə gəldikdə, şahlar və əyanlar elə adətlər qoymuşlar ki, xalqın könlü şad olsun, ruhu dincəlsin. Bunlar yoxsulların həyatını yüngülləşdirmək, ümidlilərin qəlbində ümid qığılcımlarını sönməyə qoymamaq, ölümə yaxın olanları təhlükədən və bəladan qurtarmaq üsullarından biri idi (yenə orada).

Əlbəttə, əsl həqiqətdə vəziyyət heç də belə deyildi: adət və mərasimlərin binası lap qədimdə qoyulmuşdu, xalq ənənələrinin sabit və davamlı olduğunu görən "şah və əyanlar" İsə xalq qarşısında öz hörmət və nüfuzlarını artırmaq, özlərini ədalətli şah kimi qələmə verib



şöhrətləndirmək üçün bu ənənələri qoruyur və bayramdan istifadə etməyə çalışırdılar. Lakin burası çox əhəmiyyətlidir ki, əl-Biruni dünyəvi, qeyri-dini bayramların dini bayramlardan fərqini qeyd edir; dini bayramlar haqqında yazır ki, bu dünyada deyil, adamları "axirətdə" səadətə çatdırmaq məqsədi ilə dini bayramları "ruhani başçıları sırasına mənsub olan qanunlar" dəb salmışlar (yenə orada). Əl-Biruni qeyri-dini bayramlar sırasında, ən əvvəl, bahar bayramının - Novruzun adını çəkir.

Novruz Bayramından yazan orta əsr müəllifləri göstərirlər ki, Şərq ölkələrində islam dini yayıldıqdan sonra da bu bayramda yaz əmək ənənələri möhkəm yer tutmaqda idi. Məsələn, Kəsrəvi nəql edir ki, Novruz günü padşahın süfrəsində buğda, arpa, darı, qarğıdalı, noxud, mərcimək, düyü, küncüt, paxla və lobya unundan bişirilmiş qoğallar düzülürdü. Süfrənin ortasına müxtəlif ağaclardan kəsilmiş yeddi ədəd budaq qoyulur, müxtəlif vərəqələrdə "artıb", "artacaq", "artan" sözləri yazılırdı. Arpanın böyüməsini müşahidə eləmək yaxşı əlamət sayılırdı. Misirdən və İraqdan tutmuş ta Çin, Türküstana qədər hər yerdə Novruz Bayramında su sıçratmaq adəti geniş yayılmışdı. Bahar bayramında camaat tez-tez keçmiş azadlıqları yada salır, kütləvi karnavallar düzəldərək doyunca şənlik edir





və ağaları kəskin tənqid atəşinə tuturdu. Misirdə izdiham yeni il əmiri (əmir-ən-novruz) seçirdi. Yeni il əmiri üzünü una və əhəngə bulaşdırıb əyninə qırmızı, ya da sarı xələt geyir, eşşəyə minib əlində dəftər küçəni dolaşır, varlılardan vergi yığırdı. Vergi verməyənlərin üstünə su və çirkab atırdılar. Məşhur tacik yazıçısı Sədrəddin Ayni öz "Xatirələr"ində inqilabdan əvvəlki Buxarada Novruz şənliklərini və oyunlarını mahir bir sənətkar qələmi ilə çox gözəl təsvir etmişdi. O zaman Xocəntdə Novruz Bayramında qızlar evlərin damına çıxıb bir ağızdan mahnı oxuyar, xalqın nifrət etdiyi varlıları və məmurları lağa qoyardılar. Ənənələrin təsiri o qədər güclü idi ki, "sadə adamlar"ı bu cür sərbəst hərəkətlərə görə təqib etmir və cəzalandırmırdılar.

Müasir İranda Novruz Bayramının necə keçirilməsi bu cəhətdən çox maraqlıdır. İstedadlı İran yazıçısı mərhum Sadeq Hidayət öz "Heyrəngistan" kitabında bunun ətraflı təsvirini vermişdir. İslam dininə heç bir dəxli olmayan bu mərasim əkinçi bayramının qədim ənənələrini tamamilə özündə saxlamışdır. Məsələn, "Novruz Bayramına 15 gün qalmış buğda və ya mərcimək göyərdir, ev-eşiyi təmizləyirlər. Bayram axşamı təzə paltar geyirlər. Yeni ilə bir neçə saat qalmış "həft sin" süfrəsi açırlar. Məcməyidə adları "s" hərfi ilə başlayan nemətlərdən yeddisi qoyulur. Bundan əlavə, süfrəyə qatıq-süd, pendir və boyanmış yumurta da gətirirlər. Günəşin Qoç bürcünə daxil olması suyun üstünə qoyulmuş yaşıl yarpaqcığın titrəməsindən bilinir. Süfrədə ailənin hər üzvünün adına yandırılan şamlar yanıb qurtarmalıdır". Bütün bu mərasimlər baharın öz gəlişi ilə əkinçiyə xoş gün, səadət gətirdiyi barədə qədim təsəvvürlə bağlıdır. Əlbəttə, bahar bayramı, əsrlər keçdikcə öz ənənəvi mərasimlərini saxlamaqla bərabər, bəzi yeni xüsusiyyətlər də kəsb etmişdir. Hökmdarlar və ruhanilər xalqın bu yeni il bayramını özlərinə "tabe etməyə", ona yeni don, din və istibdad donu geyindirməyə çalışmışlar. Xalq bayramın mahiyyətinə uyğun gələn xüsusiyyətləri qoruyub, bütün yabançı cəhətləri rədd etmişdir.



**YUSİF VƏZİR ÇƏMƏNZƏMİNLİ,**
**Azərbaycanın tanınmış yazıçı-alimi**



Xalqımızın təqdir etdiyi adətlərdən ən birincisi, heç şübhə yox ki, Novruz Bayramıdır. Bu bayram o qədər əziz tutulur ki, hətta "Mövludi-Nəbi" belə buna nisbətən yox mənziləsinə gəlir. Səbəbi aşkardır: Xalq özü yaratdığı bir adəti kənardan gələn və qılınc zoru ilə təlqin olunan bir etiqada tərcih edir. "Biz qılınc müsəlmanıyıq" deyən bir millətin islamiyyətə nə qədər yabançı olduğunu izah etməyə lüzum görülmür və əsrlərdən bəri bütün hücumlara rəğmən təntənə ilə keçirdiyi adət və ayinlərin də nədən irəli gəldiyi aydın bir məsələdir.

Bu günə qədər adət və ayinlərimiz tədqiq sahəsində uzaqda qalmışdır. Az-çox Novruz haqqında fikir yürüdülmüşsə də, tarix nəzərə alınmamış və məsələ mücərrəd mülahizələr şəklində durub qalmışdır. Şərq müəlliflərinin bu barədə verdiyi məlumat qarışıqdır və çox zaman məsələyə sami etiqadları qarışdırıldığından tarixi həqiqət ortada itir gedir. Məsələn, "Bürhani-qate"nin: "Cənab həq aləmi və Adəmi ol gündə (Novruz günü) xəlq elədi" deməsi bizə Tövratı andırır. Halbuki, qədim Azərbaycan... Tövrat fəlsəfəsinə tamamilə yabançıdır.

"Bürhani-qate" və bütün İran müəlliflərinin "Novruz"u Cəmşidə mənsub elədikləri tarixi həqiqətdən uzaq görünür. Bir kərə Cəm və mənsub olduğu Pişdadiyan sülaləsi və Firdovsinin qeyd etdiyi əksər adlar tarixi adlar gərək olmasınlar: Yunani-qədim müvərrixlərində başqa-başqa adlar göstərilir və İran abidə və kitabələrinin son tədqiqi yunanların haqlı olduqlarını meydana çıxartdı. Ola bilər ki, sasanilər təşviq etdiyi kimi, onlardan əvvəlki sülalələrdən bir padşah "Novruz"a artıq əhəmiyyət vermiş, lakin bu adətin bir şəxsə isnad edilməsi məncə, doğru deyil. Lakin "Novruz"un Azərbaycan mədəniyyəti məhsulu olduğuna qaneyəm. Buna zatən "Bürhani-qate"də işarə eləyir. İran mədəniyyətini Midiya və bilxassə Azərbaycan yaratmış və Midiya səltənəti münqəriz olduqda bu mədəniyyət zərdüştiliklə bərabər İrana keçmiş və əsrlərcə pars səltənəti ilə yan-yana azərilər (muğlar) məmləkətin ruhani və mədəni həyatını idarə eləmişlər. (Muğların vəzifəsi atəşin bəqası olduğu üçün onlara "Azərban" deyərdilər. Cəmi "Azərbangan"dır ki, ərəblər tərəfindən "Azərbaycan" şəklinə salınmışdır.) "Novruz" və başqa adətlərimiz də o zamanlardan qalmadır.

"Novruz" adətinə "Avesta"da rast gəlmiriksə də, fəlsəfə tamamilə oradan alınmışdır. Qışla təbiətin ölməsi zərdüştilərə qış və soyuğun müzür olduğunu təlqin edir. Odur ki, qışı Əhrimənin yaradılışıədd eləyirlər. Zərdüştilik məfkurəsində nurani və sağlam bir aləm təsvir olunarkən orada soyuq və xəstəlikdən əsər omadığı qeyd edilir. Bu fikir xalq ədəbiyyatımızda da əsər buraxmışdır:

Üçü bizə yağıdı,
Üçü cənnət bağıdı,
Üçü yığıb gətirir,
Üçü vurub dağıdır.

Bu sözlərdən görünür ki, xalqımız da qışı "yağı düşmən" və yazı "cənnət bağı" deyə təsvir eləyir. Eyni fəlsəfəni də zərdüştilikdə görürük: bir tərəfdən yaz təqdir və təqdis olunur, o biri tərəfdən də qışa etiraz edilir. Birinci "fərvərdin" (mart) ayında, ikinci isə "azər" (noyabr) ayında icra olunur. Qədim Azərbaycanda il yazla başlardı və aylann adı belə idi: Fərvərdin, Ordubehişt, Xordad, Tir, Mərdad, Şəhrivər, Mehr, Aban, Azər, Dey, Bəhmən, İsfəndar. Hər ay otuz günə bölünmüşdü. Ayın birinci günü "Hürmüzd" adlanırdı. "Fərvərdin"in ilk gününə isə "Novruz" deyilirdi. Deməli, "Novruz" ilin və yazın ilk günü deməkdir. Bu gün həyatın oyanmasının, qış kimi müzür düşmənin məğlub edilməsinin bayramıdır. "Novruz" bir rüzumdur: işıq, haqq və həqiqətin qələbəsi deməkdir. Odur ki, ruhunda əbədi həqiqət daşıyan xalq onu təntənə ilə qarşılayır - hər kəs təzə paltar geyir, evlər təmizlənir, şamlar yanır, şirnilər düzülür, masalar çiçək, səməni otu və meyvələrlə bəzənir.



## MƏMMƏD SƏİD ORDUBADİ,
## Azərbaycanın görkəmli yazıçısı



Bahar bayramının mövzusu və mündərəcəsi üzərində bir çox fikirlər mövcuddur. Bəziləri buna dini bir rəng verməyə çalışırlar. Məsələn, iranlılar ilk Bahar bayramını dövlət bayramı - deyə, isbat etməyə çalışırlar.

Lakin etnoqrafiya (elmi-əqvam) alimlərindən fransalı Jerando və din elmləri mütəxəssislərindən məşhur Spenser xalqlarda mövcud olan Bahar bayramını tamamilə dini mahiyyətdən uzaq bir hadisə kimi qiymətləndirirlər.

Bahar bayramını din və dövlətlə əlaqədar etmək uğrunda yürüdülən fikirlərin hamısı müvəffəqiyyət qazana bilməyərək, bir əfsanə halında qalmışdır.

Əksinə, fransız tədqiqçisi Jerando və din tənqidçilərindən Spenserin Bahar bayramının iqtisadi və ictimai amillərin məhsulu olduğu barəsində bir çox qeydləri vardır. Onlar Bahar bayramını, hər şeydən əvvəl, bir əkinçilik bayramı olduğu ehtimalını irəli sürürlər. Bahar bayramının üzərinə hökumət bayramı damğası vurmaq istəyənlər boş bir əllə meydana çıxmışlar. Lakin bu iddianı heç bir tarixi vəsiqə ilə isbat edə bilmirlər.

...İlk bahar bayramının nə islam dini, nə də islamiyyətdən əvvəl mövcud olan dinlərlə əlaqədar olmadığı bu bayramın ayrı-ayrı xalqlar arasında çox qədim zamanda mövcud olduğu ilə sübut olunur. İndi artıq demək lazımdır ki, bu bayram Azərbaycan xalqının milli və ənənəvi bayramıdır.

Azərbaycanlılar islamiyyəti qəbuldan əvvəl Zərdüşt dininə inanmış, oda sitayiş etmişlər. Zərdüştün məzhəbi zamanizühurundan indiyə qədər bir çox dəyişikliklərə uğramış və bir çox şöbələrə ayrılmışdır. Buna baxmayaraq, onun bütün şöbələrində Məzdəkindən ayrılmış olan xalqların içərisində bu günə qədər tarixi ənənələr davam etdirilməkdədir.

Qədim azərbaycanlılar içərisində torpağa hörmət və təzə tarlalar yaratmağa olan sevgi o qədər yüksək və o qədər müqəddəs sayılırdı ki, onlar baharın ilk gününü bir tarla bayramı və bir təsərrüfat bayramı kimi həmişə şadlıqla qarşılayırdılar.

Baharın ilk günü gecə ilə gündüz bərabərləşir. Günəş Həməl bürcünə daxil olduğu üçün dağların qarlarını əridir. Çaylar, şəlalər, buludlar coşur, torpağın və ziraətin bərəkətinə imkan yaradır - deyə, azərbaycanlılar baharın ilk gününü milli və ənənəvi bir bayram olaraq davam etdirirdilər.

Baharın ilk gününü bayram etmək adəti yalnız Azərbaycan xalqına məxsus bir adət deyil, bu bayram əski romalılarda dəxi eyni halda davam eləmişdir. Əski





Romada bugünkü Azərbaycanda olduğu kimi, baharın birinci gününü bayram etmək üçün vaxtkən hazırlıq aparılırdı. Adamlar yuyunub təmizlənir, təzə paltarlarını geyinir, damlarda, həyətlərdə tonqal çatıb üzərindən hoppanır və bayram günü meşələrdə, tarlalarda toplanıb, çalıb oynayırdılar.

Novruz bayramını eyni şəkildə bayram etmək Azərbaycanda dəxi bir adətdir.

Ümumiyyətlə, demək olar ki, xalqlarda mövcud olan Bahar bayramı eyni və bir mövzunun müxtəlif şəkillərindən başqa bir şey deyildir. Əlbəttə, bu bayram zaman və məkana görə, yaxud mühit və tarixi dövrlərlə əlaqədar olaraq, xalqın zövq və istedadına tabe olmaqla müxtəlif və cürbəcür şəkillərdə icra olunur və bəzən də yerini Romada və s. ölkələrdə olduğu kimi başqa bayramlara təslim edir.

Lakin Azərbaycanda saxlanılan Bahar bayramının iqtisadi və ənənəvi əhəmiyyətindən əlavə bir də ictimai qiyməti vardır.

Bahar bayramında bütün bir ili görüşməyənlər görüşür. Xalq bir-birinin əlini dost kimi sıxır. Bir-birinin kefini soruşur və bir-birlərinin vəziyyətləri ilə tanış olurlar.

Bayram günü... təziyəlilər matəmdən çıxır, onlar matəm qarasını çıxarıb, təzə və əlvan paltarlar geyinərək kütlələrə qoşulurlar.



**HÜSEYNQULU SARABSKİ,**
**Azərbaycanın görkəmli səhnə ustası**



"...Novruza iki həftə, on gün qalmış hər kəs öz halına görə hazırlıq görərdi. Qapıbacanı əhənglə ağartmaq, evlərin bayır-bacasını süpürmək, palazxalçanı çırpıb təmizləmək, evi, otağı səliqəyə salmaq, yeni ili bir təmizlik içərisində qarşılamaq ümumi bir adətdir.

Varlı tacir və alverçilərin hazırlığı daha təntənəli olardı. Onlar bayrama xüsusi şəkərçörəyi, badamçörəyi, paxlava və sair bu kimi şirniyyat bişirib hazırlardılar. Belə şirniyyat bişirməyə imkanı olmayanlar bayramı sadəcə xuşgəbarla keçirərdilər.

Bir həftə əvvəldən, istər Aşağıbazarda, istərsə də Yuxarıbazarda bir canlanma müşahidə edilərdi. Baqqallar dükanlarını güzgülərlə, Firdovsinin "Şahnamə"sindən alınaraq ağ parça üstündə çəkilmiş cürbəcür şəkillər, kağız fanuslarla bəzərdilər. Hər dükançı qapısından böyük bir zəng asardı. Onu çalaraq qışqırıb malını tərifləḍiyi kimi, yola saldığı müştərisinin arxasınca da o zəngi təkrar çalardı...

Bayram axşamları arvadlar əlvan xonçalarla qəbiristanlığa gedərdilər. Qəbiristanda hər kəs öz xonçasını ölüsünün qəbri üstünə düzərdi... Qəbir üstündə qadınların ürək yandıran oxşama səsləri, mollalanı Quran və yasin oxumaları ölgün şüalar saçan günəşin dağlar arxasında gizlənməsinə qədər davam edərdi. Sonra hər kəs öz evinə qayıdardı.

Bayram axşamının gecəsi bütün ailə evə toplaşardı. Qələmkar süfrə ortalığa döşənərdi. Evin yuxarı başında uşaqların atası üçün xüsusi döşəkcə salınardı. Süfrə üstə hazırlanmış xonçaya əl uzatmağa kimsənin ixtiyarı yox idi. Kiçikyaşlı uşaqlardan birisi ara-sıra xına ilə boyanmış əlini yemiş götürmək üçün qorxa-qorxa xonçaya uzatdıqda, böyük bacısı onun əli üstə vurub yavaş səslə "çək əlini, ağa döyər" - deyib onu qorxudardı. Evin kişisi icazə verməyincə heç kəsin ixtiyarı yoxdu ki, əlini xonçaya uzatsın.

Kişi isə hələ məşğuldur. O, bir bucaqda salınmış qələmkar canamaz üstə qiraətlə namaz qılır... Namazını bitirdikdən sonra "Həvvil halənə ila əhsənül hal" duasını oxuyur. Bu halda 18 yaşlı böyük oğul tələsik evə daxil olub, küçələrdə tüfəng atıldığını, beləliklə, ilin təhvil olduğunu xəbər verir. Ata qoltuğundan üstü güləbətin çəkili saat qabını çıxarır, gümüş saatının qapağını açıb saata baxır, ilin təhvil olmasına hələ bir neçə dəqiqə qaldığını bildirir, canamazını büküb yığışdırır. İrəli gəlib süfrə başında salınmış döşəkcə üstə oturaraq, arxasına qoyulmuş nazbalışa söykənir. Hamı xonçanın başına toplaşdıqdan sonra bir qədər bayram yemişindən yeyir, anaları südlüplov qazanını yerə qoyur, hər uşağın payını öz boşqabına tökərək verir. Südlüplov yeyildikdən sonra süfrə yığılır".



**MƏHƏMMƏDTAĞI ŞAHTAXTLI, publisist, professor**



Bu gün bizim Zaqafqaziya tatarlarının (azərbaycanlıların - red.) çox böyük əksəriyyəti üçün ilin ən təntənəli günüdür. Günün bayram edilməsini özündə təzahür etdirən əlamətlər, xeyli dərəcədə, şərqi xristianların - yunanların, gürcülərin keçirdikləri xristian pasxasını xatırladır. Bayram çərşənbə axşamından çərşənbəyədək - bayrama bir gün qalmış başlanır. "İlin axır çərşənbəsi" adlanan bu axşam hər ailə sahibi mütləq meyvə alıb, nəinki təkcə öz ailə üzvlərinə paylayır, həm də qohumlarına, dostlarına hədiyyə göndərir. Axşamçağı, gün hələ batmamış bütün kişilər, qadınlar, uşaqlar qəbir üstünə gedib mərhum qohum-əqrəbalarını yad edir, qəbiristanlıqda halva adlanan şirin Şərq yeməyi paylayırlar.

Günəş batdıqdan sonra bütün evlərin damında və həyətlərdə tonqal yandırılır, tüfənglərdən atəş açılır; varlılar fişəng atırlar. Çərşənbə ağır gün, ilaxır - ilin axırı isə ondan betər hesab olunur. Odur ki, çərşənbənin ağırlığını yüngülləşdirmək üçün müxtəlif vasitələrə əl atırlar. Ehtimala görə, axır çərşənbəni quş kimi ötüb keçməyən adam təzə ildə dərd-sərə tutulur. Yüngülləşdirici vasitələr çoxdur. Ən yaxşıları bunlar hesab olunur: əvvələn, həyətdə bir-birindən azacıq aralı məsafədə yeddi qalaq odun yandırıb, onların üzərindən dayanmadan, nəfəs almadan tullanmaq. Tonqalların üzərindən tullanış onların sayı qədər, yəni yeddi dəfə təkrar edilməlidir. Dan yeri sökülməmiş yuxudan durub, dəyirmana getmək və sübh açılanadək yeddi dəfə dəyirman daşının altından keçmək də eyni dərəcədə yaxşıdır. Bundan başqa, həm də bir kuzə dəyirman suyu götürüb aparmaq və bu sudan bayram çörəyi bişirmək üçün istifadə etmək lazımdır.

İlin müəyyən vaxtında evlərin damlarında və həyətlərdə tonqal yandırılması adətinin mənşəyini müsəlmanlar belə izah edirlər: evlərin damında şölələnən tonqallar Ümeyidlər sülaləsinə qarşı üsyana çağırış idi... Ümeyidlərə qarşı üsyan, İmam Hüseynin qətlə yetirilməsi islam tarixində şəksiz bir faktdır. Lakin belə bir siyasi-dini hadisənin xatirəsi ilə od qalayıb, şölələnən tonqalların üzərindən atılıb keçmək adəti arasında ümumi cəhət nə ola bilər? Nəyə görə atəş məhz Ümeyidlərə qarşı üsyan günündə ona yaxınlaşanlara həyatın dərd-sərindən qurtarmaq təminatı vermək xüsusiyyəti kəsb edir? Qədim qiyamçıların misilsiz ehtiyatsızlığa yol verərək gizli surətdə bir yerə toplaşmaları, qiyamın digər üzvlərinə də məlumat vermək, onları bir yerə cəmləmək məqsədi ilə evlərin damlarında tonqal yandırmaları - belə bir gur reklamdan





Kosaya salam verdinmi?

istifadə etmələri nə dərəcədə ağıla batandır?

Zənnimizcə, ilin axır çərşənbəsinin bayram edilməsi öz-özlüyündə mövcud bir adətdir. Hüseyn tərəfdarlarının üsyanı ilə heç bir əlaqəsi yoxdur. Çərşənbə üsyandan əmələ gəlməmişdir.

Həyatın dərd-sərindən və hər cür bəlalarından qurtarmaq üçün yanar tonqallar üzərindən atılıb keçmə farsların və onlarla din, əxlaq, adət və dünyagörüşü birliyi zəminində qaynayıb qovuşmuş Zaqafqaziya tatarlarının (azərbaycanlıların - red.), yaxud, daha doğrusu, istər rus təbəələri olsun, istərsə də fars, Azərbaycan canişinliyində məskunlaşmış Azərbaycan türklərinin islamaqədərki adətlərinin labüd qalığıdır. Xalqlar dinini, dövlət quruluşunu daha tez dəyişir, nəinki əsrlər boyu müqəddəs tutduqları adətlərinin ən kiçik təfsilatından imtina edirlər.

Din dəyişilərkən yeni məzhəb qərarlaşanadək artıq formalaşmış olan adətlər təzə dini əqidələrin hökmranlığı altında yaşarlığını qoruyub saxlamaq üçün yeni şəraitin düsturlanna uyğunlaşır, öz mənşəyindən uzaqlaşıb kökünü yeni dinə məxsus rəvayətlərdən biri ilə əlaqələndirir.

Dövlətlər, millətlər və xalq fərdiyyəti haqqında anlayışlar yalnız sivilizasiyanın inkişafı nəticəsində dini etiqadların asılılığından çıxıb, əsl mahiyyətini üzə çıxarır. Az inkişaf etmiş bir xalqda mömin adamın mənəvi varlığı üzərində hökmranlıq edən qüvvə yalnız dindir; xalq onun fəaliyyətinə təsir göstərən başqa amilləri qəbul etmir. Ona bütün fəaliyyətində dini ənənələrlə birbaşa və ya dolayısı yolla bağlı göstərişlər lazımdır. İslam şəriətində axır çərşənbənin bayram edilməsi barədə göstəriş yox idi. Bununla belə, xalq bay-

ram etmək istəyirdi. Lakin ənənələrə söykənmədən heç bir təzə nəsnə yaratmaq mümkün olmadığından vəziyyətdən bir çıxış yolu qalırdı: özündən ənənə uydurmaq. Elə belə də oldu. Şərq fantaziyası bütpərəstlik dövrünün xalqın qanına, iliyinə işləmiş adətlərini təkallahlıq təlimi pərdəsi altında qoruyub saxlamağa kömək etdi.

Müsəlmançılığın yaranmasınadək olan dövrdə çərşənbə günündə tonqal qalayıb yandırmaq adətinin mənşəyini farsların digər adət və ənənələrindən ayrılıqda izləyib öyrənmək olmaz, bu heç maraqlı da deyildir.

İndi isə bayramın təsvirinə keçək.

Çərşənbə gününün bayram axşamı hamıdan çox uşaqlar və itlər həyəcanlanırlar. Tonqalların alovu, fişənglərin parıltısı, atılan güllələrin gurultusu, meyvələr, çərəzlər və bu axşam kəndli daxmasından tutmuş ta şah sarayınadək bütün evlərdə mütləq mövcud olan plov uşaqları həddən ziyadə əyləndirir. Tonqallardan qalxan alov, xüsusilə evlərin hamısında eyni vaxtda tüfəng və tapançalardan açılan yaylım atəşi itlərə başqa cür təsir göstərir... Xristian itlərini deyə bilmərəm, ancaq bizim müsəlman itləri olduqca dincdirlər və adamların öz cinslərini qırmaqdan ötrü icad etdikləri silahların gurultusuna dözə bilmirlər. Atəşfəşanlıq başlayan kimi, onlar dəhşətlə hürür və ulayırlar... Çoxusu təpəsinə cin vurmuş sahiblərini tərk edərək bir neçə həftəliyə aradan çıxır, sahiblərinin dinc instinktlərinin qaydaya düşdüyünə əmin olduqdan sonra geri qayıdır.

Çərşənbə günü, deyildiyi kimi, evlərin damında və həyətlərdə tonqal qalamaqla başlanır; varlı adamlar fişəng atır, ovçular isə ara vermədən atəş açırlar. Gündüz heç kəs işlə məşğul olmur. Bir-birinin evinə görüşə getmirlər. Adamlar, əsasən, vaxtının xeyli hissəsini şəhərdən kənarda, dostlarının və ümumiyyətlə, könüllərinə yatan adamların məclisində keçirirlər.

Çərşənbədən Novruza qədər ("yeni günə", yəni yazın başlanğıcınadək) olan vaxtda bayrama hazırlıq tədarükü görülür. Düzdür, bazar açıq olur, amma alış-veriş xeyli məhdudlaşır. Daha çox, bayram libası və bayram görüşünə gələn qonaqlardan ötrü şirniyyat alınır.

Ən yeni təqvimə əsasən - İranın bir neçə şəhərində, o cümlədən Təbrizdə hər il təqvimlər nəşr edilir - yazın başlandığını bildirən dəqiqə çatdıqda şənlik iştirakçıları bir-birini yeni il münasibəti ilə təbrik edirlər. Bayramın ilk günü tamamilə yaz mövsümünə həsr edilməlidir.

Təbrizdə Azərbaycan hakimi yeni il münasibəti ilə şənlik iştirakçılarına "təhvilşahısı", yəni keçid pulları adlandırılan xırda gümüş sikkələr paylayır. Bununla da, əlbəttə, qışdan yaza keçid nəzərdə tutulur.

Bayram axşamı mütləq, tərkibində yumurtası çox olan xüsusi xuruşla hazırlanmış plov bişirilir. Şeşəndaz adlanan bu plovu ildə yalnız bir dəfə bişirirlər.

Adamlar bayramda libaslarının, heç olmasa, bir hissəsini təzələməlidirlər.





Bunu təkcə cibləri boş olanlar icra edə bilmirlər... Bütün evlərdə qonaqlara bayram şirniyyatı verilir. Onun da evlərdə xəmirdən hazırlanıb, iç qoyulmuş ən yaxşı növü (bunlar "çökə" adlanır) Təbrizdən gətirilir.

Bayramın dördüncü günündən etibarən qadınların görüşə gediş-gəlişi başlanır; bunun üçün yalnız üç gün vaxt ayrılmasına baxmayaraq, onların görüşləri adətlə müəyyən olunmuş vaxtdan çox çəkir. Bütün bayram vaxtları müsəlmanlar təkcə qəlyənaltı ilə, çərəzlə kifayətlənməlidirlər, nahar və şam yeməyi hazırlanmır. Aşpazlardan istifadə etmək dəbdə deyil. Xörəyi ev sahibinin arvadı, qızları, bacıları hazırlayırlar ki, onlar da bayram günlərində görüşə getməklə və öz geyim-kecimləri ilə məşğul olurlar. Nə etmək olar, adət belədir!

Bayramın birinci üç günü məclis xanı təyin edilir. O, təntənəli məclislərdə, el şənliyində kimi istəsə cərimələndirə bilər. Ümumi rəqslər, gəzintilər təşkil olunur ki, bu tədbirlərdə iştirak etməkdən heç kəs imtina edə bilməz. Xristian pasxasında olduğu kimi, bahar şənliklərində boyanmış yumurta döyüşdürürlər.

Müsəlmanlar bahar bayramına, eləcə də ondan əvvəl gələn axır çərşənbəyə dini don geyindirirlər. Deyirlər ki, bu gün dördüncü xəlifə - Abutalıbın oğlu Əli hakimiyyət başına keçmişdir. Şiələr onu Məhəmmədin birbaşa qanuni varisi hesab edirlər. Belə ki, onlar ilk üç xəlifənin hakimiyyətinin təməl daşı olmuş seçkili əsasın qanuniliyini qəbul etmirlər.

Çox ola bilsin ki, Əlinin hakimiyyət başına gəlməsi günü baharın əvvəli ilə bir vaxta düşmüşdür. Lakin Novruz İslamın qəbul olunmasından çox-çox əvvəl bayram edilirdi. Onun ülvi gözəlliyi ölgün, keyimiş təbiəti dirçəldən mövsümün başlanğıcının həmişə və hər yerdə özü ilə gətirdiyi sevincdədir.

Bahar insanları dini xatirələrdən asılı olmayaraq sevindirmәiidir. Novruzu... İslamın qəbul olunmasından əvvəl bayram edirdilər və əgər indiki iranlılar İslama etiqad etməyi tərgitmək xəyalına düşsələr, Novruz bayramına bundan zərrəcə xələl gəlməz. Təbiət kimi, bahar kimi Novruz da əbədidir.



**MƏMMƏDHÜSEYN TƏHMASİB,**
***görkəmli folklorşünas-alim***



Bütün dünya xalqları kimi, bizim xalqımızın da tarixində saysız-hesabsız bayramlar olmuşdur. Lakin bunların heç biri Novruz Bayramı qədər geniş yayılmamış, xalqın məişətində bu bayram qədər dərin kök sala bilməmişdir.

İslamiyyət uzun müddət bu bayramı unutdurmağa çalışmış, müvəffəq ola bilməyəcəyini başa düşdükdən sonra onu öz tarixi ilə əlaqələndirməyə, hətta dördüncü xəlifənin xilafətə keçməsi ilə bağlamağa cəhd etmişdir. Lakin bunun sonradan qondarıldığı şübhəsizdir. Əvvələn, müsəlman bayramları qəməri təqvimə əsaslandıqları üçün ilbəil öz yerlərini dəyişdikləri, yəni başqa-başqa vaxtlarda, başqa-başqa fəsillərdə icra edildikləri halda, Novruz sabit bir şəkildə ancaq və ancaq yazın birinci günü qarşılanır. Elə buna görə də islam ruhaniləri güzəştə getməyə məcbur olduqdan sonra belə bu bayramı özlərinin əsl dini bayramlarından fərqləndirməyə çalışmış, hətta məsxərəyə qoymaq, hörmətdən salmaq, təhqir etmək məqsədi ilə onu topal bayram, şikəst bayram, yəni hərəkət edə biməyən bayram adlandırmışlar.

Aydındır ki, əgər bu bayram, doğrudan da, dördüncü xəlifənin xilafətə keçdiyi qələbə gününün bayramı olsaydı, xüsusilə şiə ruhaniləri onu belə adlandırmaz, ona belə yuxarıdanbaxma münasibət bəsləməzdilər. İkinci tərəfdən tarixdən çox yaxşı məlumdur ki, dördüncü xəlifə xilafəti heç də yazın ilk günü ələ keçirməmişdir. Nəhayət, əgər, hətta bu da belə olsaydı, hər hansı xəlifənin xilafətə keçdiyi gün heç vəchlə Novruz, yəni yeni gün, ilk gün adlandırıla bilməzdi. Çünki nə ümumiyyətlə, islam tarixi bu gündən, nə də islam tarixinə görə yeni il bu aydan başlayır.

Bəzən bu bayramı atəşpərəstliklə də bağlamağa cəhd edirlər. Düzdür, bu bayramla əlaqədar mərasimlərdə günəşlə, odla, hətta mehrpərəstliklə bağlı ünsürlər çoxdur. Lakin azacıq diqqətli araşdırma göstərir ki, Novruz zərdüştilikdən də çox-çox qədim olmuş və bu din də islamiyyət kimi Novruz Bayramından ancaq öz məqsədinə uyğun istifadəyə çalışmışdır. Bunun, doğrudan da belə olduğu, yəni Novruzun zərdüştilikdən qədim olduğu onun əsas mərasimlərinin təfərrüat, ünsür, adət və ənənələrindən, onların əsaslandıqları inam və etiqadların səciyyəsindən aydın bir şəkildə görünməkdədir. Bu mərasimlərdən biri ilin axır çərşənbəsində od üstündən tullanmaq mərasimidir.

Qədim etiqadlara görə qış çillələrə bölünür. Bunlardan birincisi qışın girməsi ilə başlanan Böyük çillədir ki, qırx gün





davam edir. İkincisi, xalqın öz ifadəsi ilə deyilsə, "qışın oğlan çağıdır"dır ki, Kiçik çillə adlanır və böyüyün yarısı qədər, yəni iyirmi gün davam edir. Nəhayət, qışın son ayı gəlir ki, bu da hər biri yeddi gündən ibarət olan dörd balaca çilləyə bölünür. Yuxarıda deyildiyi kimi, bu bölgünün əsaslandığı yeddi və qırx rəqəmlərinin müqəddəsliyi islamiyyətdən də, zərdüştilikdən də çox qədimdir. Son ayın dörd yeddigünlük çilləyə bölünməsi isə ümumiyyətlə, təbiətin dörd əsas ünsürdən ibarət olması etiqadına əsaslanır. Bu dörd ünsür hava, su, od, torpaqdır. Qədim etiqadlara görə, son ayın hər həftəsində guya ki, bu ünsürlərdən biri canlanır, oyanır, yaşamağa başlayır. Bunların hamısının dirilməsi, qızması, yeni keyfiyyət kəsb etməsi ilə də, ümumiyyətcə, təbiət oyanır, qış qurtarır, yaz başlanır. Qədim və orta əsrlər Azərbaycanda bu dörd ünsürdən hər birinin qışın əsarətindən qurtarması həmin ünsürün adı ilə bağlı olan həftənin son çərşənbəsində xüsusi bir şəkildə qeyd edilirmiş. Qurtaran ilin axır çərşənbəsində isə bütün evlərin həyətində tonqal qalanır, hamı odun üstündən tullanaraq "Ağırlığım, uğurluğum", yaxud "Azarım-bezarım tökül bu odun üstünə" deyirlərmiş. Tək elə bu mərasim çox aydın bir şəkildə sübut edir ki, Novruz nə islam dini, nə də zərdüştiliklə bağlı olmamışdır. İslam tarixi ilə, xüsusən şiə hərəkatı ilə ona görə bağlı deyil ki, əgər belə olsaydı, tonqallar gərək damlarda yandırılaydı və bir növ xəbərdarlıq əlaməti daşıyaydı. Halbuki mərasimdə bu ünsürlərin nişanələrindən heç birisi yoxdur. Atəşpərəstliklə isə nəinki üzvi şəkildə bağlı deyildir, bizcə, hətta onun dini əsaslarının tam əksinə, tam əleyhinədir.

Zərdüştiliyə görə od müqəddəs idi. Buna görə də atəşgələrdə ona sitayiş edir, "başına dönür", ətrafında fırlanırdılar. "Çevir ocağa, al qucağa" atalar sözü də, oda məhz belə münasibətin, yəni onun müqəddəsliyinə olan etiqadın hökm şəklinə düşmüş ifadəsidir. Lakin məlumdur ki, müqəddəs hesab edilən şeyin üstündən tullanmaz, ağırlıq-uğurluğu, azar-bezarı onun üstünə tökməzlər. Demək olar ki, bu mərasimdə odun müqəddəsliyinə yox, azar-bezarı yandırıb məhv etmək qüdrətinə malik əlamətləri yaşamaqdadır. Başqa sözlə deyilsə, bu mərasim atəşpərəstlikdən çox-çox qədimdir. O dövrdə hələ od müqəddəsləşdirilib məbud dərəcəsinə qaldırılmamışdı.



Gələn Novruza qədər!



■ Çəməndə quzu...





■ Baharın özü





Dərələrə duman, çən
Yetir, özün bilərsən...
Kimə nə istəyirsən
gətir, özün bilərsən!
Dünyanın başına tök
ətir, özün bilərsən,
Keçəlin başına tük
bitir, özün bilərsən -
Amma ki, gəl, ulu yaz,
Gəl ki, gecikmək olmaz...

Buludu yelpikləyib
Şum üstünə cuna çək,
Xalça, palaz, ipliyi,
yorğanı eyvana çək,
Qayadakı kəkliyin
ayağına xına çək,
Evini yıx təkliyin,
könülləri günə çək,
Amma ki, gəl, ulu yaz,
Gəl ki, gəlməsən olmaz!

Yalın ağacdan çıxır
payızın buynuzları,
Sarılıb duman öpür
öpülməmiş qızları...
Əvvəl xəzəli süpür,
sonra sındır buzları,
Yetimə yemlik gətir,
xəcil et qansızları -
Amma ki, gəl, ulu yaz,
Gəl ki, gəlməsən olmaz...

Gəzirəm qapı-qapı
sahibsiz pişik kimi,
Hanı anam - bahanım -
Ev kimin, eşik kimin?!
Ələnir yağışların
gözümün yaşı kimi.
Anam yatan torpağı
yırğala beşik kimi -
Tez elə gəl, ulu yaz,
Gəl ki, gəlməsən olmaz!!!



Xarıbülbül...



## Əziz oxucu!

Azərbaycan xalqının iqtisadi və mədəni-mənəvi həyatının simvollarından olan Novruz Bayramı elə zəngin sərvətlər toplusudur ki, onun fəlsəfəsini dolğun əks etdirmək üçün istənilən həcmdə, istənilən sayda müəlliflər tərəfindən yaradılmış, istənilən adda kitablar yenə də yetərli olmayacaq. Çünki Novruz Bayramının, bu adət, ənənə və mərasimləri sisteminin özü qədim tarixi köklərə sahib olan, bu gün də yaşayan, zənginləşən qüdrətli bir kitabdır. Novruz adlı əbədiyaşar kitabın müəllifi isə ayrı-ayrı fərdlər deyil, dünya mədəniyyətinə Qobustan rəsmləri, saz, muğam, xalça kimi estetik dəyərlər, "Kitabi-Dədə Qorqud" adlı möhtəşəm söz abidəsi bəxş edən Azərbaycan xalqıdır! Azərbaycan xalqının yaradıcı qüdrətindən qürur duymaq, ata-babalarımızdan yadigar qalan adət ənənələri, bəşəri sərvətləri qoruyub artırmaq, gələcək nəsillərə çatdırmaq borcunu dərindən dərk etmək duyğusu necə də şərəflidir... Həmişə Novruz ucalığında qərar tutun. Yeni gününüz mübarək!

Azərbaycan xalq bayramı
**NOVRUZ**
«Təhsil», Bakı, 2011.

---

Kitabda Azərbaycanın xalq rəssamları Səttar Bəhlulzadənin, Toğrul Nərimanbəyovun, Arif Hüseynovun, Ağaəli İbrahimovun, eləcə də gənc rəssamların rəsm əsərlərindən, AZƏRTacın və nəşriyyatın fotoarxivindən istifadə olunmuşdur.

Şeirlər Vaqif Bəhmənlinindir.

Bədii və texniki redaktoru: Abdulla Ələkbərov
Kompyuter dizaynı: Aqil Əmrahov
Korrektoru: Ülkər Şahmuradova

Çapa imzalanmışdır 06.10.2011. Kağız formatı 60x90 1/8
Fiziki çap vərəqi 26. Sifariş 116. Tiraj 1000.

«Təhsil Nəşriyyat-Poliqrafiya» müəssisəsinin mətbəəsində çap olunmuşdur.

Bakı, AZ 1052, F.Xoyski küç., 121 ᐞ
Əlaqə telefonları: (+994 12) 567 81 28/29;
Faks: (+994 12) 567 82 68
http://www.tahsilnp.com
e-mail: info@tahsilnp.com

